**VAQİF BAYATLI ODƏR**

# YUPYUMRU BİR EŞQ İLƏ

«ÇİNAR—ÇAP»
BAKI—2008

Naşiri:
***Qoşqar İsmayıloğlu***

*Kitabda
Nazim Bəykişinin, Məzahir Avşarın, Fəxrəddin Miralayın,
Tahir Salahovun, Salvador Dalinin əsərlərindən
istifadə olunmuşdur.*

**BAYATLI VAQİF.**
B31 **YUPYUMRU BİR EŞQ İLƏ. "ÇİNAR-ÇAP"**
nəşriyyatı, Bakı, 2008, — 336 səh.

B $\frac{4702060200}{122}$

**© "ÇİNAR-ÇAP", 2008**

*Allaha,*

***Vətənə — ancaq Ruhdan Bədənə,***
***düşmən oxun haqlamağa***
***oxdan iti uçub gedən***
***oxdan çitəli Bədənə***

Boş görünən bu yer əslində, boş deyil, gündüz görünməyən ulduzlarla dolu göyüzü kimidir — Allahın qəlbindəki hələ gəlib bizə çatmamış İlahi Sözün — İlahi Şeirin varlığına kiçicik bir işarədir.

O Sözün — Şeirin varlığını duymadan səhifəni çevirsək də çevirməmiş kimi olacağıq.

Xoş gəlmisiniz! Lütfən, ayaqyalın keçin,

göyüzündə hər an üzü Tanrıya doğru ayaqyalın yüyürün, yüyürürkən körpələşən, cocuqlaşan, hər ulduzla öpülən ayaqlarınız, üzü Tanrıya açılan bütün çiçəklərtək göyüzünə açılan əlləriniz, hər an Allaha «Can!» deyən canınız yupyumru bir duayla,

yupyumru bir göylə,

# YUPYUMRU, MÜBARƏK BİR EŞQ İLƏ

qanadlanacaq.

Qapını çırpıb gedəniniz də olacaq, çırpdığı qapının səsinə canında yatmış qanadı ayılanınız da. Yerüzünün, bütün Kainatın tək İbadət yeri—göyün ən uca nöqtəsi olduğunu duyanınız da.

Gedənlərə sevgilər,

qalanlara hər an üzü Tanrıya doğru sonsuz uçuşlar!

# BU GÖYÜZÜNDƏN O YANA TANRIYLA ÖYÜNƏN KÖRPƏ SU

Varı, yoxu — dibində daş,
yanında da daş balası,
bu göyüzündən o yana
Tanrıyla öyünə-öyünə,
sevinə-sevinə axır su.

Axdıqca o bircə-bircə,
yumru-yumru, dükcə-dükcə,
hər an, hər an, gündüz, gecə
«Tanrım, Tanrım», dedikcə,
yupyumru bu kainatda
ancaq təkcə o, o, təkcə,
heç özü bilmədən zalım
hamını hamıya sevdirdikcə,
yerüzündə
ən çox sevdirənləri
göyüzündə
ən çox sevilənlərdən etdikcə,

Sən də sevinirsən, Tanrım.

Sevinirsən, sanki xəbərin yox,
hamını o su sevdirir,
göyüzündə öz-özünə
açılır o suyun arxı,
Sevinirsən, heç çəkməmiştək
dünya boyda qəmi, ahı,
milyon ildi göydə tənha, tək
bir damla axan suya da
sevinirsən, İlahi,

## BÜTÜN KAİNAT, BÜTÜN GÖYÜZÜ-
## TANRININ QAPISI AĞZI!

**Yer-göyüzündə kiçicik bir nöqtə yox,**
**Göyüzünün kiçicik bir nöqtəsi!**

Qapıdakı Adam, sus,
hamını hamıya doğma etmək, sevdirmək —
hamının vətəni olmaq haqda düşün,
bil, bil, sən sevdirdiyin qədər
sevdirdiklərinə vətənsən,
Vətən ol — hamını hər an doğma et, sevdir,
çocuğa çevir, hər an hamının ayağını
öpmək ucalığına en Vətən torpağıtək,
həm də hər an qalx özünü öt Vətən göyütək,

Həm də bil, yer həqiqətləri əsl həqiqəti,
əsl göyüzünü səndən gizlətmək üçündür.
Sənin bütün fəlakətlərin sənin özünün
göyün bir hissəsi, göyün özü olduğunu
duya bilməməyindən gəlir!

Yerdən xilas ol,
sən göyün övladısan, insan,
həm də demə, sən bir heçsən,
demə, gəldi-gedərsən,
hər an, hər an inan, bil,
Allahı duyub gəldiyin,
Vətənçün,
Allahçün ola bildiyin,
ölə bildiyin qədərsən.

# SƏNİ ALLAH YARADIBSA, ALLAHA LAZIMSAN DEMƏK

Min illik dərbədər dərtdən,
yadigar qəmdən də keçsən,
heç bir zaman ruhdan düşmə,
düşünmə ki, sən bir heçsən.

Səni eşitməsə heç kəs,
döz o kütləvi karlığa,
döz o kütləvi korluğa,
lap min il də qal tənha, tək,
səni Allah yaradıbsa,
bil, sən ən böyük varlığa —
Allaha lazımsan demək.

Hər gələn səsdən, sözdən,
hər an Allahı duy, dinlə,
ancaq onda bilərsən,
hər an səni duya-duya,
Allah danışır səninlə,
bilərsən, sən heç deyilsən,
həm də nə qəm, nə kədərsən,
Allahı duyub gəldiyin,
Vətənçün,
Allahçün ola bildiyin,
ölə bildiyin qədərsən.

## ÖLÜMSÜZLÜK GƏLMƏZ, GEDİLƏR

Gözün göz yaşından sərxoş,
Canın qəmdən!
Ağlama, dur!
Əsil göz yaşı ağlanmır,
Əsil göz yaşı udulur.

İgidlik — İlahi uçuş!
Hə göz yaşı, nə də gülüş!
İkisi birdən dadılır.

Ölümsüzlük səni dilər!
Ölüm hər adama gələr,
Ölümsüzlük gəlməz, gedilər.

# HAMI HƏR ŞEYİ BİRDƏN, ALLAH DA TƏK-TƏK İSTƏYİR

Tanrı düzəntək yanbayan
insan da hər an həm tikan,
həm də çiçək istəyir,
Həm də hamı hər şeyi
bir az yalan şəklində,
bir az da gerçək istəyir.

Gec-tez min ilə, bir günə,
hamı çatır haqq deyənə,
amma doymur, canı yenə
tam rahatlığıyçün cana
bir az da kötək istəyir.

Dirilər yerdən, göydən,
Ölülər qəbirdən, gordan,
Hamı hər şeyi birdən,
Allah da tək-tək istəyir.

Adamların çoxu həm Allahlı, həm də Allahsız olur. Əslində, bu cür Allahlı olmaq da elə Allahsızlıqdır. Allah bütövlük, tamlıq sevir. Elə torpaq da, Vətən də. Biz özümüz bütöv olanda Allah da bizi bütöv görəcək — Azərbaycan da Bütöv olacaq.



İLAHİ, mən indi bilirəm, insanın, həm də onun vətəninin özünü harada və necə görməyi əsas deyil, əsas Sənin onu harada və necə görməyindir.

## , SƏNİN ELƏ VARLIĞIN, TƏK, ÖLÜMÜN YOXLUĞU DEMƏK

Mən indi bilirəm, İlahi, Sən niyə elə hey mənə «Ölüm yoxdu!», «Ölüm yoxdu!» — dedizdirirdin, məni hər an ölümdən yox, ölümsüzlükdən danışdırırdın. Sənin varlığın elə ölümün yoxluğuymuş.

## SƏNİN VARLIĞIN ELƏ ÖLÜMÜN YOXLUĞUYMUŞ

Ölüm ancaq, adamın ölməyə və qorxmağa vaxtı qalmadığı bir çevrilmə anıymış, adamın azad ruha çevrildiyi, göyüzünün bir parçası, həm də göyüzünün özü olduğu, təkcə Allahı duyduğu bir anmış ancaq. O anda, Tanrım, mən Sənin bütün Kainatda yatan heç bir canlını diksindirməməkçün səssiz bir sevgiylə bütün Kainatın üstünə örtdüyün göyüzünə necə toxunduğunu duyunca, diz çökdüm, ancaq yerüzü dizlərim altından sürüşüb getdi və göyüzündə, Kainatın ortasında diz üstdə tək-tənha qaldım. Elə o anda Sənin də ordan uzaqlaşdığını duyunca heç özüm də bilmədim, nədən dəhşətə gəlmədim.

Mən indi bilirəm, indi bilirəm, İlahi, Sənin bir yandan məndən uzaqlaşdığını duyduğum anda Sən milyonlarla yandan mənə yaxınlaşıbmışsan.

Həm də bilirəm, İlahi, insanın özünü harda və necə görməyi əsas deyilmiş, əsas Sənin onu harda və necə görməyinmiş.

# DÜNYANIN RUHİ AÇILIŞI —

## BÜTÜN KAİNATÇÜN İLAHİ KİTABLAR İLKİN BURA ENMİŞ, ODUR Kİ, YERÜZÜ — BÜTÜN KAİNATIN TƏK İBADƏT YERİ, BÜTÜN KAİNATIN, BÜTÜN DUALARIN ÜZÜ BƏRİ

Tanrım, Sən bütün Kainatın tək İbadət yeri — göyüzündə diz çöküb alın qoymağa Möhürdaşıtək Yerüzünü və öz yanınacan sonsuz ucalıq, sonsuz ibadəttək Eşqi yaratmısan, həm də bütün Kainat üçün İlahidən gələn Kitabları ilkin bura endirmisən. Həm də bütün duaların üzünü ən böyük İlahi İbadətə, bütün sevgilərin üzünü ən uca İlahi Eşqə doğru yönəltmisən. İlahi İbadəti, İlahi Eşqi bütün Kainata burdan yaymısan. Həm də əbədi sükuta qərq olmuş bütün Kainatda eşidilən ibadət və eşq pıçıltısından başqa səs yox. Bunları mənə Sən anlatdın, Tanrım.

Ən uzaq ulduzlardan belə İlahi Eşq İbadətiyçün bura doğulmağa gələn milyonlarla adamların ayaqlarını eyni anda necə yuyub çatdıra bilməyimi, o ayaqları qoxlamaqdan niyə doymadığımı, bu dünyaya azıb gəlmiş, dünya hökmranlığına can atan yad ruhların nədən mənə dəymədiklərini də Sən anlatdın.

Mən indi bilirəm, İlahi, milyonlarla ayaq onların özlərinin yox, ruhlarının çocuqluq ayaqlarıymış, ruha çevrilirkən, Sənə doğru yüyürürkən hamı körpəliyinə qayıdırmış. Bütün Kainatda Sə-

nə doğru yüyürən o körpə ayaqlardan da gözəl, o ayaqlardan da ətirli, oxşanılası, öpüləsi heç nə yoxumuş. Həm də bilirəm, bir bəndən bu dünyada hamıdan yuxarı yox, hamıdan aşağı olmağı diləmiş və onu tapdayan milyonlarla ayağı göyüzündən ona uzadılmış çiçəklər şəklində görmək, qoxlamaq və yumaqla mükafatlandırılmış. Bunu da Sən anlatdın, Tanrım.

Ayaqları yuya-yuya, mən altdan yuxarı, adamların göyüzündə gördüyüm gözlərinə baxırdım. Göyüzü ancaq gözlərdən ibarət idi.

Mən indi bilirəm, İlahi, o milyonlarla göz Sənin gözlərinmiş, ruhdan düşdüyüm, məni görmədiyini düşündüyüm anlarda Sən milyonlarla gözlə mənə baxırsanmış.

## YIXILARKƏN HAMIYA DUA AÇAN KÖRPƏ VARLIQ

Mən bütün bunlardan sonra anladım, İlahi, şeir, kitab, söz yoxumuş, yerüzündən göyüzünə min bir yana, hamısı da Sənə doğru sonsuz yollar, sonsuz uçuşlar, sonsuz sevgilər varmış ancaq.

Həm də anladım, qanad uçmağa, səs oxumağa, söz yazmağa, insanın özüyçün duası Allaha mane olurmuş. Həm də insan özü duymadan Kainatın lap qırağında, göyüzünün yıxılan, axan bir yerindən heç vaxt görmədiyi, bir qəribə körpə varlıq hər an dönə-dönə dua edir ona... Həm də o sevgili körpə elə bilir dua oxuyan Allah özüdür, o isə ancaq duanın hər insançün hər an bir ayrıca oxunduğunu duyur və buna sevinir.

Yıxılırkən özündən başqa hamıya dua açıb sevinənlər, bütün dünyanın üstündə duaları çiçəktək açılanlar, Sizinçün sonsuz göyüzünə

## SONSUZ YOLLAR, SONSUZ UÇUŞLAR, SONSUZ SEVGİLƏR:

## İLAHİ YOL

Ən ağrılı, ən ağır
çıxılmazdan da çıxmağa
hər an üzü Allaha
tək bir yol olar ancaq,
hər an ayağın altında,
həm də başın üstündə,
görünməz,
duyular ancaq.

# PEYĞƏMBƏRİN MERACI

Tanrım, O kimdi gedir hey,
hay vermir dosta, tanışa
gedir, gedir üzü göyə,
göylə danışa-danışa.

Tanrım, kimi görür göydə,
Tanrım, kimlə danışır O?!
Bəlkə ruhumuzu görür,
ruhlar candan çıxan andan
bizimlə danışır O?

Durmur, durmur, gedir yenə
son dağı aşantək aşır
yerüzündən göyüzünə,
«Ya Rəsulallah» — deyir
onu yola salan dağlar,
onu yola salmaqçün
göyə dikələn çaylar,
«Ya Rəsulallah» — deyir
onu qarşılayan göylər,
O dayanmır, gedir yenə,
aşır bizə görünməyən
başqa bir göyüzünə.

O bütün Kainata
eşqnur yayır aytək, güntək,
Tanrım, O daha görünmür,
indi O ancaq duyulur,
bilinməz olur Sənintək.

Bu dağları bir zamanlar
göyüzünün son qatından

aşağıya çəkdiyintək
Tanrım, o Ruhunuru,
o İlahinur elçisin
bir daha görmək üçün
bu göyü də aşağı çək.

— Bir gün bir an gələcək
bu göy də o dağlartək
aşağıya çəkiləcək,
keçir indi ordan da O,
sənin heç vaxt duymadığın
başqa göyə baxa-baxa,
ordan da başqa dünyanın
ayı kimi çıxa-çıxa,
günü kimi doğa-doğa.

Orda da, orda da,
«Ya Rəsulallah» — deyir aylar,
«Ya Rəsulallah» — deyir günlər,
«Ya Rəsulallah» — deyir göylər.

## GÖYÜZÜNÜN PEYĞƏMBƏRİN AYAĞI ALTINA GƏLMƏYİ

O hara getdi, yürüdü,
elə onu görən anda
anaların qucağında
hönkürən daşlar,
ağlayan quşlar kiridi.

O, göyə baxmadan nəsə
göylər haqda oxuyurdu,
həm də hər gün hər göy üçün
daha gözəl, daha təzə
göyqurşağı toxuyurdu.

Bir gün gördü, toxuduğu
göyqurşağı deyil, nəsə
bu dünyada hər şeydən
daha gözəl, daha təzə,
həm elə bil görünür,
həm də görünmür gözə.

Göyü toxuya-toxuya
O, eşqdən ağlayırdı,
O oxumurdu daha,
ancaq bilmirdi göz yaşı
çoxdan çatıbdı Allaha,
həm də bilmirdi, Tanrı
Tanrıqurşağı deyibdi
toxuduğunun adına,
o qurtaracaq, bir göyüzü
enib gələcək göylərdən
onun ayağı altına.

# HƏRƏNİ ÖZ EŞQİ BOYDA GÖYƏ ÇEVİRİR ALLAH

Hər nə görürük, dadırıq,
aldanırıq, aldadırıq,
Allahı da aldadan an
bizi devirir Allah,
bu dünyanı canımızdan
silir, sivirir Allah.

Son sorğuya yığılırıq,
üzüquylu yıxılırıq,
günah altda yox oluruq,
bir söz sormadan bizi
hərəni öz eşqi boyda
göyə çevirir Allah.

Bu dünyada hər nə var, nə,
Göytək görünür gözünə,
baxıb hər insan üzünə
bizdən göytək uça-uça,
hər eşq üçün bir ayrıca
salavat çevirir Allah.

## O DÜNYAYA ƏLİDOLU KEÇMƏYƏ

Qəmi qanada çevirmədən
qəmi ancaq qəmtək dadan,
beləcə də dərdi, qəmi
kəm-kəm dadan, kəm-kəm udan
giclərin canı ağrıyır,
Tanrım, ən qəmli cana sanc
ən iti eşq xəncərini,
sanc, eşq yolu aç xəncərə,
bir eşq yolundan min, milyon
ağrımaz can aç giclərə.

Bu dünyanın tozuna da,
ən az payın azına da,
lap aslanın ağzına da
acların yolu ağırdı,
Tanrım, aslan boğazından
qanadlanmağa, qalxmağa
bir aslan an aç aclara.

Ölüm də saymadı keçdi,
dur, daha ölmək də gecdi,
bu can ölümə də heçdi,
Tanrım, dünyadan köçməyə
ölüm bəyənən bir can aç,
Tanrım, ölüm bəyənən
Bir ad-san aç heçlərə.

Canı olan gəzir, bulur
o dünyaya gedən yolu,
o dünyaya əlidolu
ağırdı köçlərin yolu,
Tanrım, Tanrım, o dünyaya
əlidolu keçməyə
bir yol, bir yön aç köçlərə.

## GÖYÜZÜNDƏN — ALLAHIN AYAĞI ALTINDAN NURDƏN DƏNLƏMƏYƏ

Tanrıdan uzaqlaşdıqca insanlar
qanadsızlaşır, qəddarlaşır onlar,
qəddarlaşır onların
yerişi, yolu, izi də,
çəkilib insanlardan
göyüzünün o üzünə
qəm çəkir Tanrı özü də.

O hansı göyüzüdü?!
Dünya boyda qəmi çəkən
o göz kimin gözüdü
bizi qəm uçqunundan,
qəm selindən qorumaqcün
çəkib hər an qəmi yorur?!
Dünya çoxdan yıxılardı,
Dünya ancaq belə durur,
Tanrı bir gözüylə bizə,
bir gözüylə qəmə baxır,
dünya qəmi şam yanantək
Tanrının qəlbində yanıb
dünyanın dibinə axır.

Ora haradı, hara?!
Ancaq Tanrı üzlü ruhlar
bilib uçurlar ora,
orda qonub göyüzünə,
qulaq söykəyib göyə
göyüzündən Allahın
ayaq səsin dinləməyə,
ovcundan nursu içməyə,
ayaqları altından
nurdən dənləməyə

## ÖLMƏYƏ YOX,
## QOXLAMAĞA VƏTƏN!

Düşmən oxun haqlamağa —
oxdan iti uçub gedən,
oxdan iti bədən!
Qucaqlayıb ölməyə yox,
Qucaqlayıb qoxlamağa Vətən!



Bir yol da demədi «Vətən»,
Vətən, adına qıymadı,
Hamı sənin sərvətindən,
O, sənin atlı dilindən,
bəy adından doymadı.

# GÖZÜ GÖZ YAŞINDAN İLAHİ DOĞMA, ÜZÜ GÖZ YAŞINDAN İLAHİ ƏTİRLİ

Bu torpaq, bu dağ, bu dəniz,
uçan, qaçan hamımızın,
ya gül içrə, ya qan içrə
dua etməyə son hücrə —
Azərbaycan hamımızın.

O, beş-on adamın deyil,
Beş-on atanın deyil,
Alanın, satanın deyil,
Hamımızın, hamımızın,

Xanım-xatın, xanım-banu
bulaqları göz yaşından,
çayları lilindən doğma,
ağrısı bağrım başında,
tikanı gülündən doğma.

Doğma, doğma, dəli, dəli,
Hər yalanı hər gerçəkdən,
gerçəyi yalandan doğma,
gerçəyi yalandan dəli,
min illərin zalımları
gündə min yol cuşa gəlib
canımı alandan doğma,
canları alandan dəli.

Heç sevilməyən hər kəsin
Sevdirəni də mən oldum,
Sevdirdim, mən də vətən oldum,
Ölsəm, bir Allah bilməsin,
bir də gözləriniz sizin,
Mən sizi sevdirməkdən,
Sizi sevməkdən öldüm.

## BİR YURD OLUN, BİR YURDLAŞIN

Bölünməyin, yurtdaşlarım,
Bir yurd olun, bir yurdlaşın,
Bir dərd olun, bir dərdləşin,
mələməyin, bozqurdlaşın,
göydə bu yurdun göz yaşı,
yerdə savaşı qalıncan.

Qoç quzusu da qurd əmən
bu yurd ular zaman-zaman,
Bu yurd mələməz bircə an
ilk yurd yeri göy, asiman,
ovu qartal, ovu aslan
son qurd uçuşu qalıncan.

Əli yetməsə heç nəyə,
bir anda sıçrayar göyə
qılınc kimi endirməyə
aydan sıyrılan ay daşı,
göydən göy daşı qalıncan.

Enib özünü öyəcək,
düşmənə «Dev ol!» deyəcək,
olcaq, devi də dovşantək
qovub ovlayıb yeyəcək
bircəcə dişi qalıncan.

Bu Anayurd — Anaçiçək:
«Atlan, qanatlan, Qalx,» — deyəcək,
göydən Allah da enəcək,
fatehlər doğmağa aslan,
aslanların dodağından
öpməyə kişi qalıncan.

# ALLAHIN ƏTƏYİ BAYRAQ, ALLAHIN ƏTƏYİ VƏTƏN

— Bizi azad edin! — deyir,
Bayraqlar uçmaq istəyir,
Həm də yalan eşidir,
yaltaqlıq görür deyə
kabinetlərdən xilas edin,
uçurdun bayrağı göyə,
Qəhrəmanlarçün böyüyən
körpə güllər də görməyə
ən uca yerə qaldırın,
yenə görməsə körpələr,
Arazı, Kürü dikəldin,
Araza, Kürə qaldırın

Qılınctək sıyrılsa xalq,
qılınctək sıyrılar haqq da,
haqdan sıyrılar bayraq da.
Uçurdun bayrağı göyə,
«Allah! Allah!» — deyə-deyə
məzarlarının qınından
qılınctək sıyrılıb qalxan
şəhidlərimiz də görməyə.

Altında xalq, üstündə Haqq,
Bu nə sıyrılış,
Bu nə uçuş, atam bayraq?!
Ulduzları ötən bayraq,
göyün ən son göyünü də,
Allahın ətəyini də
bizə vətən edən bayraq,
sənə layiq olsaq ancaq,
bizə qanadından qanad,
göyündən göy ver, uçaq.

## DÜŞMƏN YUXUSUNA YURDUMUZ GİRSƏ, O AN DUYUQ DÜŞÜB ONU VURMASAQ, DÜŞMƏN ZAMANINDA HAQLANA BİLMƏZ

*Azərbaycanı babəkləşdirməyə*
*cəhd edən Ənvər Məmmədxanlıya*

Əsil döyüşçüyə səngəri qəfəs!
Düşmən səngərin al, sarı yarama,
döyüş o səngərdə döyüşdü ancaq,
gedib qayıtmasa aldığım nəfəs
nəfəsi ölümdən geri almağa
ölümün üstünə yürüşdü ancaq.

Qılınc gülümsəsə, təndə can gülsə,
əsir torpaqları alıb durmasaq,
heç bir Türkün gözü bağlana bilməz,
düşmən yuxusuna yurdumuz girsə,
o an duyuq düşüb onu vurmasaq
düşmən zamanında haqlana bilməz.

Həfəsi doğmalar, səsi doğmalar
heç vaxt deyilməyən nəğmələr deyib
heç vaxt alınmayan yurtlar aldırar,
qanadlı nəğmələr, atlı nəğmələr
ölən əskəri də ata qaldırar,
ölən atları da qanadlandırar.

Ölüm də bir uçuş, əvvəlcə yerə,
sonra yer altına, sonra göylərə.
Ölüm — həm də yürüş hər Türk oğluna!
— Öldün, Türk?! Qalx, göyün
boş qalan andı,
Onsuz da yer Sənin! Qalx Göy uğruna!
Türkün Göy yürüşü başlanan andı.

## AZƏRBAYCAN — SU XANIMLAR, OD ƏRLƏR, OD BƏYLƏR YURDU

Azərbaycan — su xanımlar,
od ərlər, od bəylər yurdu,
atı dəryalar, dənizlər,
qılıncı ulduzlar aşan,
göylər aşan göylər yurdu.

Bu dünyaya göy payıtək
göydən gəlib Azərbaycan,
onun adında bir olub
həm Od olmaq, həm Ər olmaq,
həm Bəy olmaq, həm də Bəycan.

Odur eşq odu içdiyim
Anabulaq, Anaçay,
Qanad alıb uçduğum
Atabayraq,
Anaulduz, Ataay.

O Atabayraq, Atahaqq
hamımıza qanad verib
özü qanadsız uçmada,
qolları çatmasa da
ayı ulduzun qucmada,
ancaq utandığından
səkkiz qanadın da açıb
ulduzu aydan qaçmada.

Bax! Göy, al, yaşıl! Hər an yaz!
Ay-ulduzu heç vaxt batmaz,
Göydən Vətəni qoxlayan
Şəhid ruhlarıyçün pərvaz!

Utanıb öz qoxusundan
onu həm də, gündüz, gecə
göydə ulduzlar qoxlayar,
yerdə çiçəklər gizlicə,
Dünya çəkər ciyərinə
bayrağımın ətrini
göy ətritək, Azərbaycan,
ulduz ətri,
ay ətritək, Azərbaycan.

# ÖLÜM HƏLƏ ÖLMƏK DEYİL, CANLILAR

Siz də, siz də eşitdinizmi? Bunu Hadi dedi, ya Cavad, Yusif Vəzir dedi, Müşfiq dedi, ya Cavid:

— Budurmu, budurmu ölüm?! Bundanmı qorxursunuz, ay zalımlar! Bundanmı qorxursunuz?!



Yaydan çəkik,
oxdan iti oğullar
baxmaz ölümə, qəzaya,
baxmaz fələyin qurduğu
min kələyə, oyuna,
doğular, elə doğulan kimi də
bələyini dolayar biləyinə,
kəfənini dolayar boynuna

## BÖYÜK OĞULLAR AYAQYALIN YÜYÜRÜB KEÇDİKCƏ GÖYÜZÜNÜN QATLARINI TANRI DA GÖNDƏRƏR SONUNCU QATDAN BÖYÜK OĞULLARIN ÇİYİNLƏRİNƏ BÖYÜK OĞULLARIN QANADLARINI

Bu Şeir dünyaya gələndə bu dünyada nə insan, nə də dar ağacı vardı.
Şair həmişə olanları yox, olacaqları yazır.
— Şair, sən ilk sözlərin sevgiylə yan-yana dayanmamağındanmı duydun dar ağacının yaranacağını?!

Böyük oğullar doğulan gün
doğulur göyüzündə
böyük oğulların qanadları da,
doğulur yeraltında
böyük oğulların
balaca dar ağacları,
balaca cəlladları da.

Böyüyür, qalxır yerüzünə
dar ağacları meşə-meşə,
böyüyür böyük oğullar da
dar ağaclarına dırmaşa-dırmaşa,
dar ağaclarının başından göyüzünə aşa-aşa

Göyüzündə ayaqyalın yüyürüb
Keçdikcə göyüzünün qatlarını,
Tanrı da göndərər sonuncu qatdan
Boyük oğulların çiyinlərinə
Böyük oğulların qanadlarını.

Dar ağacları altında böyüyər balaca cəlladlar da,
böyüyər böyük oğullara altdan yuxarı baxa-baxa,
onların göydə gözdən itmələrindən
bir az sevinə-sevinə, bir az da qorxa-qorxa:
— Qurban olum, çox getmə göyüzündə uzağa,
Göyüzündə ulduz çoxdu, ulduzluqda itərsən,
— Qorxma, balaca cəllad, sən kətilini,
kəndirini hazırla,
göyüzündən yıxılsam, kətilini dartarsan.

Böyük oğulla doğular dəliliyi, dəlixanası,
doğular qəza yolu, yolun qəzası,
o böyüdükcə böyüyər dəliliyi də, dəlixanası da,
böyüyər qəza yolu, yolun qəzası da,
doğular həbsxanaların ən qaranlığı, ən nəmlisi,
sözlərin ən şaxı, nəğmələrin ən şuxu, ən qəmlisi,
o böyüdükcə böyüyər kameraların nəmi də,
nəğmələrin şuxluğu, nəğmələrin qəmi də.

Ancaq dar gələr, dar gələr kameralar
böyüyən böyük oğulların əyinlərinə,
bədənləri yarıb keçər tavanları
göyüzü də dar gələr çiyinlərinə.

Beləcə, böyük oğullar baxmaz qanuna, yazıya,
baxmaz ölümə, qəzaya,
baxmaz fələyin qurduğu min kələyə, oyuna,
doğular, elə doğulan kimi də
bələyini dolayar biləyinə,
kəfənini dolayar boynuna.

# HƏR ŞEY BÜTÖV ADDIMLARLA QAÇAR YARIM ADAMLARDAN, YARIM HAQLARDAN, YARIM MİLLƏTLƏRDƏN, YARIM XALQLARDAN

*Bütöv Azərbaycanın son göyüzündən*

Hanı şəhərlər, kəndlər, ağaclar,
evlər, damlar?
Göyüzündə tikanlı məftillərin üstüylə
Hara qaçırlar, hara, bu ayaqyalın adamlar?!
Qaçırlar, qaçırlar
ayağı həmişə yalın həqiqətin dalınca,
Qaçırlar yurd-yurd, ölkə-ölkə, qitə-qitə,
çünkü insan ayaqyalın, çılpaq olunca,
daha yaxın olur Allaha, təşnə olur həqiqətə.
Kim bilir, bəlkə də əsil həqiqət
ancaq Allah üçündü,
insançün ona çatmaq yox,
ancaq ona yaxın olmaq mümkündü,
o çatılmaz ucalıqda, enilməz dərindədi,
bəlkə insançün yazılmayan
o həqiqəti aramaq dərdindəndi
bu gün dünyanın yarısının yalındı ayağı.

Yorulmadan qaçır, qaçır ayaqyalın adamlar,
Çünkü onlara yarım həqiqət yox,
bütöv həqiqət gərək.
Çünkü yarım həqiqət
həm də yarım yalan demək.

Tikanlı illərin, əsrlərin üstüylə
qaçır ayaqyalın qitələr, yarımadalar,
qaçır, qaçır hər şeyin dalınca
yarımaddımlarla yarımadamlar,
hər şey də bütöv addımlarla
qaçır, qaçır yarımadamlardan,
yarımhaqlardan,
yarımazadlıqlardan, yarımxalqlardan.

Arazın qaçan tikanlarına ayaq qoya-qoya
qaçır, qaçır ayaqyalın azərbaycanlılar,
çünki Arazın tikanları ən ağrısız yeridi
dünyanın,
Ancaq o tikanların üstünə
ayaqlarını qoyanda yalın
ağrıları bir azca rahatlaşır azərbaycanlıların,
bir də nə geyirsə geysin
yenə ayaqyalın, yenə çılpaq
yurdu yurdun, haqqı haqqın
o tayında qalan xalq.

Bir də nə Araz?! Araz nə gəzir,
canım, tikanlar var ancaq,
minillik tikanlarımız bir-birimizə,
min ildi böyüyüb indi çıxıb üzə,
güllərimiz bəs eləməz beş-on gün
sevməyə,
ancaq tikanlarımız çatar min illər,
milyon illər ayrılığa,
hələ neçə dəfə birləşib ayrılacağıq təzədən,
bəlkə heç vaxt bilməyəcəyik
nədi birlik, nədi ayrılıq,
ayrılanda elə biləcəyik birik,
bir olanda elə biləcəyik ayrıyıq.

Torpağım ağrıyır, çayım ağrıyır,
dənizim ağrıyır, göyüm ağrıyır,
Göyüzündə bayrağım,
bayrağımda ulduzum, ayım ağrıyır,
Göyüzündə tikanları görmədən qatar-qatar,
tikanlara sancılıb düşür bizim elli,
bizim dilli durnalar,
ancaq nə qədər düşərlər
çata bilməzlər yerə,
onları göyüzündə saxlaya-saxlaya
göyümüz ağrıyar göyümüz üstdə,
gözümüz ağrıyar gözümüz üstdə,
yaşımız ağrıyar yaşımız üstdə,
cəlladlar yorular, başlar yorulmaz —
təzə-təzə başlar cücərər, qalxar
başımız düşdükcə başımız üstə.

... həm də İlahi yol aldatmaqdan yox, aldanmaqdan keçir. Həqiqətə aldada-aldada yox, aldana-aldana gedilir. Bununçün insan ən azı insan olmalıdır. Ən azı insan! Heç vaxt aldatmayan, hər an aldanmağa hazır insan!

Allaha doğma?

# Azərbaycan

Allaha yad?



Azərbaycan onu Allah istəyəntək qaldırmağa çalışan böyük və fədakar insanlarının qədrini nə qədər biləcəksə, dünya da Azərbaycanın qədrini bir o qədər biləcək. Sevgiylə yaratdıqlarına görə elə Allah da! Elə Allah da!

## AZƏRBAYCAN — GÖYÜZÜNDƏN ASILMAĞA, QALXIB ALLAHA QISILMAĞA ANAKƏNDİR

Özlərini asanlar tək günah eləmirlər, həm də ayaqlarının ucuyla son təkanı verib donuq dünyanın çarxını hərəkətə gətirməyə çalışırlar

Kim dərdinin, qəminin
dəmindən gülə-gülə,
kəmindən ölə-ölə,
Kim də bezib biryolluq
Özünü asıb dolanır,
Kim təptəzə kəndirlə,
Kim də çox kasıb dolanır.

Kim boynunu ətirləyib,
kəndirini ütüləyib,
ayağının bir ucuyla
bu dünyanı itələyib,
«Ölüm Ana, gəldim» — deyib
Anayurtdan, Anadərtdən
ayağın üzüb dolanır.

«O, həm ov, həm ovçu» — deyin,
Ovçunu tez təbrikləyin,
Elə ova da baş əyin,
İlk ovudu ovçu bəyin —
Öz boynuna kəmənd atıb
Ömrünü kəsib dolanır.

Qoca kimi qocalmayıb,
Gənc kimi də gənc olmayıb,
Yerdə bir gün dinc olmayıb,
Şükür, kef çəkir indi,
Bir özüdü, kəndiridi,
Göydə gəzib dolanır.

# AZƏRBAYCAN — QOXLAMAĞA ATAQILINC, AĞLAMAĞA ANAKÜNC

*Min illərdi dünyaya öldürməkçün yox,*
*yaşatmaqçün döyüşməyi öyrədə*
*bilmirsən, Ataqılıncım.*

Azərbaycan — göyüzündə
Çiçəktək qoxlamağa
Ataqılınc, Atabilək,

Qalxan düşmən ordusunu,
Oxunu haqlamağa
Atasinə, Atakürək,

Bir kimsəyə qoxlatmadan
Allahacan saxlamağa
Anagül, Anaçiçək,

Ən uca yuvalar üstdə
Yuvalar bağlamağa
Anatel, Analələk,

Ən uca dualar üstdə
Dualar bağlamağa
Anadil, Anadilək,

Göyüzündə diz çöküb,
Üz sürtüb ağlamağa
Anakünc, Anadirək,

Və hər an, hər an Tanrının
Kirpiyilə yırğalanan
Anabeşik, Anayüyrək —
Hamımız içində körpə,
Hamımız içində köyrək,
Hamımız içində çiçək.

# VƏTƏN -

Vətən — Tanrı sözü? Tanrı özü?
Bütün kainat, bütün göyüzü, yerüzü?
Bütöv Azərbaycan? Türk dünyası,
İslam dünyası?
Tanrıyla öyünən körpə su?
Tüstüsü heyrətlə baxan ocaq?
Qonşu toyuna on hasar o
yana oynayan uşaq?
Çatları ürəyimdəki çatlarla
üst-üstə düşən divar?
Hamını hamıya sevdirdiyini
düşünən körpə dualar?
........
Hansı, hansı?
Vətən hamısı, hamısı!
Ruhum, canım, sus, sakit ol,
Vətən ən çox səssiz sevgiylə şad olar,
öləndən sonra da ruhda səssizcə yaşadılar.

# HƏM QADIN, HƏM ALLAH KİMİ HƏR QADIN

Yenə, yenə bu dünyada
Hər şey dəyişsə də ancaq
bütün kişi ölümləri
yenə eyni qalacaq.

Hökmü, hökmü
gözlər verəcək yenə,
canı, canı
baxışlar alacaq yenə,
bütün bağışlanılmaz
kişi günahlarını
Allah bağışlamasa da
qadın bağışlayacaq yenə.

Baxıb, baxıb bəndəsinin
günah bağışlamağına
gülümsəyər göyüzü də,
Tanrı cavabıtək ona
bütün bəndələri birdən
bagışlayar Allah özü də.

Həm qadın,
Həm Allah kimi hər qadın,
Hər an özünü həm qadın ,
Heç özü bilmədən də
Həm də Allah sayar o,
Bütün dünya günahlarını
Qadın kimi dinləyər,
Allah kimi bağışlayar o.

## SƏN HAMIDAN ZALIM, BALACA ÇİÇƏK

Sən də zalım çıxdın, dəli qardaşım külək,
apara bilmədin başımdakı dumanı,
heç olmasa, qoyma, duman aparır məni.

Sən də zalım çıxdın, bacım günəş,
heç demədin də başımdakı bu nə qarmış,
əridə bilmədin bu bir ovuc qarı da,
bacı, sənin də elə adın varmış.

Sən də zalım çıxdın, balaca balam dəniz,
Heylədin, ulduzun duyuq düşdü?
Balığını neynirdim, —
Ulduzuna tor atdım,
Toruma balıq düşdü.

Sən hamıdan zalım, körpəcə çiçək,
çünki təkcə sən soruşursan məndən:
— Zalım olmaq nədi?!
— Mən də bilmirəm, anam,
Amma, deyəsən, bu da bir cür istəkdi,
zalımlara dua etmək,
zalımları sevməkdi.

# NƏFƏS ALA-ALA OLMAZ ORAYA, SEVGİNİN GÜCÜNDƏN NƏFƏS ÇIRPINAR, ÇIRPINIB, ÇIRPINIB NƏFƏS GİZLƏNƏR

Hər biri özü öz dəminin üstdə
adamlar dolaşır dəstəbədəstə
özünü həm şam,
həm də ki, şah sayan bir dilənçinin
ovcundan dağılan qəminin üstdə.

Şam olmaq da bəsdi şah sayılmağa,
Şamlığın var, demək, taxtın, tacın var,
Şam, taxtın mübarək, tacın mübarək!
Şahlığın var, demək, toxun, acın var,
Şah, toxun mübarək, acın mübarək!

Tacın taxtın üstdə,
toxun acın üstdə ballandığıtək
qəmin qəmin üstdə ballanır, ey Şah,
bolluğundan daşır, daha, deyəsən,
mən də kef çəkirəm qəmdən bal çəkib,
mən də bir başqa cür şaham, deyəsən.

Sən qəmin şahısan, şahlığın şanlı,
Mən qəmin şanıyam, şanım dolubdu,
Həm qəmin özüylə, həm nəğməsiylə,
Həm də gülüşüylə canım dolubdu.

Balına gəlməyi diləmə məndən,
Çünki eşqin azdı, ey Şah, qəmindən,
həm də şahlığından şamlığın da az,
həm də bu dünyadan qəmin çox dayaz.

Ey şah, mənim qəmim eşqin üzünü
dünyadan gizlədən saç şəklindədi,
min il sərxoşluqçün bir qurtum şərab,
min il dəlilikçün tac şəklindədi.

Can canı qoxlayar o saçın altda,
Qoxlayıb, qoxlayıb can canı tapar,
Hər canın içində
sevgini gizlədən qəfəs çırpınar,
çırpınıb, çırpınıb qəfəs gizlənər,
tel teli qoxlayar, tel teli öpər,
sevginin gücündən nəfəs çırpınar,
çırpınıb, çırpınıb nəfəs gizlənər.

Nəfəs ala-ala olmaz oraya,
Çünki cana çəkər nəfəs sevgini
çəkdikcə sevginin gücün alacaq,
nəfəs ala-ala olmaz oraya,
orda yaşamazlar, orda ölməzlər,
orda gecə-gündüz sevərlər ancaq.

Ən eşqli dəlilər, ən şam dəlilər
ancaq orda çiçək aça bilərlər,
ancaq onlar ora istənən anda
qanadsız, nəfəssiz uça bilərlər.

Sən ancaq sev atıl onun üstünə,
ancaq ondan heç vaxt qanad istəmə,
ora atılmaqdı çətini ancaq,
elə nəfəssiz də,
elə qanadsız da ora atılcaq,
sən özun bilmədən sənin yerinə
göy nəfəs alacaq, qanad açacaq.

# ÖZÜM ÖZÜMƏ GÜLÜB, ÖZÜMÜ SARIMAQDAN SƏRXOŞ OLURAM

Kim eşqlə dolu bədəndən sərxoş olur,
kim ayrılıqlarla dolu badədən,
mən hər an yenidən yıxılırkən
göyüzünü saxlayan bir dirəkdən
hər an qalxıb onu
yenidən yürüməkdən sərxoş oluram.

Kim quş olmaqdan sərxoş olur,
Kim quşa atılan daş olmaqdan,
Mən göydə o daşa sarılmaqdan,
Sarılıb göydə o quşu da
Yerə düşən anda yeri də, daşı da
Ağrıdan qorumaqdan sərxoş oluram.

Hanı məndən ağıllı, məndən dəli hanı?!
Məni dəlilərdən ağıllı,
ağıllılardan dəli bilirkən hamı,
mən özüm özümü
hamıdan gülməli saymaqdan,
özüm özümə gülüb,
özümü sarımaqdan sərxoş oluram.

# NƏ ADAM KİMİ ADAMAM,
# NƏ MƏLƏK KİMİ MƏLƏYƏM

Hə adam kimi adamam,
nə mələk kimi mələyəm,
narım, gilənarım,
az öncə necə görmüşdün
dön bax gör yenə eləyəm?!

Boynumu vurdular yenə,
başım ayrıldı bədəndən,
üzünü çevirdin yana,
başım heç,
üzün ayrıldı məndən.

Qoy inciməsin cəllad da,
Allahım eşitdi məni,
baxdı mənə, baxdı sənə,
bircəcə anda çiynimdən
başımı cücərtdi yenə.

# BALACA BUYNUZLU, BALACA QANADLI XANIMLARIN GÖYÜZÜ VƏ YA, TANRIM, NƏ BALACA YARATMISAN GÖYÜZÜNÜ, BİR EŞQ ŞERİNƏ DƏ ÇATMADI ENİ, UZUNU

Sevgiləri sevgilərdən,
ayrılıqları ayrılıqlardan,
şərabları şərablardan,
əzabları əzablardan dadlı,
balaca buynuzlu, balaca qanadlı
xanımların göyüzündə yaşamışdım
bir zamanlar,
gözləri mavi təlləriylə sürməli,
hər birinin dərdindən
bir ayrıca dəli olmalı,
bir ayrıca özünü öldürməli.

Tanrım, sənsən bu dünyada
eşq verən hər eşqsizə,
dad verən hər dadsıza,
qanad verən hər qanadsıza,
Ancaq, Tanrım, hardan tapıb
vermişdin o qədər eşqi,
o qədər dadı, o qədər qanadı o göyüzünə?!
Sənin sevgin kimiydi hər şey o göyüzündə,
o göyüzü xanımlarının
nazına bənzəyirdi hər təzə bahar da,
yerüzündə yerişinə baxıb o xanımların
göyüzündə yeriyirmiştək
üçmağa çalışırdı quşlar,
göyüzündə uçuşuna baxıb o xanımların

yerüzündə uçurmuştək
                    yeriməyə çalışırdı ağaclar,
yadımdadı, necə uçan donun ətəyində,
saçın, çiynin, boynun ətrində yox olduğum,
çiyinlərin fırlanışından,
saçların, ətəklərin uçuşundan yıxıldığım.
Sonra oturub göyüzündə,
                    bir ulduz budağı altda
diz-dizə, göz-gözə şərab içirdim onlarla,
həm əbədi ayrılıq, həm də
                    əbədi görüş dadırdı şərab,
həm də xəlvəti öpüş.
Deyən, ən çox öpüşün xəlvətiliyindədi
hamı gülümsünürdü hamıya,
həm də sevgiylə göz vuran
bic ulduzlara, eşqdən dəli Aya,
həm də heç kim aldatmaq
                    istəmirdi heç kimi,
ancaq sevib, sevib aldanmaq istəyirdi hamı,
əslində, əsl eşq də sevib, sevib
sevginin sonunda aldanmaq istəməkdi,
bəlkə də bu dünyada
sevgi də elə ona görə tənha, yalqız, təkdi.

Yadımdadı, bir xanımın
yerişinin hər anına şer yazdığım,
çiçək şəklində yazılardı bütün hərflər,
hər çiçək həm çiçəyidi, həm də yazıydı,
o həm çiçək əlifbası, həm də eşq
                    əlifbasıydı.
Yerüzünü qurtarıb göyüzünə,
yağışlara, buludlara, ulduzlara
                    yazırdım şerimi,
Yadımdadı, göyüzündə yazmağa
                    yer tara bilmədiyim:

— Yerüzüntək göyüzün də
nə tez qurtardı, İlahi,
nə balaca yaratmısan bu Kainatı,
bu yerüzünü, göyüzünü,
bir eşq şerinə də çatmadı eni, uzunu.

Deyəsən, o xanım mənim həm sultanım,
həm də kənizim olmamışdan qabaq
bu göyüzünün sultanıymış,
həm kəniz, həm sultan olmağı
üstün tutmuşdu təkcə sultan olmaqdan,
həm də düzü, mən axıradək bilmədim
kimdi hökmdar orda,
həm də hər şey elə qəribəydi orda,
dəniz elə bil yeridi, göy elə bil dənizidi,
hamı həm sultanıdı, həm quludu,
həm xanımıdı, həm kənizidi.

İlahi, yenə canım titrəyir,
demək, yenə eşqtək canıma dolur o göyüzü,
İlahi, görürəm, həm canımdadı,
həm də görünən o dağın başında o göyüzü,
görürəm, ordan da uçdu, ordan da uçdu,
mən də uçuram, İlahi,
o göyüzünün dalınca, mən də uçuram,
o göyüzü buludların o üzündədi indi,
çəkib buludları da,
çəkib bütün göyüzünü də aparır o,
onun dalınca uçur, uçur bütün kainat,
bir az öncə buludlar onun yelkəniydi,
indi bütün kainat onun yelkəni,
Tanrım, əbədi orda saxla, orda tut məni,
istəsən lap yaddan çıxart, orda unut məni,
Tanrım, indi mən o yelkənin üstündə,
bütün kainatın başındayam,

anladım, mənə nə üçün
vermisən bu qanadı,
daha sən əziyyət çəkmə, İlahi,
çəkib mən aparıram bütün kainatı,
Üzüm o yelkənin,
həm də bütün kainatın üzündə,
canım kainat deyilən bu dəli
sevdalar dənizində.

# MİN İL HƏBSDƏ UNUDULAN, MİN İL QOLLARI NAZİLƏN UŞAQ

Dünyadan qovduqlarını,
üzü ağ, qara, sarı,
Tanrım, Tanrım, hamısını
itələ mənə sarı.

Tanrım, adamlar nə sevə,
nə də ağlaya bilirlər,
yenə eşq ver, can ver yenə
hamını qucaqlamağa,
hamının göz yaşını da
canından al, ver mənə
göz yaşların ağrıtmadan
hamıyçün ağlamağa.

Ver bütün qəmləri də
canımda qəmdən min dəniz,
başımda göz yaşlarından
üst-üstə min tac elə,
ver, ver bütün qəmləri —
son qəmi güldürənəcən
məni qəmə möhtac elə.

Bu Dünyadan itələnən
ən qəddar qatilləri də
itələ mənə sarı,
hər qatildə bu dünyaya
hökm oxuyan bir hakim,
hökm eləyən bir şah var,
həm də, həm də bu dünyadan
küsdürülmüş bir uşaq var.

Canlarını, qollarını
lap ülgüc kimi itilə,
o ən iti, o ən kəskin
o ən küskün uşaqları
qatillərin canından
itələ mənə sarı.

Ən iti ülgüc mənimçün
eşqdən uca eşq yoludu,
min il həbsdə unudulan,
min il də xilaskarını
sevincindən buraxmadan
kəsə-kəsə qucub duran
çox nazik uşaq qoludu.

## ƏN UZAQ ULDUZA SIÇRAYAN YARALI CEYRAN

Hər şair elə bilir
dünyanın son şerini
o yazacaq, o ancaq,
bu dünyada şer də, söz də
onunla qurtaracaq.

Bəlkə bundadı ləzzəti
elə şer yazmağın da,
bu böyüklükdə dünyanı,
bu balaca külünglə —
bu qələmlə qazmağın da.

Mən də hər an bir daha
ruh kimi uçub Allaha,
söz kimi görünüb gözə,
yoxladım dünyanın sözə,
sözün dünyaya tabını,
beləcə batıb günaha
mən də, mən də yazıb getdim
dünyanın son kitabını.

Elə dünyadan qurtarcaq
anladım insan alnına
tale, alın yazısı yox,
şer yazır Allah ancaq,
anladım bu dünyada
ən son şer Tanrı şeri,
ən son kitab
Tanrı kitabı olacaq.

Anladım, Tanrım, anladım,
Alnımız sənin üçün
Şerin ən gözəl görünən,
ən gözəl yazılan yeri,
qələmin quş kimi süzən,
min naz ilə gəzən yeri,
xəttin eşqdən süzülən,
eşqdən nazilən yeri.

Anladım biz hamımız
bir tək ələ,
bir tək qələmə tabeyik,
Bütün alınlar yan-yana
Allahın şer kitabıyıq.

Hər şairin şeri də
Tanrı şeri içində
yazı içində yazı,
can içində can kimi,
qəfil gülədən sıçrayıb
ən uzaq ulduza qonan
yaralı ceyran kimi.

## BU DÜNYADA BALACA, KÖRPƏ HƏR NƏ VAR BAŞQA BİR DÜNYADAN DOĞMA KİMƏSƏ OXŞAR

Mən hara, dağlar, dəryalar, ümmanlar hara,
zirvələr, sıldırımlar, dumanlar hara,
mənimki balaca dağlar, balaca təpələrdi,
balaca talelər, balaca kəndlər, şəhərlərdi,

Bu dünyada balaca, körpə hər nə var
həm bu dünyadan,
həm də başqa dünyadan
doğma kiməsə oxşar.

Min illərin yolçusu sular, bəlkə siz biləsiz,
bir yanı Qara dəniz, bir yanı Xəzər
bu Qaf oğlu Qaf dağı kimə bənzər?!
İnciməsinlər, mənə zor gəlir
bu boyda dağlar,
xəbərləri olmaz, qartalları bircə ana
hardan uçar qonar ildırımlarına,
üç günlük dumanına
qəribləri nədən min illər ağlar

Uca dağlar çox böyükdü,
təkcə elə onları düşünmək
mənim bu cansız canıma,
qələmimə ağır yükdü,
yazdıqca ağırlıqdan titrəyər qəlbim,
ha qaldırsam da zirvələrdən sürüşər
qələmim,
sürüşüb qısılar yenə balaca dağların ətəyinə

min illərdi anamın çocuqluq qoxusu
gəlir ordan,
nə yaxşı, nə yaxşı, min illərdi, böyümür
min illərin ən gözəl çocuğu anam,
balaca dağlarla göyüzünün arasında
eləcə çocuq qalır hər an.

İnciməsin, inciməsin göyüzündə
tonqallaşan
nəhəng ulduzlarım, ayım, günüm,
bir köynək şam işığıyla daha mərhəm,
daha doğma, daha gözəl işıqlanır
mənim könlüm,
mənim anam.

## TÜSTÜSÜ HEYRƏTLƏ BAXAN OCAQ

Deyəsən, çıxıb gedəcəyəm...
Qulağıma gələn bir səs çəkir məni,
Çıxıb gedəcəyəm lap çox uzağa,
uzun illər nə bir səs,
nə bir soraq gələcək məndən,
bəlkə tabutda qayıdacam ən gözəli,
üstü-başı, ağzı-burnu məzəli.

İllərdi, lap yaxına gedə bilmirəm,
bir dost, bir qardaş elinə,
çünki mən hər yerə şahtək,
sultantək getmək istəyirəm,
ya da heç yerli-dibli getməmək!
Ölənə kimi istədiyim yerlərə
ürəyim istəyən şəkildə gedə
biləcəyəmmi?!

Hara getsəm tabut kimi sakit bir qoca
dua oxuya-oxuya çıxır qarşıma,
Nələr, nələr gələcək mənim başıma?!
Çıxıb gedəcəyəm o qocanın duasının
Çatdığı son torpaqdan da o yana,
Son göyüzündən də o yana.

Hara getsəm bir uşaq
ağlaya-ağlaya çıxır qarşıma,
Nələr, nələr gələcək o uşağın başına.
O uşaq dua oxuya bilmir hələ,
o ancaq ağlaya bilir.

Mən çox uzağa gedəcəyəm -
o uşağın göz yaşının axıb çatdığı

bir qəmli nəğmədən də o yana,
duasının oxunduğu
bir qaranlıq hücrədən də o yana.

Mən lap çox uzağa gedəcəyəm,
uşaq vaxtı gördüyüm
bir sevgili, ölümsüz üzü axtara-axtara
keçəcəyəm evləri, insanları, üzləri,
ölkələri, göyləri, ulduzları,
göyüzünün sonunda
son ulduzda son evin qapısını
açıb girəcəyəm içəri;
görəcəyəm anam yükümüzü yığır,
mən-bələkdə bir uşaq,
həyətdə qara daşları dünyayla,
tüstüsü mənimlə yaşıd,
mənə heyrətlə baxan bir ocaq.

# BİZİ TANRI DƏRGAHINA ANCAQ BAĞIŞLADIĞIMIZ GÜNAHLAR QALDIRACAQ

Kim dostlarını necə tanıyırsa,
dünyanı da eləcə tanıyır,
Dünyanın qadasın alaq,
Ancaq nədəndi, qardaş,
hərdən də dost oluruq —
sonralar düşmən olaq.

Ömrün bir yerinəcən mənimlə gəlib
məndən ayrılan dostlar,
deyən, dünya bir az daşürəkli çıxdı
biz düşündüyümüzdən,
deyən, bir-birimizi
tanıdığımız da oldu, tanımadığımız da.
Mən bilən heç kəsin
Günahı yoxdu mənim üstümdə,
Özünüz bilən varsa, boş şeydi,
mən günahları
günahlar olmamışdan bağışlayıram,
yəni günahdan qabaq gəlir bağışlama.
Bəlkə də bizi Tanrının yanına ancaq
bağışladığımız günahlar qaldıracaq,

Dostlar, şükür, günahlarımız da dupduru!
Yerüzündən bir az dərinə
Yolumuz düşhadüşdə
bilin, qardaşlar, elə günah sarıdan da
mən ancaq sizlərdən biriydim,
mən zalım
siz zalımların şairiydim.

## ÖZÜNDƏN GÖZƏLİ YARATMAQ - TANRILIQ BU ELƏ BƏLKƏ

Gözüm yenə hər şeyi
incəbel bir bulağın
dibindəki kimi görər,
həm də, həm də
olduğundan daha gözəl
dupduru, körpə, təzətər.
Həm də görər
daha gözəl, daha gözəl
əllər əlcəklərindən,
barmaqlar üzüklərindən,
ayaqlar corablarından,
biləklər bilərziklərindən.
Daha gözəl, daha gözəl
Şərablar badələrindən,
bədənlər paltarlarından,
bəndələr padşahlarından.

Həm də bunun bircə sirri,
hər insan bir Tanrı gözəli,
hər insan bir Tanrı əsəri.
Çünki Tanrı yaradandan
daha gözəl heç vaxt heç nə
yarada bilməz bəndələr,
çünki Tanrıdan gözəl
ancaq Tanrı rəngləyər,
ancaq Tanrı rəndələr.

Bu dünyada hər şeyi
min bir eşqlə qura-qura,
min bir eşqlə tikə-tikə
özündən gözəli yaratmaq —
Tanrılıq bu elə bəlkə.

# BALACA, KÖRPƏ, ŞƏN DUALAR

Ürəyimin ən qanadlı göyündən
min illərdi dünyaya
sevgi qoxusu, eşq qoxusu yayılır.
Nə Tanrı verən eşq payından,
nə Tanrıdan doyulur.

Heç kəsin eşitmədiyi sözlər,
heç kəsin görmədiyi üzlər,
heç kəsin duymadığı sevgilər,
heç vaxt böyüməyən,
hamını hamıya sevdirdiyini düşünən
balaca, körpə, şən dualar yaşayır orda.

İlahi hamını həm qul, həm də sultan ola bilmək üçün yaradır. Yazıq o kəslərə, yaradılışın, Allahın əksinə gedib ancaq qul olmağın yolunu tuturlar.



Bu dünyada şah, sultan ola bilməsən də, qəm çəkmə, Sevginin şahı, sultanı olmaq şansın həmişə var. Lap yetmişində, yüzündə də:

# SEVGİ



Sevir kimsə kimsəni
Bir kimsənin üstünə,
Gəl, mən də sevim səni
lap yepyeni,
yupyumru bir eşq ilə
yenə sənin üstünə

## SƏNİ NİYƏ BELƏ SEVDİM

Səni niyə belə sevdim,
belə istədim niyə,
canımdakı min tikana,
bir gülə istədim niyə?!

Eşqdə gizlətdim bu canı
görəmməyən varmı, hanı?!
Həm gizlətdim, həm də hamı
bilə istədim niyə?!

Min illərçün də Allahdan
Gecə-gündüz, hər an, hər an
səni özümə həm sultan,
həm də, həm də
kölə istədim niyə?!

## GƏL, BİR DƏ SEVİM SƏNİ YUPYUMRU BİR EŞQİLƏ

Sevir kimsə kimsəni
bir kimsənin üstünə,
gəl, mən də sevim səni
lar yepyeni,
yupyumru bir eşqilə
yenə sənin üstünə.

Gör, sevgi üstə sevgimi
eşq eşqdən baş alan kimi,
eşq eşqi daşıran kimi,
Allah da aşıran kimi
hər ləçəyi ləçəyin,
gülü gülün üstünə,
göyü göyün, ayı ayın,
günü günün üstünə.

Gör, quş quşa şığıyantək,
gül gülə sığınantək,
son nəğmə oxunantək
ilk nəğmənin üstünə.

Gör, ikiqat sevgidən,
eşqdən bu naşı da dəm,
gözünün yaşı da dəm,
ha içər, yenə də kəm
qəmi dəmin üstünə,
dəmi qəmin üstünə.

# TƏLƏMİZDƏ EŞQ QOXUSU, QOXLAYAQ DÜŞƏK SƏNİNLƏ

Bu dünyadan xəlvət, kəsə
Qalxaq, sivişək səninlə,
min illər, milyon illər
göz-gözə, nəfəs-nəfəsə
qalaq, sevişək səninlə.

Bir salxımda min bir gilə,
bişə günlə, günəş ilə,
bircə biz eşq atəşilə
ballanaq bişək səninlə.

Sən bal ol, mən bal oğrusu,
sən gül ol, mən gül oğrusu,
tələmizdə eşq qoxusu,
qoxlayaq düşək səninlə.

Tələ də sevgidən deyə,
min, milyon illər gələ
o hələ sevgidən deyə,
hey ora düşək səninlə
biz — milyon illər aşiqi
iki tərs uşaq səninlə.

# DÜNYANIN ƏN GÖZƏL EŞQ BAKALI

*Gələcək dünyada dostlarım olacaq M. və R. üçün*

Eheyy! Göyün o üzünə
keçib gözlərdən itənlər,
bu dünyanı eşqləriylə
gözəlləşdirib gedənlər!
Ehey! Hardasınız, harda?!

İşdi, onları görsəniz
burda, ya da o dünyada,
ya da o yankı dünyada
dənizdə yürüyən, qaçan,
göydə sevgidən sevgiyə,
ulduzdan ulduza uçan,
heç nə sormayın onlardan —
Uçurlar haradan hara,
necədi onların halı?!
O an onlara hər sual
olduqları dünyanın
ən mənasız sualı,
Elə mənə də, mənə də!
Bir şərab masasına
söykənəntək
söykənib göyüzünün
bir qırağına
içirəm eşqdən nəfəssiz,
qanadsız uçanlarçün
bu yanlarda da ölümün
yoxluğunun sağlığına,
əlimdə içi ləbələb
şərab dolu, eşq dolu
sevgilimin dikdabanı —
yerüzünün, göyüzünün
ən gözəl eşq bakalı.

## EŞQDƏN CİVİLDƏYƏN HƏR ŞEY "ANCAQ MƏNİ SEV" DEYİRMİ?

Hər şey boz-bulanıq, lil,
hər şey can ağrısı yenə,
nə pis başlandı bu min il,
dur, tez qanadlanaq, uçaq
başqa min ilin göyünə.

Uçaq, uçaq, yorulanda
qonaq göyün yaxasına,
milyon illər göyüzündə
yan-yana yatan dağlartək
gedək eşq yuxusuna.

Gedək eşq yuxusuna,
quş yuvada olantək
əlin əlimin içində,
ancaq əlindən tutmadan,
əlim belinin içində,
ancaq belindən tutmadan.

Unudaq unutmadan,
ayrılaq ayrılmadan,
nə vaxtsa eşq yuxusunun
yuxusundan ayılsaq da,
eşqindən ayılmadan.

Arabir də baxaq, görək,
yer, göy əvvəlki deyilmi,
eşqdən civildəyən hər şey
yenə «ancaq məni tap»,
yenə «ancaq məni öp»,
«ancaq məni sev», deyirmi?!

# BİZ DƏ, BİZ DƏ İTƏK BİR-BİRİMİZDƏ

Siz də, siz də,
axın, itin bir-birinizdə,
axır itir su suda,
torpaq torpaqda, ot otda,
göy göydə, bulut bulutda,
ləçəklər ləçəklərin,
güllər güllərin altda
öpüşlər öpüşlərin,
tellər tellərin altda.

Qolların quca çağında,
dillərin beçə çağında,
yanağında, dodağında
ballar balların üstdə,
ballar balların altda.

Bir min il də sarılalım,
bir min il də lal olalım,
sözü ancaq lal dillərlə
lal dillərdən alalım
dillər dillərin üstdə,
dillər dillərin altda.

Yer də göyün yarıdı,
eşqi yağışı, qarıdı,
hər iki dünyada da
ancaq eşqə sarıdı
yollar yolların üstdə,
yollar yolların altda.

# DÜNYANIN SON GÖYÜZÜNDƏN SEVGİNİN SON GÖYÜZÜNƏ

Bir an da dayanmadan, durmadan
özünü göyüzünün görünməz qayasından atan
dəli yağış kimi, dəli su kimi,
gecə-gündüz göyüzünə dırmaşan
dəlilərin dəlisi kimi sevdim səni,
həm də göyüzünə dırmaşan dəliləri
göyüzünün hər sınıq pilləsində haqlayan,
hər sınığı görünməz qanadıyla saxlayan,
hər ulduzun hər an necə getdiyini yoxlayan
bir gülməli ruh kimi sevdim səni,
çünki mən belə sevə bilirəm ancaq,
həm də başqa cürə sevmək mumkün deyil səni,
həm də başqa cürə sevgi necə olur, bilmirəm.

Yenə sevib, sevib səni, sevgidən ölə bilmərəm,
sevgidən ölmək sevgiyə son qoymaq kimi,
sevgini ancaq ölümə bağlamaq,
sevgini ölümə qıymaq kimi gəlir mənə,
yəni sevginin Tanrı yox, insan yazanı kimi,
sevgilərin ən azı, ən asanı kimi.

Bu gün yenə ağırlıq eləyir mənə,
bu can, bu yerüzü, bu göyüzü,
Tanrım, al bunların hamısını,
doğulandan insan məhbəsindən
azad eləmisən məni, duaçınam,
bu yerüzündən, bu göyüzündən də-
bu ikimərtəbəli məhbəsindən də azad elə məni,
qoymurlar qalxmağa onlar məni yenə
dünyanın son göyüzündən
sevginin son göyüzünə.

## SEVGİN GİLƏNAR KİMİYSƏ

İlk dəfə sevdiyinin tellərini
bircə-bircə yuxunda öpürsən,
Sonra bir az yaxından öpürsən,
yəni o telləri güzgü bilib
tellərini darayan bulaqları,
o tellərə uzanan yarpaqları, budaqları,
o tellərin baxdığı dörd yanı,
gəzdiyi cığırı,
oturduğu skamyanı öpürsən.

Sonra bir gecəyarı oyanıb
neçə küçə o yana onun mışıltısını,
üstündən sürüşən
yorğanının xışıltısını öpürsən,
elə o anda neçə küçə o yana
ilahi bir sehrlə əlini uzadıb
yorğanı çəkirsən onun üstünə,
ancaq bu sevgi, bu sehr xoş gələr yorğana,
sürüşər yenə, yenə,
yenə o ilahi sehrlə
neçə küçə o yana
əllərin uzanar dönə-dönə.

Əlbəttə, əgər canın, gözün,
ruhun sevginінkiysə,
sevgin bir balaca qızın
sırğa bilib qulağından asdığı
qoşa gilənar kimiysə.

# HEY ÖPÜRƏM MƏNİ VURAN BİR ƏLİ, ANCAQ ƏLİ TANIMIRAM

Bir göz yaşında azmışam,
üzlə axıram aşağı,
ancaq üzü tanımıram,
Bu göz yaşı məndən axır?
Mən bu gözü tanımıram.

Deyirsən ki sevişmişik?
mən səni, bil, görməmişəm.
Milyon ildi bir yerdəyik?
Ağla, ya gül, görməmişəm.

Dəlisənsə, dur, bir baxım,
bu duruşda dəlim yoxdu.
Ölümsənsə, gəl qoxlayım,
bu qoxuya ölüm yoxdu.

Heç bilmirəm, kiməm, nəyəm,
deyən bir az buralıyam,
həm də bir az yadelliyəm,
həm də bir az gülməliyəm.

Deyirlər, burda dəli var,
Kimdi dəli, tanımıram,
Hey öpürəm, öpürəm
məni vuran bir əli,
ancaq əli tanımıram.

# MİN İLLƏR HƏR AN UNUT, HƏR AN YENİDƏN SEV MƏNİ

Birdən qəfil çıx qarşıma,
birdən qəfil sevgilim ol,
dol qəlbimə, dol başıma,
son sözüm ol, son gülüm ol.

Birdən yenə sınağa çək
oda, alova tut məni,
birdən qəfil sevdiyintək
birdən qəfil unut məni.

Unut yenə qarşılaşaq,
ötək keçək tanımadan
məni göstərsin bir uşaq:
— Qəmə oxşayır bu adam,
Özü də gülməli qəmə.

«Kimə oxşar bu qəm, kimə?!»
Dön minillik sevgiylə bax:
Bu qəm niyə qəmli deyil,
gülməlidi bu qəm, Allah?!

Gülməyi də qəmdən öyrən,
həm də min illər sevməyi,
min illər hər an unut,
hər an yenidən sev məni.

# SEVMƏKDƏN ÇOX SEVİLMƏK İSTƏYİR HAMI

Sevməkdən çox,
sevilmək istəyir hamı,
heç olmasa bir quşun,
bir uçuşun ürəyində
hamıdan çox sevildiyin
bilmək istəyir hamı.

Tam ağıllı adam varmı?!
Hamı bir az dəlidi,
Ağıl deyilən nəsə
elə sevməyə qarşı
sevməməyin kinidi,
ən ağıllı adamlar da
vallah, billah, ağıllı yox,
bir az ağıllı kimidi.

Qəzəbi, nifrəti, kini
yaratmışıq özümüz,
Tanrı veribdi sevgini,
Şükür elə, sev ki, verib,
sevgisində hamıdan çox
gülməli olan adama
hamıdan çox sevgi verib,
gülməli ol, sev ki, verib.

Axma, ağlama, göz yaşı,
sən də, sən də, ay axmaq,
sevgi gözləmə sevgiyə,
qorxub ağıllanma heç vaxt
sevginə gülərlər deyə.

Sev, sevdikcə sevgidən gül,
gül, daha çox dəli ol,
dəli olduqca ağıllan,
ağıllan, daha çox sev,
sev, daha çox gülməli ol.

Bil, bil, bu dünyada hər gün,
sevib, sevib
sevilməmək günüdü,
sevilənlər sevənlərçün
ən gözəl sevgi kolu,
sevənlər o kolun üstdə
ən gözəl sevgi gülüdü.

Axma, ağlama, göz yaşı,
göyün sevgi qatında
seviləcəksən axırı,
orda Allahın altında
sevgi Allahın axarı,
orda Allahın altında
sevənlər sevilənlərdən,
sevgi Allahdan yuxarı.

# SƏNİ UNUTDUM, "MƏNİ UNUTMA" DEYƏN GÖZ YAŞINI DÜŞÜNÜRƏM MİN İLDİ

*Biz bir-birimizi bağışlaya bilərik, ancaq*
*o böyük eşqi məhv etdiyimizçün*
*Allah bizim heç birimizi bağışlamayacaq*

«Məni unut!» — dedin,
Səndən bir dəniz qalmışdı mənə,
Unutdum dənizini də,
«Məni unut!» — dedin yenə,
Səndən bir göyüzü qalmışdı mənə,
Unutdum göyüzünü də,
«Məni unut» — dedin yenə,
Bir «unut» sözü qalmışdı səndən mənə,
Unutdum «unut» sözünü də,

Daha unutmağa nə qaldı, nə?!
Ancaq «Məni unut» — dedin yenə,
Səni çoxdan unutmuşam,
İndi səni yox, indi
«Mən səninçün axdım,
Məni unutma!» deyən
bir damla göz yaşını
düşünürəm min ildi.

# XANIM, XANIM NECƏ AĞLADIN ONLARI

Muncuqların qırıldı, oy,
yarı zümrüd, yarı mirvari,
xanım, xanım,
necə düzmüşdün onları,
biri zümrüd, biri mirvari.

Muncuqlar qulun oldu,
hamsı sənə sarıldı, oyy,
elə sarılan kimi də
eşqləri şiddət eylədi,
qolları qırıldı, oyy.

Qırıldı gözlərindən də
zümrüd, mirvari yaşları —
daşlar daşlardan,
yaşlar yaşlardan qırıldı,
qırıldı zümrüd, mirvari.

Muncuqlar boynun, çiynin,
göz yaşı gözün cocuğu,
indi mən hansını yığım,
göz yaşını, ya muncuğu.

Vay, vay, deyən, yanlış yığdım,
muncuğu muncuqdan üzdüm,
göz yaşına muncuğu,
muncuğa göz yaşı düzdüm.

Oy, oy, çaşdım, çaşdım yenə,
göz yaşın azacıq düzdüm,

bir göz yaşının yanına,
bir gör, neçə muncuq düzdüm?!

Göz yaşları muncuq-muncuq
salxım-salxım, dənə-dənə,
muncuq gəzən əllərimə
göz yaşları gəlir yenə.

Macalım da yox saçımdan
çırpam illərin qarını,
sən çoxdan getmisən, xanım,
mən min ildi yığıram yerdən
sənin göz yaşlarını.

# BAŞSIZ DURAQ, İŞIQLIDI

Xanım! Xanım!
Canıma canlar qarışıb,
işıqdan görünmür canım,
bax, gör, hansı işıqlıdı?!
Hə yaman çaşıb qalmısan,
bəlkə tamam qaranlığam,
bəlkə hamsı işıqlıdı.

Üzündə görünür üzüm,
canında görünür canım,
əl-ələ durmayaq, xanım,
əlsiz duraq, işıqlıdı.
Danışmayaq, söz nədi ki?!
Söz ancaq vurmaq üçündü,
Lap bərk istəsən, bir-iki
Söz de, vuraq, işıqlıdı.

İçək, içək
ancaq eşqin sağlığına,
içək eşqin
şaxı sınmaz şaxlığına,
bu dünyada baş əyək
ancaq eşqin şahlığına,
əyək, başsız şahlıq quraq,
başsız duraq, işıqlıdı.

# MİN İL SONRA BU DÜNYADAN YADIMDA VAR GÜCÜYLƏ ÇİÇƏK AÇAN BİR AĞAC QALIB ANCAQ

Min il sonra bu dünyadan yadımda
hələ də sevincindən civildəyən
sevgim qalıb ancaq,
Qalanlar unudulub, unudulacaq:

Nə bilim, hansı yeddibaşlı imperiya
tək başlı son adamdan
o tək başını istərkən
bir anda bir ah oldu,
Nə bilim, hansı avara
həm avara, həm də padşah oldu,
hansı ağıllı oyun-oyuncaq,
Nə bilim, günəşi xilas etməyə
gedən hansı uşaq
göydə də qılınc görən kimi
üzünü kimə çevirdi:
— Bumu dünya tarixinin qələmi?!
Bumu yazıq göyü, yazıq günəşi devirdi?!

Mənimsə, yadımda qalan ancaq:
bir gilənarın bütün çiçəkləri,
bütün gilənarları
məntək bir dəlini sevirdi.

# ŞÜKÜR! NƏ ÇOX SEVDİRDİN MƏNƏ, TANRIM

Bu göy yağışla kiriməz,
kiriməyə daşı durur,
bu qəm bu üzdən yeriməz,
kirpiyimdən kirpiyimə,
kirpiyimdən üzümə
yeriməyə yaşı durur.

Sünbüllər aşırar yenə
bir-bir dəni dən üstünə,
saçım da dən dən üstünə,
sünbülləmir, naşı durur.

Hər ağ teli ağ gül sayım,
sayım, gülüylə oynayım,
hələ beşgünlük dünyanın
beş gününün beşi durur.

Sevməkdən doymuram deyə
Tanrım məni vermir göyə,
Hələ yerdə sevdirməyə
Tanrının min işi durur.

# SEVGİDƏN DƏLİ OLMAĞA BU DÜNYADA EŞQ AZIMIŞ

Ay ürək, a baş, a bədən,
əl çəkin, əl çəkin məndən,
ancaq canım açanda,
canım uçanda bilirəm
siz varsınız,
bu göy, göyüzü deyilən
qəfəs sizdən yaxşıdı,
siz göydən də,
göyüzündən də darsınız.

Ancaq bu can açanda,
bu can uçanda bilirəm
nə qış qış, nə yaz yazımış,
sevgidən dəli olmağa
bu dünyada dəlilik də,
sevgi də, eşq də azımış.

Çıxıb gedirəm, gedirəm
bu göyüzünün altında
sevmədiyim bir tikan,
bir gül qoymaya-qoymaya,
gedirəm, Tanrım, gedirəm
daha eşqli bir dünyaya
eşqdən doymaya-doymaya.

# YARI DƏRD, YARI EŞQ KİTABI BU DÜNYA

Bir eşqin ruhu ruhunda,
Min dərdin canı canında
hər an bir daha, bir daha
dərd arasına enər şair,
yeni-yeni dərdlərin də
şirəsini çəkə-çəkə
eşq arısına dönər şair.

Dönər eşq arısına,
dərdi verər yuxuya,
eşqi gələr oyada,
Şair çəkəndən sonra,
dərdmi qalar dünyada,
şair sevəndən sonra
eşqmi qalar dünyada?!

Eşq şairin yaraşığı,
dərd şairin yarağı,
yarı dərd,
yarı eşq kitabı bu dünya,
Hər şairlə yazılar,
Çevrilər bir varağı.

# ANCAQ EŞQDƏN BİR DÜNYAYA DOĞRU

Sevdim, Allaha bənzədim,
Öldüm, sevgimi bəzədim,
Mən səni min il gözlədim,
Sevdim keçdim təzə minə.

Kim sevmirsə, demək, gülmür,
Sevib gül olmayıb hələ,
bəlkə Allah görmür onu,
bəlkə doğulmayıb hələ.

Ancaq eşqdən bir dünyayçün
ölümü də sevib ötdüm,
Ölümüm də döndü gülə,
Hər iki dünya! Mən getdim
Xoşca qalın! Gülə-gülə!

Tək-tək adamlar dünyanı hay-küylə,
nəsillər isə səssizcə tərk edirlər.

# DOĞUM BƏNDƏYLƏ,
# ÖLÜM ALLAHLA GÖRÜŞ ANI



Heç kim ölməmiş, İlahi,
Bütün ölülər dipdiri

# DOĞUM BƏNDƏYLƏ, ÖLÜM ALLAHLA GÖRÜŞ ANI

Bu dünyadan gedəndə
Allahla aramıza
girməsin, heç kim,
nə dava-dərman, nə həkim,
nə də bir başqa bəndə,
qoyun, ancaq Allahla olum,
Siz də qorxmayın o anda,
Ölüm yoxdu, yoxdu ölüm !

Axı, Allah olan yerdə nə ölüm?!

O an ancaq, ancaq
başqa bir dünyaya yürüş anı,
Allahla təkbətək qalmaq,
Allahla görüş anı.

# HEÇ KİM ÖLMƏMİŞ, İLAHİ, BÜTÜN ÖLÜLƏR DİPDİRİ

Bu nə andı verdin, Tanrım,
hamını göyüzünün
dupduru damının üstdə
uçan, qaçan görürəm,
yerüzündə hamıdan çox
dərd bağlayan adamları
göyüzündə hamıdan çox
çiçək açan görürəm.

Görürəm aşağılarda
dupduru dağı, düzü,
bir damla göz yaşı kimi
dupduru bütün yerüzü.

Görürəm, Tanrım, görürəm,
dupduru qəbir daşlarının,
dupduru torpağın altda
bir evin balalarıtək
yan-yana yatır ölülər,
özləri üşüdükcə
açıb öz kəfənlərini
yanında yatanların
üstünü örtür ölülər.

Görürəm, Tanrım, görürəm,
hər şey körpə, dupduru,
görürəm bu dünyada
heç vaxt heç kəs ölməyib,
Bütün ölülər dipdiri!
Bütün ölülər dipdiri!

Səni də görürəm, Tanrım,
heç özüm də bilmirəm,
hardan, haçan görürəm,
səni elə hey dünyanı
beləkdəki bir körpətək
səssiz, səmirsiz dinləyən,
hərdən körpə qollarıyla
bərk-bərk qucan görürəm,
hərdən də elə beləkdə
səssiz uçan görürəm.

Görürəm, Tanrım, görürəm,
sən durulardan durusan,
körpələrdən körpəsən,
üzündə bir damla qəm yox,
necə bilirdim eləsən.
İlahi, nə yaxşı ki,
sən həmişə beləsən,
hər an səni sevmək də,
səni aldatmaq da asan.
Həm də hər an səni sevmək
aldatmaqdan daha asan.

İlahi, nə yaxşı ki,
dupduru hər şey, hər yan,
mən də baxıb duruluram,
duruldaqca görünmürəm,
bu dünyadan yox oluram.

İlahi, nə yaxşı, nə yaxşı,
həm insan, həm ruh kimiyəm,
həm var, həm yox kimiyəm,
bilirəm, Tanrım, bilirəm
məni dünyadan insantək
yenə itirirsən niyə,

yeni dünyaya sevgitək,
söztək yetirirsən niyə.

Hər gün dərdin çəkdiyin
Bir bəndən də azalar,
bu elə bəndələrə də,
Sən Allaha da yaxşıdı.
Hə yaxşı, nə yaxşı, Tanrım,
var olmaq, yaşamaq söztək,
sevgitək daha yaxşıdı.

Bundan sonra heç bir yerə
atma məni yenə, bir də,
qoy elə beləcə qalım,
həm var, həm yoxtək, Tanrım,
sənin körpə gözündəki
bu dünya dediyimiz
sonsuz yuxutək, Tanrım.

# DUA EDİRƏM GÖYÜZÜNƏ GÖYÜZÜNDƏN YUXARIYÇÜN DƏ, GÖYÜZÜNDƏN AŞAĞIYÇÜN DƏ

*Məryəmə və İbrahimoğluna*
*Vaqif İbrahimoğluna və Məryəm Əlizadəyə*

Dua edirəm göyüzünə,
Göyüzündən yuxarıyçün də,
Göyüzündən aşağıyçün də,
Göyüzünün yaraşığından,
Həm də öz yaraşığından
dəli olan uşağıyçün də.

Dua edirəm o uşağın
Göyüzündə yuvasına da,
yuvasından yıxılırkən
göydə özündən başqa
hamıya duasına da.

İlahi, İlahi, Tanrım,
Göyüzünün o üzünə də kömək ol,
Göyüzünün o üzünün də
Göyə qalxan duasını,
enən uşağını qoru,
o uşağın üzündə də
oxuduğu son duanın
son yaraşığını qoru.

Dua edirəm göyüzünün
Hər an yenidən diz çöküb
Yenidən dənizi öpdüyü yerə,
O yerdən göyüzünə keçib

Göyüzünün o üzündə də
sevgi gəzən gəmilərə

Tanrım, Tanrım, İlahi,
Göyüzünün o üzündə də
Bütün qəmli üzlərin üstdə
Tanrının sevən üzünü qoru,
Sevgiləri, qəmləri gəmilərlə
Göyüzünün o üzündən
bu üzünə də üzdürən
göyüzünün dənizini qoru.

Dua edirəm Sənə, Sənincün də, İlahi,
İlahi, bir anda gözünü yumma,
verdiyin havadan, verdiyin sudan
dünyaya daha çox göyüzün gərək,
İlahi, bir an da göyünü yumma,
İlahi, amma
İnsan duasından
Göyüzünün dəli olan uşağını,
Dəli edən yaraşığını gizlət,
Göyüzündə sevgi gəzən gəmiləri,
Həm də özünü gizlət, özünü qoru,
Hamının bir üzünü işlət bu dünyaya,
sənə üz tutmağa, dua etməyə
hamının, hamının bir üzünü qoru.

## ŞAM NƏ GƏZİR, QƏM NƏ GƏZİR BU DÜNYADA

*(şamın, qəmin bu dünyadan xilas olması)*

— Kimin var qəmdən gülməli,
Həm də qəmdən şıq geyimli,
Həm də, həm də qəmdən dəli,?!
— Qəmim var qəmdən gülməli,
Həm də qəmdən şıq geyimli,
Həm də, həm də qəmdən dəli.
— Şam da, şam da dəlidi,
Həm qəm kimi gülməli,
şıq geyimli, işıqlıdı,
Həm də, həm də
Qəm kimi yaraşıqlıdı.
— Yox, şam qəmə çata bilməz,
Qəm şamdan tez alovlanar,
həm işığı çox olar,
həm də min illərcə yanar.
— Onda gəl, qəm yandıraq
Qəmlə qanadlanmağa,
Qəm tapmasaq, Şam yandıraq
Şamla qanadlanmağa.
— Bu dünyada şam nə gəzir,
Bu dünyada qəm nə gəzir,
ay dəli, qəm nə gəzir!
Lap elə, adam nə gəzir!
Ay dəli, bu dünyada, bil,
qəm qəm deyil, şam şam deyil,
heç adam da adam deyil.
Gəl, bir yerdə diz çökək

iki şamtək, iki qəmtək
biz özümüz yanaq elə,
mən yenə Qəm yerinə,
sən yenə Şam yerinə,
həm də adam yerinə,

— Gəl, ay dəli, indi yenə
iki şamtək, iki qəmtək
duraq üzü göyüzünə,
dua oxumayaq ancaq
mən yenə Qəm yerinə,
sən yenə Şam yerinə,
həm də Adam yerinə.

— Şam da durmur bu dünyada,
Qəm də durmur bu dünyada,
Ay dəli, Qəm də durmur,
dua durar bu dünyada?!
— Gəl, min illik, milyon illik
bir tənha səssizlik tapaq,
tapıb onu duya bilək,
min il, milyon il öncə
kiminsə deyib getdiyi
donub qalan dua bilək,
sonra hamı, sonra hamı
min il, milyon il sonu
o səssizliyin içindən
tapsın öz duasını,
tapıb onun könlün alsın,
könlün alsın, könlün açsın,
o duanın içindəcə
ağaclar çiçək açantək
öz şamın, öz qəmin açsın.
Sonra şamıyla, qəmiylə
qanad qanada verib

hərə öz göyünə uçsun.
— Biz də, biz də uçaq, uçaq,
ayrılaq, görək, dünyanın
birləşən yolları nə çox,
ayrılıq ancaq yerdədi,
göyüzündə ayrılıq yox,
bu da ləzzət versin bizə,
ayrılıq oynu oynayaq,
elə hey ayrılaq görək
hara uçsaq yan-yanayıq,
yan-yanayıq, yolumuz bir,
uçub, uçub birdən görək
qanadımız, qolumuz bir.
Durub bizə baxanlar da
baxıb bizdən qanad alsın,
hamısı, hamısı birdən
qanadlansın, qanadlansın.

Dağlar, dənizlər,
çöllər, düzlər qanadlansın,
üzü dünyanın üzündən
üzülən üzlər qanadlansın,
«ölürəm» — deyən anında
yıxılan dizlər qanadlansın.
Qanadlansın, qanadlansın
bədənlərdən ruhtək, cantək
ucalan Ah qanadlansın,
göyüzündən doğma Allah,
yerüzündən
yad Allah qanadlansın.

— Uçaq üzü göyüzünə
uçub, uçub birdən duraq,
diz çökək göyüzündə,
diz çökək göyüzünün

ən çiçəkli düzündə,
ən ulduzlu dənizində,
duaların uçub, uçub
yorulub durduğu yerdə,
ağlayan lələklərin
ağrıyan lələkləri
ovuşdurduğu yerdə,
biz də bir də öpə-öpə
sığallayaq duaların
soluxan ləçəklərini,
ağrıyan lələklərini.
Sonra hamısına tək-tək
bircə-bircə «can» — deyək,
«can» — deyək
mən yenə Qəm yerinə,
Sən yenə Şam yerinə,
həm də Adam yerinə
Sən məndən həm işıqlı,
həm dəli,
həm də gülməli yenə.

— Allah da belədi, dəli,
Allah da belədi, dəli,
Allah da belədi, dəli,
ilk şamından,
ilk qəmindən də qabaq,
son şamından,
son qəmindən də sonra
bu dünyada hər insana
insan özü eşitmədən
hər an, hər an «can» — deyir O,
həm də Allah hər insana
ənköməksiz anında
ancaq bir yol kömək edir,
qalan vaxtlar baxır, görür,

baxır, görür, həm də hər an
«can» — deyir hər canlıya,
Biz özümüz düymadan
Hamımızı duya-duya,
Tumarlaya-tumarlaya
«can» — deyir gecə-gündüz,
həm də hər an ümid verir,
ümidi dünyadan güclü,
«can»ı dünyadan əziz.

# DÜNYA SÖNDÜKCƏ SƏN GÖRÜNÜRSƏN, İLAHİ

Min ildi, milyon ildi
Göylərdə ayaqyalın
Sənə sarı qaçıram,
ayaqlarım sevinir,
yolum sevinir, Allah,
Hər gün sənin göyünə
mismarlanır qollarım,
mismarlanır, dincəlir,
qolum sevinir, Allah.
Sevgin, ancaq sevgin var
bütün kainat boyu
qanrılan, qanı daman
qollarımın gözündə,
bəs nədən əzab gəzir
qolumu dəlib keçən
mismarların üzündə?!
Min agrıyla, əzabla
Necə qıvrılır onlar,
Heç ağrı yoxdu mənə,
quş kimiyəm, İlahi,
yenə uçuram sənə,
Qolumdakı mismarlar
yalvarırlar ağrıdan,
yalvarırlar əzabdan,
Xilas elə onları,
Xilas elə, İlahi,
Xilas elə əzabdan
Boynumdakı kəndiri,
Altında dayandığım
Bu dar ağacını da,
xilas elə, İlahi.

Hər an bu göyüzünə,
həm də sənə tuşlanan,
yenidən dönə-dönə
məndən keçən gülləni
ağrılardan, əzabdan
xilas elə, İlahi.

Şükür, İlahi, şükür
Min ildi, milyon ildi
Bağlayıb yollarımı
Bir-birinin ucuna,
Gəlib çatdım axırı
Sənin dar ağacına,
Kəndirin dartıldıqca
boynum dincəlir, Allah,
Boynum dincələn görüb
Tez vururlar boynumu,
Çiynim dincəlir, Allah.

Şükür, şükür, çox çükür,
Sən yenə göyüzündən
yerə enirsən, İlahi,
dünya gözümdə söndükcə
sən görünürsən, İlahi.

# SEVİMLİ ADAMLARI TEZ APARIR TANRI

Sevdiyi adamları
tez aparır Tanrı,
aparır deyəndə,
əslində, qoparır onları
dünyanın caynağından,
tez qoparır
qalıb yerüzündə
çox əzab çəkməsinlər,
Tanrının yazdığını qoyub
göylərçün yaranmış qanadlarıyla
onun-bunun çəkməsini silməsinlər.

# GÖYÜZÜNDƏN ENƏN ADAMLAR, GÖYÜZÜNƏ DÖNƏN ATLAR

*(son şahanə uçuş — poema)*

*Son Tərəkəmə elatımızın,*
*Tərəkəmə ellərimizin xatirəsinə —*
*Göyüzünə son dönüşünə*

Atlarının belində
hər yaz yerüzündən göyüzünə dönən,
hər payız da göyüzündən
yerüzünə enən kəndimizdən
yığıb arardılar atları bir gün
bir daha bir kimsənin
göyüzünə qalxmamasıyçün,
Otuz yeddidə də,
yerüzündən beləcə yığıb aparmışdılar
göyüzünə baxan adamları
bir daha bir kimsənin
göyüzünə baxmamasıyçün,
Beləcə, göyüzü gizlədilmişdi yerüzündən.
Qayıdan olmuşdu
Göyüzünü unudan adamlardan —
ancaq görünür,
göyüzündən də o yana
aparmışdılar atları,
qayıtmadı atlardan heç biri.
Həm də görünür, adamlardan daha çox,
qorxurmuşlar atlardan,
çünkü atların belindən
aydınca görünürdü necə gizlədilir göyüzü,
həm də atların belinə qalxmaq
dünyanın belinə qalxmaq,

göyüzünə çevrilmək kimi
görünürdü atlılara,
beləcə, insanın at belində
yerüzünə, göyüzünə
həm də Allaha ən çox yaraşdığı vaxt
məğlub etmək mümkün deyildi onları,
onları məğlub etmək yox,
bir şeytani dönəm, bir şeytani çağ
göyüzündən endirib,
məhv etmək olardı ancaq.

Beləcə, atların dalınca
kişnəyə-kişnəyə qaldı dağlar,
kişnəyə-kişnəyə qaldı
üzəngilərdən düşən kişilər,
dəli atlarının burnu
dəli şimşəklərin gözünü deşən kişilər.
Cilovları dartılı qaldı
atlarla ötüşən cığırların,
dodaqları uzalı qaldı
şaha qalxan atların alnında
bir-biriylə öpüşən buludların.

Atlar gedəndən sonra
daha buludlardan yuxarı
qalxmırdı dağların başı,
elə bil adamlartək
dağlar da düşmüşdü atlardan,
yorğun, qəmli, ağlar görünürdü
zamanın yollarında
piyada qalmış qoca dağlar.

Son günlərinin birində
üstümə axıb gəlirdi ilxı,
mən də ilk yol ilxı görən

cansız aran uşağı,
elə bildim indicə
üstümə gələn atların
dırnaqlarında qalacam.
Ancaq sən demə,
uşaqları da adam sayırmış atlar,
mənə çatar-çatmaz
burulub ötdülər yanımdan,
Nəhəng, ancaq ağıllı
bir canlı kimi axırdı ilxı,
tək bir canlı kimi
düşünürdü, qaçırdı,
nəfəs alırdı ilxı.

Atlar! Atlar! Qardaşlar!
Mən sizdən öyrəndim insanlığı,
siz adamlardan daha yaxın idiniz
buluda, yağışa, göyə,
siz daha çox yaraşırdınız
torpağa, daşa, suya,
ona görəmi apardılar sizi?!

Siz dağların, düzlərin,
yolların qanadıydız,
ona görəmi apardılar sizi
dağların, düzlərin uçmağını,
yolların qaçmağını görməyən adamlar?!

Apardılar sizi
uça bilməyən, qaça bilməyən bıçaqlar,
boylarından yuxarı
qalxa bilməyən qorxacaqlar.
Bəlkə də apara bilməyiblər sizi,
yarı yolda qaçıb qarışmısız
bu dünyada başsız qalmış bir dumana,

o dumanın içində
qaça-qaça qanad açmısız,
uçub girmisiz buludlara.
İndi yəqin,
göyüzünün mavi çəmənliklərində
qoxlayırsız ulduzları
təzə çıxmış çiçəklər kimi.

Ancaq hərdən
onları dustaq saxlayan
tikanlı, uca hasarların üstündən
atılıb gələntək
illərin üstündən atılıb gəlir
başı kəsilmiş atlar,
atılıb gəlir, qan fişqırır
atların kəsik boyunlarından,
fışqırır yəhərlərin, cilovların qanı,
fışqırır dördəmə gedəndə
cana sevgitək yayılan qamçının qanı.
Məni qorumaqçün
dövrəmdə elə dayanır başsız atlar,
bir damla qan da düşmür üstümə.
Mən hələ də uşağam onlarçün,
bilirlər böyümüşəm,
ancaq cansız, gücsüz adamam hələ də,
Tanrısını tanımayan adamların
tapdağından, dırnağından
qorumaqçün məni
aşıb gəlir onlar illəri.
Yəqin bilirlər,
bir zamanlar təkcə mən
ağlamışam onlarçün,
bilirlər bu gün
təkcə mən qalmışam yerüzündə
o atları düşünən,

o atların
son xatirə şəkliyəm mən,
əllərində,
bellərində gəzdirirlər məni.
Gözləri yox baxalar,
burunları yox qoxlayalar,
məni necə tanıyıb onlar,
bir Tanrı bilir.
Bəlkə hələ də uşaq qalmağımdan,
uşaqlıq qoxumdan tanıyıblar,
bəlkə o zamandan indiyəcən,
canımda gizlicə gəzən
o doğma qorxudan tanıyıblar.
Canım! Tanımaq nə boydan-buxundandı,
nə gözdən-qaşdan, nə qorxudandı,
Tanımaq ancaq Tanrıdandı!

Başım boynu vurulmuş
bir atın çiyinlərində,
boynu vurulmuş atın
düşüncəsi beynimdə,
ağrısı canımda,
Əvvəl-axır anamız torpaq çəkir
canımızdan bütün ağrıları,
Ancaq gedib ayağımacan
geriyə qayıdır bu ağrı,
torpaq da götürmür bu ağrını,
deyir: İnsanoğlu,
məndə dözüm qalmayıb daha,
bir az yumşalt bu ağrını,
sonra ötürərsən mənə,
sən məndən dözümlüsən,
dostlar da bu fikirdədi, Tanrı da,
çəkdiyim bəlalardan hələ ölməmişəmsə,
düz fikirləşirlər demək,

demək çox dözümlüyəm mən.
İndi də mat qalıram özüm-özümə.
Canımda dolaşır
atın da dözə bilmədiyi ağrı.
Düşünürəm, insan yox,
ağrı necə düşünərsə,
atın, insanın, torpağın çatlayan bağrı
necə düşünərsə,
bax eləcə düşünürəm.
Birdən şaha qalxır canımda
vurulan boyunların,
kəsilən başların ağrısı,
şaha qalxıb qaldırır məni,
ağrının göyüzündən baxıb görürəm
göyüzünə qalxan atların
qanlı qanad izləri
neçə illərdi qalıb qızarır göyüzündə,
tez əllərimlə, ayaqlarımla
canımdakı ağrıları
canlı bir varlıq kimi tuta-tuta
pozuram, pozuram o izləri,
göyüzündən itirirəm,
o qanlı izləri görüb
qorxa bilər göyüzünə qalxan cavan ruhlar,
Həm də qorxuram o izlərin üstüylə
ruhların yurduna da
qalxa bilər adamlar.
Silib qurtarıram o izləri,
indi arxayınam,
göyüzünün mavi çəmənliklərində
verib atlarla baş-başa, alın-alına
min illərlə orda
rahatca otlayar adamlar.

# GÜL DÜZƏLDİRƏM ADAMLARDAN

Gül kimi qoxlamaq istəyirəm adamları,
odu ki, gül düzəldirəm adamlardan,
ancaq gül olmaq istəmirlər adamlar,
onda adam düzəldirəm güllərdən,
Deyirlər, güldən adam olmaz,
Allah gildən düzəldib adamları,
sən də gildən düzəlt,
gildən düzəldirəm adamları,
şer deyirəm, şer yazıram onlara,
ancaq məndən şer yox, gil çiçəklər
istəyir gil adamlar,
gil çiçəklər düzəldirəm gil adamlara,
gil çiçəkləri gil qızlara aparır gil oğlanlar,
elə gil çiçəkləri görən kimi
gil uşaqlar doğur gil qadınlar...
Bəlkə Allah da istəmir gül adamları,
Bəlkə gil qoxusu xoş gəlir Allaha,
odu ki, bir ucdan artırır gil adamları?!
Ancaq, Allahım, mən gil qoxusu yox,
gül qoxusu istəyirəm,
təzədən adam düzəldirəm güllərdən,
gül yollar, gül evlər düzəldirəm onlara,
gül içkilər düzəldirəm gül şairlərə,
gül həbsxanalar düzəldirəm gül düstaqlara,
ancaq, deyirlər , güldən yox, gildən
düzəlt bizi,
deyirəm, dayanın, heç olmasa son dəfə
gil olmamış, gül kimi qoxlayım sizi,
qoxlayıram, bir də, bir də lap dərindən də,
İlahi, neyləmisən bunlara,
gil olmaq istəyə-istəyə, «gil» deyə-deyə,
gil iyi gəlir güllərindən də?!..

Hələ ki, hər an yenidən deməyə ehtiyac var: Tanrı insanı göyüzüyçün yaradıb, ən sonda onsuz da o gəldiyi yerə — göyüzünə qayıdır. Yerüzü isə tək bizim yox, bütün kainatın İbadət Yeri, Möhürdaşıdır, biz əslində dua edərkən, namaz qılarkən yerüzündə yox, Göyüzündə diz çöküb alnımızı bütün Göyüzünün Möhürdaşına — Yerüzünə qoyub bütün kainatçün dua edirik.

Özünüzdən xəbəriniz yox, bir gün Siz də anlayacaqsınız, görəcəksiniz göyüzündəsiniz, hamınızın qanadı var.

Mən əvvəl-axır Sizi Güladama — Göyadamına çevirəcəyəm, giladamlar.

Sənət xəyallar üstdə qurulur, ancaq sonda həqiqətdən üstün həqiqət yaranır.

*Göyüzünə qonan quş*

# YARI ÇİÇƏK, YARI KƏPƏNƏK

Gördüm hamının üzündə
Dərt dərdi, qəm qəmi basır,
gecə-gündüz gizlicə
hamı bir-birini güdür,
hamı bir-birini asır.

Dindirmək olmur heç kəsi,
Soruşmaq olmur halını,
bir gün bir eşq havasına
yarı çiçək, yarı da
kəpənək etdim hamını.

Dedim, ey insan, ay adam,
nə tutmusan bu dünyadan,
nədi en-uzunu bunun,
görən bir də gəlməz bura
görməyə üzünü bunun.

Dedim bəsdi süründünüz,
bəsdi, köpək uşağı,
sevışin çiçək olun,
olun çiçək uşağı,
sevişin kəpənək olun,
olun kəpənək uşağı.

Bircə «Sevişin» sözünə
hər küncdən min çiçək qalxdı,
çiçəkdən kəpənək qalxdı
hər oğlun, qızın yerinə,
küpə-küpə çiçək çıxdı
küpə-küpə qızıl yerinə.

Çiçək etdim,
Kəpənək etdim bir anda
yanaqlardan yaşları,
barmaqlardan, qulaqlardan
qızılları, daş-qaşları,
çiçək etdim, kəpənək etdim
çiçək qıran uşaqları,
kəpənək yeyən quşları.

Sevdi çiçək dağı da,
sevdi kəpənək düzü də,
sevgilərin şiddətindən
irək gəlin paltarıtək
xışıldadı yerüzü də.

Ancaq kimsə, nəsə yenə
söylənirdi öz-özünə:
- Hamı uçur, uçur hamı,
Mən sürünmək istəyirəm,
hanı, hanı
bir-birinin sürünməyin
sevə-sevə sürünənlər?!
Hanı ancaq sürünəndə
göyüzündən quşların da,
Tanrının da gözlərinə
gözəl-göyçək görünənlər?!
Hanı onlar , Tanrım , hanı?!
Bir vaxt sürünərdi onlar
birər-birər, beşər-beşər,
məğrur-məğrur, təşər-təşər.

# ÜRƏYİNİ QUŞLAR DƏNLƏYƏN QOCA

Bu duman hardansa azıb,
gəlib mənə sığınıb,
yazığın dağın gəzirəm,
bu qar xoşuma gəlmir,
sinəsindən öpməyə
qardan ağın gəzirəm.

Göyüzündə qaça-qaça,
hara gedir bu uşaq?!
Bu uşaq hamıdan qoca,
xəbəri yox qaçdıqca,
sınır göyü, sınır yolu,
xəbəri yox,
ürəyi sınıq sevgiylə,
ovcu sınıq göylə dolu.

Toxunuram sınıqlara,
sınıqlar quşlara dönür,
ürəyim bir ovuc dənə,
quşlar ürəyimə qonur
ürəyimi dənləməyə.

Ay uşaq, dəymə, dəymə,
qoy dənləsinlər, ay uşaq,
bax, duman baxır, sən də bax,
bu qoca indi uçacaq,
gözləri göyüzüylə,
canı uçuşlarla dolu,
ürəyin quşlar dənləmiş,
içi quşlarla dolu.

# DAHA HEÇ KİM HEÇ NƏ İSTƏMƏSİN BU DÜNYADAN

Daha heç kim heç nə istəməsin
bu dünyadan,
baxıb, baxıb, yandım halınıza,
istədiklərinizin hamısını ürəyimdən kəsib,
ürəyimdən düzəldib verdim hamınıza.

Qorxmayın, gecələr də yatmıram daha,
dayanıram başınız üstdə əsə-əsə,
qorxuram bircə an yumam gözlərimi,
xoşbəxtliyinizdən azala nəsə.

Ancaq, Siz Allah, bəsdi, bəsdi daha,
buraxın sızıldamağı, ağlamağı, ahı,
hər gün nəsə istəyib yenə
narahat eləməyin Allahı,
sizin əlinizdən Allahın ətəyində də
yer qalmayıb yetimlərə, yazıqlara daha,
nolar, bir az da siz rəhm eləyin Allaha,
qoyun çiçəklərin Allahtək açdığı bu yaz
açdırdığı çiçəklərə baxsın doyunca,
rahat olsun Allah da bir az.

Xoşbəxtlik — xoşbəxt olmaq deyil,
öz ürəyində xoşbəxt eləməkdi hamını,
hamını hamının ürəyində xoşbəxt
etməyincə
əl çəkən deyiləm sizdən,
ha deyinin, ha deyin bu adam divanədi,
dəlidi,
bilin, hamını bir ürəkdə xoşbəxt eləmək
hamıdan xoşbəxt olmaqdan irəlidi.

# TANRIM, BU GÖY XOŞUMA GƏLMİR

Bu göy xoşuma gəlmir daha,
Daha torpaq yeyə-yeyə böyümür şahlar,
Daha dünyanı tumtək çırtlaya-çırtlaya,
tumurcuqtək duya-duya, anlaya-anlaya,
ulduzların yanından çığıra-çığıra,
banlaya-banlaya böyümür uşaqlar.

Baxıb ay işığına dırmaşan uşaqlara,
ulduzlar da sallaşıb ay işığından
daha düşmür yerüzünə,
daha ay işığı da elə bil
sevgi kimi, eşq kimi səpilmir
çiçəklərin, ürəklərin üstünə.

Daha ay işığı altında
bir kimsə dönmür
məzhəbindən, dinindən,
daha heç kəs dəli olmur
heç kəsin dərdindən

Bəs indinin insanları
necə çiçəyi olur bir-birinin,
necə gülü olur, İlahi,
bəs indinin aşiqləri,
necə dəli olur, İlahi?!

Ya da hamı ağıllıysa,
ağıllı arvad-uşağı,
Tanrım, son dəli toxumutək
başqa bir göydə bitməyə
məni bu göydən sal aşağı.

# BU MİN İL DƏ TƏNHALIQ MİNİLLİYİ

Bu min il də tənhalıq minilliyi,
Bu əsr də tənhalıq əsridi.
Hamı onun əsiridi,
Fərqi yox, yetim-yesirdi,
ya şah oğlu, şah qızıdı,
Hamı tənhalar tənhası,
yalqızlar yalqızıdı.

Hamı doğulduğu gündən
axır üzü tənhalığa,
azdırır ağrı, acını,
azdırır dostu, düşməni,
övladı, qardaş-bacını,
özü çıxır tənhalığa.

Tənhalıq özünü sevmək,
həm də, həm də aldatmaqdı,
həm də heç vaxt görmədiyin,
ancaq ruhunla duyduğun
bir dünyaya can atmaqdı.

Sən də, sən də durma daha,
Can at ruhunla sevməyə,
Sevib sonda aldanmağa,
Sən də sıçra, heç olmasa,
bir anlığa, bir günlüyə
qanı göyə axan oxa,
göydə göllənən gülləyə.

Canın oxla çitənincə,
eşqlə, sevgiylə dolunca,

Oxlar lələyə dönüncə,
Qalxarsan uça-uça
Tanrıdan da ucaya
oxu lələk edən Allah
sənin üstündə olunca.

# GÖYÜN TİTRƏYİR, GÖYÜNÜ TUT, İLAHİ

Həm yordu öz-özünü,
həm də yordu dünyanı
birdən yıxıldı bu ömür,
indi heç özü də bilmir
ölür, ölmür?! Ölür, Ölmür?!

Yerüzündə dənizlərə,
göyüzündə dağlara
qanad verib qaldıran quş,
bir az da aşağı şığı,
şığı, gözümün işığı,
şığı, bu canı dimdiklə,
ya da qaldır, bunu yenə
dümdüz elə, dimdik elə.

Yox, deyən ölməyib hələ,
bu dünyanın hər yerində
hamı gözlətdi onu,
deyən, ölüm də gözlədir,
bəlkə ömründə bircə yol
o da küsübdü Allahdan —
öldüyünü gizlədir,
susub dinmir bu ömür
gözü axır, axa bilmir,
Tanrım, bu ruh, Tanrım, bu ruh
birdən çıxmaq istəmir,
göyüzünə bir az, bir az
pillə-pillə qalxır, dəyir,
Tanrım, bu ruh,
göyüzünə qalxmaq deyil,

Göyüzünün sonunacan
pillələr olmaq istəyir.

Tanrım! Tanrım! Bu ruha
göyüzünün sonunacan
qalxan pillələr olmağa,
qanadı qırıq ruhlara
titrəyən, əsən bu ruhla
pillə-pillə çıxılmağa
bu ruhu tut,
bu ruhun söykəndiyi
göyün də əsir, titrəyir,
göyünü tut, İlahi,
ya da göyü titrəməyən
bir dünyaya yıxılmağa
bu dünyanı bir yandan əy,
ətəyini tut, İlahi.

## ƏL ÇALIR ŞEYTAN SÜRÜSÜ, ƏN BAŞ ŞEYTAN BAŞA ÇIXIR

Keçdiyim hər min ilin
Həm əvvəli, həm də sonu
dunyanın sonudu deyə
yamanca güclənir şeytan,
min illik sevgiyçün uçub
başlar dəydikcə göyə
sevinir dincəlir şeytan.

Gecə-gündüz yeri yerə,
Göyü göyə yığa-yığa
Hər min ildə bircə kərə
Tanrı dözmür tanrılığa.
Həm dözmür, həm də bezir,
Həm də yoxlayır bizləri,
Haqq deyilən taxtdan düşür,
Şeytan dırmaşır yuxarı,
Həqiqətlər haqdan düşür.
Göz yaşı basır dünyanı,
axdıqca yaş yaşa çıxır,
əl çalır şeytan sürüsü,
ən baş şeytan başa çıxır.

Yox! Allah baxmaz zamana.
Allah, Zaman ?! Gülməlidi.
Allah zamansız olur,
Zaman şeytan əməlidi.
Zaman həm şeytan əməli,
Həm də onun zindanıdı,
Həm də, həm də qan damarı,
Ömrümüzə, günümüzə,
qolumuza bağlanan

saatlar da qandalları.
Təkcə şeytan dediyiylə
durub dolanammaz insan,
bu dünyanı saxlamaqçün
gərək Allah da olasan.
Şeytan çox çalışar, ancaq,
Dünya güc gələr şeytana,
şeytan da yıxılan anda
atar dünyanı insana.
Deyər, cavab vermək çətin
hər lal qəmin, dinməz dərdin,
çəkilməz ahın yerinə,
dünyanı yola vermək zor
həm şeytanın,
həm də Allahın yerinə.

Beləcə, zamandan yana
Bir An gələr, o bir Ana
Allahın da, şeytanın da
gücü keçər bir insana.
O tək insan o bir Anda
öz gücündən havalanar,
öz suçundan dəli olar,
buynuzu qapqara qanla,
qanadı sevgiylə dolar,
bir kimsə duymaz halını,
hamıya buynuz göstərər,
həm də sevər hamını.

Allahlığa, şeytanlığa
Bir an dözər insan ancaq
çox dayana bilməz daha,
o bir Ana
insana keçib qayıdar
dupduru Allahlıq Allaha,
dipdiri şeytanlıq şeytana.

# QARIŞQA OLMAQ İSTƏYƏN ŞAH

Şah sarayında doğuldu o,
tənha şaha tənha oğul oldu o,
qarışqatək doğulmaq,
bir qarışqaya oğul olmaq istəyirdi o ancaq,
yapışıb qırağından bir dən qırığının,
ya bir dadlı çöpün, ya bir buğda başağının
aparmaq istəyirdi arvad-uşağına o.

Xəyalında hər gün yuvasının divarlarını
dadlı-dadlı çöplərlə hörürdü o,
adamlara yuxarıdan aşağı yox,
aşağıdan yuxarı baxıb
adamları dev boyda, dağ boyda görürdü o,
hərdən də kefindən qarışqa dilində söyür,
qarışqa dilində hürürdü o.

Taxta çıxacağı gün taxtı darta-darta
çəkib apardı bir çiçəyin altına,
orda şahlıq andı içdi çiçəyin göyüzünə:
— And olsun bu çiçəyi açan göyüzünə!
Çiçəkdən yuxarı ona baş əyən adamlar
göyüzündə uçan mələklərtək göründü ona.
Şahlıq andı içdi ikinci kərə:
— And olsun qanad çalan mələklərə!
Baxdı otların başına dırmaşan qarışqalara,
onu qarışqa dilində qarşılayan qarışqalara,
and içdi yenə:
— And olsun qarışqa elinə, qarışqa dilinə!

O şahlıq andı içən anda
ayaqlarının altında qışqıra-qışqıra
onu özlərinə şah seçirdilər qarışqalar da.

## RƏQS EDƏK, RƏQS EDƏK DOĞULANDAN ÖLƏNƏDƏK

Gəlin rəqs edək, rəqs edək!
Hamımız birdən, eyni anda!
Qoşa istəyənlər qoşa-qoşa,
üç-üç istəyənlər üç-üç,
tək istəyənlər tək-tək!
Rəqs edək! Rəqs edək!
Doğulandan ölənədək!

Gəlin rəqs edək, rəqs edək!
Hətta ağlayanda, agrıyanda da!
Bir an da dayanmadan, durmadan,
ayağımızın altından irəli qaçsın,
geri qayıtsın zaman.

Qaldırın bələkdəki körpəni də,
gözlərindən görürəm bu onun havası!
Həm də ilk addımını atma duası.
Qalx, bəbə, qalx! Bax belə!
Biz görmədiyimiz mələklərlə
qol-qola, əl-ələ!

Yasaq olsun bundan sonra
dodaqların öpüşməyi!
Rəqs edək! Öpsün bir-birini
sevgililərin yerinə
çağırdıqca şirinləşən sevgililərin adı,
uçduqca sevgiləşən
paltarların qanadı.
Öpsün bir-birini
qanadlanan ayaqların səsi,
uçan barmaqların nəfəsi.

Hamı göz-gözə oynaya-oynaya
keçək ölkələrin, dənizlərin,
göyüzünün üstündən də o yana.
Keçək bu dünyadan
Başqa bir dünyaya oynaya-oynaya.

Xəbərimiz də olmaz,
bizə görünməyən mələklər də
göyüzündə süzə-süzə,
gedərlər bizimlə əl-ələ,
qol-qola, göz-gözə.

# GECƏ KƏPƏNƏYİ, GECƏ ŞİMŞƏYİ

Ürəyini ancaq sevgiylə naxışladığından,
Bütün günahkarları bağışladığından,
Qara torpağın ahıtək çəkilincə torpağına
Baxıb, baxıb deyəcək Allah ona:
— Şikayət nədi, ömrün boyu
bir ah da çəkmədin,
bağışlayım ahını, keçim ahından,
bir ah da çəkmədin,
keç Allahının günahından.

Sən Allahın ən sevimli qəmisən,
bu dünyada hamıdan az, hamıdan sonra
sevgi gözləyən yetim kimisən,
ancaq sevgi yox, gələr ayrılıqlar
sərxoş, dalğın,
sənsə heç vaxt soruşmazsan:
— Bircə qırıq sevgisi yoxmu
bu qədər ayrılığın?!

İllərcə ürəyində gizlədiyin bir
nəğmən də olar,
tək özünçün oxuyarsan son günündə,
eşidib, o nəğmənin eşqindən
yıxılar ayağının altına ölümün də,
beləcə, sənin də dərdindən ölən tapılar.

O yıxılar, sən qalxarsan yenə,
dünyanın eşqdən sərxoş çiçəklərini
dərib göndərərsən dünyanın hər yerinə,
bütün gecə kəpənəklərinə,
gecə çiçəklərinə,

gecə ildırımlarına,
gecə şimşəklərinə.

Ancaq sən dərən sevgiylə heç kəs
dərə bilməz,
həm də bu dünyada heç bir dəli
bir də o şəkildə, o gözəllikdə
bir kimsəyə göndərə bilməz çiçəkləri.

# ÖLÜM - HƏYATDA HEÇ VAXT YÜYÜRƏ BİLMƏDİYİNTƏK YÜYÜRMƏK

Elə bil sevinirəm xəstələnəndə hər dəfə,
sevinirəm sevgiylə doluram,
nəsə bir igidlik etmiş kimi,
uşaqlığıma, anamın qucağına
qayıtmış kimi oluram.

Xəstəlik göz yaşıtək rahatlıq gətirir mənə,
gəlir irəlidəki,
geridəki bütün körpəliklərim yenə,
görürəm kəfənimdə də,
                    bələyimdə də gülürəm,
bilirəm ancaq körpə uşaqlara görünən Tanrı
elə hey nəsə deyib, güldürür onları.

Xəstəliklərim, məni ölümlə qorxudursuz?
Gəlin, dost olaq, dostcasına ağrıyaq,
Əzizlərim, onsuz da sonunuz dostum ölüm,
ölüm bəlkə həyatdan daha doğma
                    görünür gözə,
çünki bizdən öncə getmiş doğmalardan,
dostlardan son vətəntək yadigar bizə.

Beləcə, sevinirəm öləndə də,
ölüm — həyatda heç vaxt
yüyürə bilmədiyintək
yüyürmək ilk dəfə,
yüyürmək üzü doğmalara,
üzü doğmalar doğması Allaha,
Allah olan tərəfə.

## ÇAY CANINDA DAŞTƏK, GÖY CANINDA QUŞTƏK AĞRI

Nolar, bir az da şən ağrı,
mən də şən-şən inləyim
dərdə, bəlama, ürəyim,
bəsdi, səni çox dinlədim,
bir az da göyü dinləyim,
sus, sus, ulama, ürəyim.

Həm də şükür et bir təhər,
bax, yarı saplanmış xəncər,
bu, yarı şər,
yarı da hörmət bu qədər
sözə, kəlama, ürəyim.

Gördüm, aşıb daşır dərdin,
səni sevməyə göndərdim,
ancaq etibarsız gördüm,
nə vaxt bir eşq sirri verdim,
yaydın aləmə, ürəyim.

Nə eşqə yaraşır ağrı,
nə bu cana imdad, çağrı,
ağrıdın, ağrıtək ağrı,
çay canında daştək,
göy canında quştək ağrı,
məni dolama, ürəyim.

## SƏNİ KİMƏ TAPŞIRIM GEDİM, VƏTƏN, SƏNİ KİMƏ TAPŞIRIM GEDİM, İLAHİ

Səninçün neçə yol yerüzünə,
neçə yol göyüzünə yıxıldım,
neçə yol can verdim, yox oldum,
yenə «Canını mənə ver» deyirsən,
məndə qalan ancaq quru bədən,
canım çoxdan səndə, vətən.

Özləri də bilmədən özgələrə
ölüm diləyən ölüürəklər, ölübaşlar,
ölümüm son xidmətim olacaq sizə,
ancaq kim dua edəcək məndən sonra
sizin dirilməyinizə?!

Təkcə sən dinmirsən,
ən böyük dahiləri də
ən gülməli oyuncaqlartək oynadan Dahi,
bir kimsən qaldımı bu dünyada,
səni kimə tapşırım gedim, İlahi?!

# DE: "SEVDİR - OL" SÖZÜNDƏN ƏVVƏL SÖZ DÜNYADA YOXDU

Şair başı — şair xaşı,
Şair ürəyi yeyənlər
çətin səni bəyənələr,
Ey Vaqif Bayatlı Odər,
bu dünyada sən deyənlər
ya xam xəyal, ya yuxudu

Düşmənə də eşq dilədin,
sevdikcə doğma elədin,
tikanı gülə bələdin,
Xəbərin oldu, neylədin?!
Tikanlar da gül qoxudu.

Allah görür göyüzündən,
Dünya şeirin dizindən,
Deyir, de mənim özümdən,
de: «Sevdir, — ol» sözündən
əvvəl söz dünyada yoxdu.

## TANRI TRAMVAYINDA

Bir qəm ayında
qucağında uşaq bir qəmli ata
yuxlaya-yuxlaya
gedirdi Tanrının tramvayında

Söykəyib üzünü soyuq şüşəyə
Üşüyə-üşüyə üzündə qəmi
Atanın üzünə baxırdı uşaq

O yuxulu üzü görəndən sonra
O sevgili uşaq, o çiçək uşaq
Heç zaman, heç yerdə ağlamayacaq

Dar gündə, xoş gündə yarıyan mələk,
Ata yuxusunu qoruyan mələk
Uşağın üzündən göründü mənə.

Atalar yorulub vaxtsız yatanda.
Divansız yatanda, taxtsız yatanda,
Başının üstündə ulduz yatanda
Qəmin uşaqları oyaq olarlar.

Beləcə, beləcə,
bir qaya yanında, bir daş dibində
bir çiçək ayılar bir gecəyarı,
baxar, baxar görər yatıbdı hər yan,
baxar, baxar, baxar, qəflətən qorxar,
o yumsa gözünü hər şey yıxılar,
o balaca çiçək,o körpə çiçək
yummaz gözlərini səhərə kimi
dünyanı ölümdən qoruyurmuştək.

Tanrıya xoş gələr çiçək düşünən,
çiçək düşünəntək olar bu dünya,
dünyanın gedişi qalar yarıda,
o qədər sevinər,
dünyanı ilk yol
çiçəyə tapşırıb yatar Tanrı da.

Yatar bu dünyanın göyündə quşu,
suyunda balığı, dağında daşı,
çiçəyin gözündə özü bilmədən
onu qoruyantək o baş bu başa
gəzər səhərəcən bir damla yaşı.

## TANRIM, İKİ KOR GÖZ DƏ VER, ANCAQ SƏNİ GÖRÜB YAZMAĞA

Tanrım, bu qocaman uşağa
ən şux qəmin qələmini ver
sənin də qəmini qazmağa,
ən dalğalı göyünü də ver
atılıb min illər üzməyə,
ən sıx cəngəlliyini də ver
ən ilanbel sevgi pələngin,
eşq pələngin gəzib azmağa,
yüzillik, miniilik sevginin
bir anlıq ayrılığın da ver
çıldırıb özünü asmağa,
ən sonda iki kor göz də ver
ancaq Səni görüb yazmağa,
ancaq Səni görüb yazmağa.

## SAVALANIM - TANRI DAĞIM




Yerüzü — göyüzündə kiçicik bir nöqtə yox, göyüzünün kiçicik bir nöqtəsi!
Azərbaycan — yerüzündə kiçicik bir nöqtə!
Ancaq dünyanın Tanrıya qovuşduğu, dünyadan böyük nöqtə.

Bu şeri Bəylə ikimiz bir yerdə yazmalıydıq. Bəy mənə Savalan dağı haqqında xeyli danışmışdı, biz bu şeri Bəyin, həm də mənim istədiyimiz şəkildə, Tanrıya qovuşan və bizi də qovuşduracaq bir qanadlı dağ, bir İlahi sevgi şəklində yazacaqdıq. Və yazdıq da: Həm də şerdəki kimi təkcə Savalan yox, Bəy də Tanrıya qovuşdu. Ancaq, canım, gözüm, nə bu cəhd bitər, nə də Tanrıya qovuşma.

## SAVALANIM, TANRI DAĞIM

*1960-80-ci illər dünya antisovet, disident hərəkatında Azərbaycanı utancdan xilas etmiş ELÇİBƏYin dilindən*

Mən bu dünyanın özündən,
Min üzündən sovuşuram,
Savalanım, Tanrı dağım,
uçub sənə qovuşuram,
qovuşduqca duruluram,
duruluram, duruluram,
göyüzündən ətirli göy,
sudan duru gül oluram.

Şükür, Tanrım, şükür sənə,
gül qoxusu gəlir yenə
ətəyindən qanadlanıb
göyləri aşan elimin,
çiçəkcə, gülcə danışan,
göycə dinən Türk dilimin.

Anayurdu, Atagöyü
Gecə-gündüz sevməkdən də

rahat olmuram, İlahi,
eşqindən göydə yaraşığın,
yerdə işığın yorulur,
mən yorulmuram, İlahi.

Səni sevmək azdı, Tanrım,
Səni sevmək — sevgi yarı,
hər an qanad açа-açа,
uça-uça hey yuxarı,
qalxıram insan göyündən,
qalxıram insan eşqindən
neçə-neçə göy yuxarı,
Şükür, Tanrım, şükür, Tanrım,
məni elədin axırı,
hamının hamını sevməyiyçün
bu dünyanın çıxarı.

İndi min göydən üzümə
mingül nurun düşür, Tanrım,
hamını hamıya sevdirdikcə
Şükür, sevgim bütövləşir,
şükür, yurdum bütövləşir,
Türküm bütövləşir, Tanrım.

# ÖLÜM — ƏN UZAĞA, ƏN UCAYA UÇMAQ

Azadlıqçün ağlayan oğlan,
elə azadlıqdı azadlıqçün ağlamağın,
azadlıqçün ağladığın andan sən azadsan,
xəbərin yoxdu, azadlıq göz yaşıntək
göyüzündən səssizcə enib sənə,
enib dolub gözlərinə.

Azadlıqçün ağlayan oğlan,
Kipriklərin qanadlarıdı göz yaşlarının,
Göz yaşların kipriklərinlə
qanadlandığı andan
sən azadsan, sən qanadlısan,
qanadlarını açıb bağlamaq öyrən,
quşların ağlamağı da, gülməyi də uçmaqdı,
quşlardan gülmək, ağlamaq öyrən,
öyrən, ölümün ən böyük azadlıq
olduğun öyrən,
öyrən, ölümün ən uzağa,
ən ucaya uçmaq olduğun öyrən,
öyrən, ondan sonra ağlamağın
uçmaq olacaq,
öyrən, arı çiçəyə qonantək uç qon
dar ağacına,
dar ağacından ölümün balını çək,
dar ağacına da uçmaq öyrət,
onu da quşa döndər,
verin qanad-qanada
uçun göyə, girin buluda,
uçun suya, girin oda.

# ANCAQ ULDUZLARA DƏYƏN QILINC PƏNCƏRƏSİNDƏN OLDUĞUTƏK GÖRÜNƏR DÜŞMƏN

*«Ancaq Elçibəyçün» silsiləsindən*

A göy, a göy, gördünmü
dağmı qılınca dəydi,
qılıncmı dağa dəydi,
dağmı doğdu iyidi,
qılıncmı doğdu iyidi?!

Elə doğulan kimi də
İyid qalxdı qılınca
qılınc iyidin dağı,
qılınc iyidin göyüydü,
qınılc göydə,
iyid qılıncda böyüdü.

Bir gün ulduzlara dəyən
Qılıncın pəncərəsindən
Baxdı, düşməni gördü,
hamının ölü bildiyi
düşmən diridən diriydi,
elə görən kimi də
səsi özündən qabaq,
nəfəsi səsindən qabaq
düşmən üstə yeridi.

O çay nə çaydı, a dağ,
o göy nə göydü, a dağ,
qanı çaya,
çayı da qına dönən
o bəy nə bəydi, a dağ.

O, Qılınc bəydi, göylər,
ölmədi damcı-damcı,
bir də yenidən doğmağa
qanı apardı Qılıncı,
qını apardı qılıncı.

## QANADLAN, UÇ, ZALIM ŞUŞA

*şairin göyə çevrilib Şuşanı azad etməsi*

Qanadlan, qalx, gəlirəm,
göyün bağlı, göy oluram,
sənə canımdan qəmi kəm,
yarı dəniz, yarı şüşə
güllə dərirəm,
göy dərirəm, zalım Şuşa.

Sən qönçə daş, mən açışın,
Sən qönçə quş,
mən açışın,uçuşun,
sən minillik şərab-qurşun,
mən minillər lal sərxoşun,
öl dəminəm, zalım Şuşa.

Eşqindən canım dəyəndə,
min illərlə də qəbrimdə-
torpağının dimdiyində
dilin altda gizlətdiyin
son güllən —
ən dadlı, şirin
son yeminəm, zalım Şuşa.

## ÖLSƏK, AT BELİNDƏ -
## O ƏN ŞƏHANƏ SƏNGƏRDƏ -
## BÜTÜN KAİNATA GÖZ QOYAN
## YERDƏ SAXLAYIN BİZİ

Hərəsi bir gülməli, yeməli adda,
forslana-forslana bir boğça uşaq
gedir bir göyərçin qanadı altda.

Çocuqdan çocuqmuş bu kainat da,
forslana-forslana getməkdə o da
Allahın görünməz qanadı altda!

O qanadı ancaq şairlər duyar,
dünya da şairlər deyəni ancaq,
min cürə dərt-qəmdən Allah sözüylə
şairlər qoruyar dünyanı ancaq.

Ölsək, at belində
bütün kainata göz qoyan yerdə —
o ən şəhanə,
ən uca səngərdə saxlayın bizi,
Bizi uca görüb, uca sayınca,
heç bir dünya dərdi ağlana bilməz,
nəğmələrin qəmi qurumayınca
şair gözləri də bağlana bilməz.

Hər ulduz dərdini şair canında
nəğmə-nəğmə, söz-söz cahanlaşdırar,
bütün kainatın min bir yanında
türmələr, qandallar, qanlar, qadalar
qoca şairləri cavanlaşdırar,
ölən şairlərin qəbrin daşdırar.

Bu göy də bir Tanrı pəncərəsitək,
Tanrı aynasıtək daşlana bilər,
bir gün sındırılsa, sınsa göyüzü,
sınıqdan görüncə bir qəmli üzü,
göydən at belində gözləyin bizi,
bu dünya yenidən başlana bilər
bir Kitab Söz ilə, Şeirlə yenə.

# BƏLKƏ DƏ TANRIMIZ ANCAQ BİZİMÇÜN, GÖYÜZÜNÜN SONUNACAN ULAMAQÇÜN BELƏ SONSUZ YARATMIŞ BU GÖYÜZÜNÜ

Kainat boyda bir ciyərin
nəfəsini dərib, dərib,
birdən verib ulamaq!

İt kimi yox,
heç qurd kimi də yox,
dərd kimi ulamaq!

Göyüzündə ən uçuq, ən cocuq
dərdi ulamaq!
Yerüzündə Azərbaycan deyilən
bu tənha, bu yazıq yurdu ulamaq!

Heç gözlərlə də danışmamaq!
Mənim nəfəsim bundan belə
ulamaqla gələ bilər ancaq.

Bu Göyüzünün altında da yox,
bu Göyüzünün üstünə qonub ulamaq,
Bu dünyadan da o yana
bir dünya varsa harda,
qoy desinlər orda:
— Kimsə qonub son Göyüzünün damına
min illərdi dünyanı dinləyir, dururdu,
hərdən də əl-qolunu ata-ata
bir dəli dərdi-bir ulu yurdu
kainatdan da o yana uluyurdu...

# XOCALI — TANRININ BALASI

*Tanrının və fırtınaların Çingiz Mustafayevinin «Hamınız arvadsınız!» — dediyi, bizim özümüzü eşitməzliyə vurduğumuz ana*

Xocalı heç kəsin görə bilmədiyi sürətli insan fırtınalarının Tanrının əliylə yavaşıdılmış, görünən şəklidir. Allah sürətlə gedən zamanı birdən-birə saxlayıb bizə hər şeyi göstərdi.

Xocalıda, ondan əvvəl, ondan sonra əsir düşən qadınlar, qızlar əsir düşdükləri andan Tanrının əziz balaları və prezidentindən tutmuş dilənçilərinə qədər bütün azərbaycanlı kişilərin anaları oldular. Biz heç vaxt onlar qədər Allaha doğma və yaxın ola bilməyəcəyik.

Həm də ən körpə qız uşağı da Allaha bütün kişilərdən daha yaxın.

Xocalını azad eləməyi mən heç vaxt qələbə saymayacağam. Bunu ancaq göz yaşını silmək hesab etmək olar. Xocalı baş verən gündən Şəhidlər Xiyabanı mənim gözümə Tək, Böyük bir Məzar kimi, Milli Məclisin binası isə o Tənha Böyük Məzardan əfv diləyən Başdaşı kimi görünür. Ancaq o Məzar o başdaşını qəbul etmir, deyir, mənim başdaşım yox, Başgöyüm var, o, insan ayaqlarına sarı yox, Allahın yanınacan uzanır. Həm də deyir, mən məzar deyiləm, mən Tanrı yoluyam.

...Bu şeirin əvvəlində şair ölmüşdü. Çingizin qucağındakı ölü uşaq elə şairin özüydü. Sonra Tanrı onun nəfəsini qaytardı və şeirin sonrakı

misraları yarandı. Bir zamanlar yerüzü yarandığı kimi.

Bu dünyada hər şeir bizə dünyanın necə yarandığını xatırladır.

Şeirin əvvəlindəki nöqtələrin yerinə «Şair burada ölmüşdü» də yazmaq olar.

...
...
indi də gəl,
«ölüm-ölüm» oynayaq,
əvvəl mən ölüm, sən bilmə,
sonra sən ölmə, sonra sən ölmə.

İndi də gəl
«daş-daş» oynayaq,
əvvəl sən mənə başdaşı ağla,
başdaşı ağla,
başdaşı qoy bir damla göz yaşından,
sonra mən görünüm başdaşının içindən,
çıxım uçum sənə sarı,
sən də açma qollarını, açma qollarını.

İndi də gəl,
«çiçək-çiçək» oynayaq,
əvvəl sən qon
mənim qəbrim üstə çiçəktək,
sonra qalxım mən sənə görünmədən,
qalxım qoxlayım tellərini
tel-tel, ləçək-ləçək,
görüm hələ də, hələ də
uşaqlığımın qoxusu gəlir tellərindən
dünyanın əvvəlinin,
sonunun qoxusutək.

# O CANIM XAN AĞACIN, GÖZÜM SULTAN AĞACIN

*Böyük Türk milliyətçisi Məsud Əlioğlunun*
*bu dünyadan uçuşuna*

Uzaq uçun, uzaq qaçın,
dərdimizin ağacları,
sizdən asarlar məni,
onsuz da ağrınız çoxdu,
mən də artıq yük olaram,
lap elə meyvə kimi də
sizə çox böyük olaram.

Uzaq gəzin, uzaq yağın,
yurdumuzun yağışları,
sizdən asarlar məni
ağrı kimi, acı kimi,
asarlar bir az da artar
yurdumuzun çəkib, çəkib
azaltdığım dərdi, qəmi.

Yüz illərdi, min illərdi
bizdən uzaq gəzən ümid,
bir az da uzaq gəz, dolan,
səndən asarlar məni,
qırıla bilərsən, iyid.

Bu gün məni bir də, yenə
asmaq istəyən iyidlər,
qoymaram qəm çəkəsiniz,
nolar, könlünüz istəyir,
cavan ağaclar qorxarlar,
qocaman bir ağac var,

o ağacdan asın məni
o ağacın da sevdiyi
çox qədimi bir nəğməni
pəsdən oxuya-oxuya,
o ağacı, o nəğməni
sığallaya-sığallaya,
tumarlaya-tumarlaya,
verə-verə yuxuya,
o yuxudaykən asın,
ayılmamış da açın,
min ildi xəbəri yoxdu
ondan asıldığımdan,
elə asın, elə açın
yenə xəbəri olmasın
yurdumun ruhutək qalxan
o, canım xan ağacın,
gözüm sultan ağacın.

# SƏN ALLAHA OXŞAYIRSAN, ANA

Vətən torpağını hamıdan çox sevənlər vətən torpağına hamıdan tez qarışmağa tələsənlərdi. Vətənin ən gözəl ətri də onlardan, onların torpağından gəlir. Hər dəfə dostum Zakir Fəxrinin, həm də hamımızın qardaşı Kamili xatırlayanda yerüzüm və göyüzüm çöl, çiçək qoxusuyla dolur və Kamilin bu gözəl çöl, çiçək qoxusu dünyamı uzun müddət tərk eləmir, mən çox zaman özümdən asılı olmadan öz-özümə gülümsəyirəm. Bu çöl, çiçək qoxusu bizim dünyamızın çöllərinin, çiçəklərinin qoxusuna bənzəmir, daha sevgili bir dünyanın hər an insanı yeni bir xoş hala gətirən qoxusudur. Bu həm də Kamilin və bütün igid, gözəl, şəkil şəhidlərimizin ruhunun qoxusudur. Mənə elə gəlir ki, onların ruhunun gözəl ətriylə dolu o dünyaya çox rahat getmək olar. Onlar arasına getmək əbədi solmaz çiçəklər arasına getmək kimidi.

Çöl kimi,
çiçək kimi bir oğlandı o,
çöllərdən, çiçəklərdən doğulandı o.

Bir gün də bir anda
çöl qoxusu, çiçək qoxusu gəldi
ona oxunan duadan da,
ona çəkilən ahdan da,
ona dəyən güllədən də,
onu qoruyan Allahdan da.

Çöl qoxusu,
çiçək qoxusu gəldi
nəfəsi gəlmədi daha,

bir balaca, körpə çiçək
tez qaçıb gəldi yanına,
bir kiçik körpə payıtək
nəfəsini verdi ona,
o çiçəyin nəfəsini
ləçək-ləçək ala-ala,
bir körpəyə dönə-dönə
Üzünü tutdu Allaha:
— Qurban olum, Tanrım, sənə,
Anamın əllərini,
anamın ətəyini
yetir mənə, yetir mənə!

Allah baxdı anasına,
dua edirdi anası,
əlləri duasının,
ətəyi dizinin altda,
qıymadı duası sına,
Allah tez öz ətəyini
anasının ətəyitək
endirdi göylərdən ona,
anasının oxuduğu
duanın səsi, sözüylə
layla dedi oğluna,
Anasının gözü bilib
Tanrının gözlərinə
zillədi gözünü o,
Anasının dizi bildi
Tanrının dizini o.

Başı Tanrının dizində,
əli Tanrının əlində,
gözü Tanrının gözündə
son anında dedi ona:
— Sən Allaha oxşayırsan, Ana.

# DÜNYANIN ƏN İRİ GÖZÜ, ƏN İRİ ÇAYI, DƏNİZİ

Tanrım, əsirlikdə başları kəsilən şəhidlərimizin son baxışlarıyla göyüzünün hərəkətini onların son anda gözlərini zillədikləri yerdəcə durdurdun, beləcə, zamanı da dayandırdın. Bu dünyada daha heç kəs qocalmır. Şəhid anaları da elə həmin andakı şəkillərindəcə qalıblar, saçlarında bircəcə dən də artmayıb, çünki şəhidlərimiz gözlərini göyüzünə zilləyib göyüzünün hərəkətini, həm də zamanı dayandırmaqla anaların saçlarını ağarmaqdan, üzlərini qırışmaqdan qorudular. Yoxsa anlar axıb getdikcə, analar da axıb gedəcəkdi, saçları ağlarda, üzləri qırışlarda itəcəkdi və mənim başım da hər an yenidən kəsiləcəkdi, elə kəsilən kimi də boynum dünyanın ən iri gözünə,o gözdən axan çay isə dünyanın ən iri çayına, dənizinə çevriləcəkdi.

— Canımın harasındasa,
öz canımdan da gizli
sıxıb gizlədibmiş canım
bu boyda çayı, dənizi,
canım canımdan,
qanım bədənimdən gizli
aşıb daşırmış, Ana,
düşmən kəsə bilməmiş,
başımı bədənimdən
eşq çayı, eşq dənizi
coşub aşırmış, Ana.
— Sənin ən iri gözünü
çiynin gizlədibmiş, bala,
çayını, dənizini

boynun gizlədibmiş, bala.
— Elə çiynimdəki gözümün
kirpikləri açılan anda
gördüm üzündə üzüm, Ana,
elə o an yerə kök atıb
qaldırdı məni dizim, Ana,
açıldı bulağın gözü,
axdı qalxdı bədənimdən
eşq çayı, eşq dənizi.
— Çayın çiçək, oğul, dənizin çiçək,
hələ min illərcə sənin ilk sevgintək
çayın dənizini,
dənizin çayını sevəcək
— Gördün, oğlun necə oğuldu, Ana,
gördün eşq çayımda, eşq dənizimdə
düşmən necə batdı, necə boğuldu, Ana?!
— Sən eşq çayı, eşq dənizi olan kimi
qaçdım sahilinə sənin,
qucaqladım bircə-bircə
hər dalğasını dənizinin,
hər dalğanın içində əlin əlimə dəydi, oğul,
sən nurdan əl,
sən nurdan dəniz, nurdan çaydın, oğul.
— Elə çiynimdəki gözüm açılan anda
açıldı o biri iki gözüm də, Ana,
elə o anda, elə o anda
gördüm Tanrının üzünü, Ana,
elə o andan, elə o andan
heç bir an da nəfəs almadan,
heç bir an da kirpik çalmadan
baxıram, baxıram Tanrının gözlərinə.
— Sən Tanrının gözlərini gördüyün
min ilin, milyon ilin hər anı, hər günü
əyilib öpən kimi sənin gözünü
qalxıb öpürəm göyüzündə

sənin elə hey baxdığin yeri-
Tanrının tək səninçün ayırdığı,
tək sənə verdiyi göyüzünü
— Canım canımdan gizli
bu boyda çayı, dənizi
harda daşıyırmış, Ana?!
— Bu boyda çayı,dənizi
qantək daşımırmış canın,
canında eşqə çevirib
eşqtək yaşayırmış, bala.

# VƏTƏN, ODUNDAN DOYMADIM

*Dünyanın ən usta tərcüməçilərindən*
*Natiq Səfərovu yanğından xilas edərkən*
*yanmış Natiq Səfərovun xatirəsinə*

Bir yol da demədin «Vətən»,
Vətən adına qıymadın,
hamı onun sərvətindən,
sən onun atlı dilindən,
bəy adından doymadın.

Doğma döyüldü, yad dərdi,
ən doğma da səni gördü,
ən acını sənə verdi,
daddın, dadından doymadın.

Kim deyir, yandın, köz oldun?!
Bizə baxan min göz oldun,
Söndürməsələr, ölməzdin,
Söndün, odundan doymadın.

# DÜNYA TARİXİNİN ÇOX QƏDDAR VƏ CILIZ GÖRÜNDÜYÜ AN

Son 70-80 ildə yaxından gördüyüm, tanıdığım, əsl həqiqətlərini eşitdiyim böyük və ya dahi adlandırılan adamların əslində, nə boyda olduqlarını düşündükcə dünya tarixinin çox böyük şəxsiyyətləri, hətta dünya tarixinin özü mənə şox cılız, uydurulmuş və qəddar görünür. Bir sözlə, tarix çox əclaf şeydir.

Mən bu sözləri, ölümündən bir neçə il keçsə də, yalnız Natiq Səfərov üçün, onun oxumasından ötrü yazıram, çünki elə bil onun belə bir istəyini hiss eləmiş kimiyəm.

Ancaq o, bəlkə də, bütün dünyalardan, kainatlardan tamam bir qıraqdadı, bizim dünyayla heç bir əlaqəsi yoxdu, heç bunu istəmir də.

Ancaq bir təsəllim var, bu yazını yazarkən mən duydum ki, o hardasa, hansı şəkildəsə var. Urra! O var!

Bu həm də mənim ümidimi bir daha dəqiqləşdirir: Biz də olacağıq!

## ÖLÜMSÜZ BİR İLAHİ YOLU

*Dünyanın ən böyük dilçilərindən Aydını*
*xatırlarkən və indi bulunduğu yerdə sevgilər*
*içində olduğunu duyarkən*

Bir baş daşı ardında olsaydın nə
vardı, Aydın,
çağırardıq , çıxardın,
ancaq yağış kimi yağan bu baş daşlarından
daha görünmür o yan,
Səni bircə kərə çağıraydıq onda gərək,
ancaq hardan biləydik,
sənin hay verən səsini
səni çağıran səslərimiz itirəcək.

Bir damla göz yaşı ardında olsaydın
nə vardı, Aydın,
hər an o bir damladan görünərdin, baxardın,
Sıra-sıra göz yaşları ardındasan artıq,
Sənə bir damladan artıq
ağlamayaydıq gərək,
ancaq hardan biləydik, səni gözümüzdən
sənə ağladığımız yaşlar itirəcək.

Bir ölümün ardında olsaydın nə vardı,
Aydın,
çağırardıq çıxardın, son qoyardın ölümə də,
yasa da,
dönərdin o dünyadakı sevgilərdən
dönməyə vaxtın olmasa da,
Ancaq sıra-sıra ölümlər ardındasan artıq,

Ölən dostları görməyə
ən kəsə yol ölməkdi indi,
odu ki, öldük gəldik yanına,
deyirsən, ölməyəydik, səni gözləyəydik
bir az da yenə,
axı, Aydın, biz hardan biləydik,
sən daha qısa, daha kəsə
ölümsüz bir İlahi yolu
tapmaq üzrəymişsən bu yana.

## KİPR ADASI— TÜRK KAMANI

Yenə üzürəm göyüzündə,
Göyüzündə, göyüzünün bir qırağıyla,
Təzəcə doğulmuş bir ulduz qırığıyla,
Birdən ulduz qırığı
ən gözəl Türk ulduzunu görür göyüzündə,
mən ən gözəl Türk qızını yerüzündə,
elə gördüyümüz andaca
ulduz qırığı göyüzünə axır, mən yerüzünə.

Axırıq, axır, axır aşağılarda
Kipr adası da yalqız,tənha, tək,
ölümsüz Türk dənizinin
ölümsüz Türk kamanıtək.
Ancaq özü özüyçün çalan
çala-çala özü özünə naz edən,
çaldığının həzinliyindən
köynəyi də, donu da
öz-özünə nazilən bir kaman.

Başında min illərin davası
bir dənizçi havası
yenə uçub gəlir, soruşur məndən:
— Sən yenədəmi uçursan, qadası,
yenə mənimi çalmaq istəyirsən
görürəm əlindədi Kipr adası?!
— Çalmaq istəyirəm həm səni,
həm də Türkün ən eşqli çağını,
həm də dənizin hər an yenidən qalxıb
göyüzünü yuxarı qaldırmağını,
çalmaq istəyirəm adamlarçün yox,
mən çaldıqca su pəriləri olacaq
qızıl qanad balıqlarçün ancaq,

su pərilərinin tül köynəyini
elə görən kimi titrəyəcək
gənc qayıqlarçün ancaq,
çalmaq istəyirəm qıyıq gözlərindən
ən gizli sevdalar sorulacaq,
ən uzun boyunlara, ən yumru çiyinlərə,
ən yanğılı, ən dadlı dodaqlara,
ən eşqli,ən çılğın ayaqlara sarılacaq,
sarılan qolları, qanadları
elə sarılan andaca
                    eşqin şiddətindən qırılacaq
yosunlarçün ancaq, yosunlarçün ancaq.

Heç nə çala bilməyən adamın
qəfil nəsə çalmağını
eşqdən qanadlı balıqlar,
eşqdən yelkənli qayıqlar,
eşqdən sürməli yosunlar
adamlardan daha yaxşı anlar.

# UŞAQ VƏ ÇÖRƏK

*Balaca Toğrul Səxavətə*

Torpağın, daşın, buzun üstdə
Çörək qırığı gördün,
Öp qoy gözün üstə,
Qaldır gözündən yüxarı,
gördüyün göyüzünəcəndi gözün,
qaldır göyüzündən yuxarı.

Qaldır! Bu da haqlar içində bir haqdı-
Haqqı ayaqlar altından
Tanrı yanına qaldırmaqdı!

Qaldır! Bir də görərsən
o balaca çörək qırığı
əl uzadıb qaldırır səni,
sən də əkinçi ilk sünbülü öpəntək
əvvəl öp çörəyin əlini,
sonra nə qədər qaldırır qalx,
amma qalxma çörəkdən yuxarı.

Mən görürəm uşaq necə əyilib,
necə qaldırır çörəyi yerdən, qaldırır necə,
Biçinçi də eləcə
endirir orağı torpağa sarı,
sonra qaldırır özündən yuxarı.

Bir gün də zəmini tapdayıb keçmək istəyən
düşmən atlılarının kəsər, biçər yollarını,
dərz bağlayantək bircə-bircə
bağlayar atlıların da, atların da qollarını.

O biçinçinin gücündəndı-
bu gün qılıncımız başımız üstündədi,
çörəyimiz ondan da yuxarı.

Qaldırın çörəyi qaldıran uşağı,
o uşaq biçinçidi, oraqdı,
oraqlardan yuxarı oraq,
o uşaq bayraqdı,
bayraqlardan yuxarı bayraq.
Endirin bütün bayraqları,
Qaldırın bayraqlardan yuxarı bayrağı-
çörək qaldıran uşağı!

Buğda dənləridi ulduzlar,
Ulduz dərzidi günəş,
milyon illər dalğalanan bir zəmidi göyüzü,
dalğalanır, küləyi yoxdu,
bu dünyanın bayraqdan yuxarı bayrağı var,
çörəkdən yuxarı çörəyi yoxdu.

Diktatorlar düşünürlər ki, dövlətin ancaq bir dik başı ola bilər, qalan dik başlar isə nə dövlətə, nə də o baş yiyəsinə lazımdır.

# AĞILLILARIN VƏ AĞILSIZLARIN QOYDUQLARI SENZURADAN KEÇMƏYƏN, KƏSİLƏN ŞEİRLƏR

Ağıllılar sizə göründükləri qədər ağıllı, ağılsızlar da siz düşündüyünüz qədər ağılsız deyillər.

*Göyüzünə qonan quş*

# OKTYABR İNQİLABININ 60 İLLİYİNƏ*

Mən yıxılmış bir ölkənin uçuğu,
sevinci, hətta qəmi də alınmış
bir məmləkətin çocuğu,
sənin altmışını gördüm,
canımda bütün alınmışların,
atılmışların əzabı,
ancaq sən mənim altmışımı
 görə bilməyəcəksən,
 ey lovğa Oktyabr inqilabı.

*1977*

*Sovet dönəmində yazdığım bəzi şeirlər boş hay-küyə səbəb olub ümumi fikri başqa istiqamətə yönəldəcəyi, əsas ruhi məqamlardan yayındıracağı üçün o şeirlərdən hələlik saralmış vərəqlərdə bir qədər də gözləmələrini xahiş etməli oldum.

Yazıların altında bu qeydləri verməkdə məqsəd antisovet, disident obrazı yaratmaq deyil, sadəcə o dövrün mənzərəsini göstərməkdir.

# BREJNEVİN SON İLLƏRİ*

Tankları döyüşən Əfqanıstana göndərirdi,
yemək-içməyi ağlayan Ermənistana,
bayraqları da bayraq yeyən Azərbaycana.

Son illər Əfqanıstan
dünyanın damında gəzən qar adamtək
rahatlıq vermirdi ona,
səksən ikidə Bakıdaykən
çaşıb Əfqanıstan dedi Azərbaycana,
beləcə bir gün də çaşıb
tankları Azərbaycana göndərəcəkdi,
bayraqları Əfqanıstana,
yemək-içməyi yenə Ermənistana,
Dünya Ermənistanı çaşdırmağı
heç vaxt bağışlamazdı ona.

Bir gün də dünya düşünüb-daşınana kimi
yer kürəsini
sürüb aparacaqdı ulduzların arasından
idman maşını kimi
Ancaq doğanağı var ən uzun örkənin də,
bir gün öldü, özünün də canı dincəldi,
durmadan doladığı bir ölkənin də.

*Şeir senzuradan keçmədiyiyçün 1988-ci ildə ixtisarla çap olunmuşdu. Onu oxuyan, üzünü heş vaxt görmədiyim mir Qasım adlı ağır bir seyid şahidlərin dediyinə görə 1990-cı ilin yanvarında Azərbaycana tanklar yeridiləcəyini şairin qabaqcadan gördüyünü söyləmişdi. O, ömrü boyu Sovet hökumətini qəbul etməmiş, heç bir Sovet idarəsində işləməmiş, dəfələrlə həbs olunmuşdu. Allah bütün şəhidlərimizin və onun ruhunu şad eləsin.

# GİC İMPERİYALARIN GİC İNTİQAMI

O, ən ədəbsiz hərəkətini
bəlkə də ömrünün ən ədəbli ilində,
ən ədəbsiz bir dövlətin
Kremlində etmişdi.

Yağış dəlilərinin ən dəlisinin də,
hətta Kreml milisinin də
ömründə görmədiyi bir yağışda
guya ki, intiqam almışdı o,
işğal olumnuş Azərbaycan adından
nəfəsindən şərab qoxusu gələn
bir zərif imreriya övladından.

Özündən razı Avropa
                        rus tankı qorxusundan
Amerikaya qısıldığı bir vaxtda
O, Amerikadan da güclü çıxmışdı
Dünyanı hədələyən bu dəli paytaxtda.

Daha nə dərdi?!
Kremldə bu cür ancaq dəli küləklər,
dəli yağışlar azad ola bilərdi.

Əslində zülm edənin də,
zülm edilənin də
gic yerinə qoyulduğu
imperiyaların intiqamı da gic olur,
həm də intiqama qalanda,
o necə intiqamdı,
ondan ləzzət alırdı qurban da,
intiqam alan da.

# STALİNİN KÖLGƏSİ

Bütün ölkənin üstündəydi,
ölkənin xəritəsi şəklindəydi o kölgə.
Əlini uzatsan dəyərdi bəlkə,
ancaq heç yerdə yerə dəymirdi o kölgə.
Yatanda hər gecə
özü şinelini büküb qoyurdu başı altına,
kölgəsi də baş altına qoymaqçün
bükürdü bütün ölkəni eləcə,
ancaq həbs düşərgələrindən soyuq gəlirdi,
üşüyürdü kölgəsinin əlləri —
axıra qədər bükə bilmirdi Sibiri.
Beləcə, özü yatsa da, yata bilmirdi kölgəsi,

Ancaq bir adamın yata biləcəyi
çarpayı kimiydi ölkəsi —
bütün ölkə ayağı altına baxa-baxa,
yolların gizli qulaqlarından qorxa-qorxa
yeriyirdi o kölgənin altında,
Bir-birinin addımlarının ağzından
söz qapırdılar adamlar,
yerdə göyə, göydə yerə
mıxlanmışdı qapılar —
dirilərə bu dünyanın,
ölülərə o dünyanın qapıları,
Açıq idi ancaq səbrin, bir də Sibirin qapısı.

Dünyanın ən böyük zalımıydı,
ən böyük, ən soyuq gözləmə zalıydı Sibir.
Orda min il sonrakı qatarı gözləyə-gözləyə
uzanmışdılar yan-yana ölülər, dirilər.
səbirliydi dirilər, ancaq hardaydı
ölülərin səbri?

Hərdən tərpənib
bir meşə yıxılan ağcaqayıntək
inildədirdilər Sibiri.

Onda Allahı da, şeytanı da
məhv etmişdi onlar,
ancaq Allah Allahdı,
şeytan da dəyişmişdi cildini —
o lap başdaydı,
Stalin kimi bığlı, Lenintək dazdı,
hətta şeytanın da
aldanıb gözlədiyi kommunizm,
Kommunizm piki* kimi əlçatmazdı.

---

* Dünyanın ən uca dağ zirvələrindən biri Sovet dönəmində belə adlanırdı.

# "QIRDI MİLLƏTİ BU NAZİRLƏR SOVETİ" *

O, dünyanın ən şirin günü
Nazirlər Sovetinin altında almışdı
ilk öpüşünü,
hər dəfə o binanın yanından keçəndə
ona ilk öpüşü qədər əziz gəlirdi o bina,
sonra yadına düşürdü
o binanın fərsiz hökuməti
deyirdi öz-özünə:
— Qırdı milləti bu Nazirlər Soveti,
hərdən də bərkdən
qışqırmaq istəyirdi bunu,
ancaq nəsə susdururdu o millət oğlunu,
o qışqırıb qaldırmaq istəmirdi milləti,
neyləsin, ilk öpüşünün yanında yerləşirdi
ona ilk öpüşü qədər əziz Nazirlər Soveti.

* Sovet dönəmində Nazirlər Kabineti belə adlanırdı.

# TƏRİF YAZAN ŞAİRLƏR, TƏRİF TABUTDU, UZANIR İÇİNƏ ÖLKƏLƏR, HÖKMDARLAR, XALQLAR

Siz ey tərif bülbülləri!
Zəhərlənən insanımıza, havamıza,
dərmanımıza, davamıza,
qoturlaşan meşəmizə tərif deyə-deyə,
ürəyimizi, beynimizi yeyə-yeyə
siz gətirmisiniz heyvanlara, ağaclara,
almalara, heyvalara, əlaclara
qiyamət gününü.
Güldürmək üçündü,
öldürmək üçündü yalançı tərif.
Tərif tabutdu — uzanır içinə istəklər, haqlar,
uzanır içinə tankın da bata bilmədiyi
imperiyalar, ölkələr, xalqlar,
orda hökmdarlara nərdivantək baxılır,
ən çıxılmaz hökmdarlara da
təriflə çıxılır,
dünyanı yıxan fatehlər də
ən sonda təriflə yıxılır.

Bir ağızdan çörəklərinə yalan yaxan şairlər!
Kağızdandı siz tökdüyünüz
tərif heykəllərinin bürüncü?!
Bəlkə heç bilmirsiniz,
vətənə atılan güllə onun şairinə,
onun şerinə dəyməlidi birinci.
Vətənin körpə uşaqtək nəfəs alan
köməksiz ağaclarına endirilən balta
o körpə ağacdan qabaq

dəyməlidi o torpağın şairinin ayağına.
Bir ayağıyla dayandıra bilmirsə baltanı,
o biri ayağını da qoymalıdı şair
o baltanın qabağına,
şair ayağına dəyib
                qırılmalıdı polad balta da.

Ey yalan baltaları!
Ey balta sənət!
Vətənə xəyanətdən də daha ağır cinayət
sizin yazdığınız şer,
sizin yazdığınız şər!

* Redaktə ilə çap olunub

# ANAYUVAMIZ, ATAGÖYÜMÜZ

*həlak olan təbii gözəlliklərimizin*
*xatirəsinə*

Nə deməkdi qırmaq meşələrimizi?!
Qırmaq deməkdi qış vaxtı
Pəncərələrimizin şüşəsini,
ilk addımını gec atması demək
körpələrimizin,
daha çox qəm, kədər, hüzn,
daha çox yekəqarınlıq, harınlıq demək.
Nə qədər axsaqlığımız var
hamısı çayların, çəmənlərin qurumağından,
ağacların, meşələrin qırılmağından gəlir.

Meşəsi qırılan,
Çəməni, çayı,quruyan torpağın
adamları da başlayar qırılmağa, qurumağa,
Çəmənlərimiz, çaylarımız quruduqca
quruyur xalılarımız, xalçalarımız.
Xalılarımız, xalçalarımız quruduqca
üşüyür divarlarımız.
Divarlarımız üşüdükcə
nə qədər qısılırıq bir-birimizə,
amma xeyri olmur, üşüyür ürəklərimiz.
ürəklərimiz üşüdükcə üşüyür şerimiz,
üşüyür nəğmələrimiz, dilimiz.
Adamın üşüməyindən
daha zülüm işdi, baba,
onun danışdığı dilin,
oxuduğu nəğmənin üşüməyi
şəhər-şəhər, kənd-kənd, oba-oba

İnsanın guruldayan gülləsi,
təbiətin də səssiz silləsi var,
beləcə, hər ağacdan qalan bir yetim səs
dünyamızda bir yetim uşaq artırar.

Açın pəncərələri! Eşidirsinizmi,
uğuldayan, ulayan yetim səsləri,
qırılmış meşələrin yerində
o dünyaya keçə bilməkçün
gözə görünmədən
son nəfəslərini gəzən kəsləri?!

# HARDA QIZIL VAR, QAN İYİ GƏLİR ORDAN

Harda ilan var, qızıl var orda
harda qızıl var, hakimiyyət var orda,
harda hakimiyyət var,
tavanı süngüdən, divarı oddan
qan iyi gəlir ordan.

Harda qızıl var, ilan var orda,
orda ilanlarla yan-yana, can-cana
qıvrılıb yatır adamlar,
orda qızıl yumurtlayır, artır adamlar,
Qıvrıla-qıvrıla, yata-yata,
fısıldaya-fısıldaya qohuma, yada
itir, itir adamların əlləri, ayaqları
itir, itir adamların barmaqları, dırnaqları,
adamlar bir-birinə dolaşa-dolaşa,
bir-birini aşa-aşa
yeriməkdən keçirlər sürünməyə,
sürünüb, sürünüb, qəfil sıçrayıb göyə
göyüzündən yeni günəş kimi görünməyə.

Bir də yerə düşüncə görürlər
nə qızıl, nə gümüş,
göyüzündən görünəcək günəş
öz ölümləriymiş.

Harda qızıl var ilan var orda,
orda ilanlarla yan-yana,
can-cana qıvrılar, yatar,
ilanların canında itər adamlar,
itər ilanlara
zəhərli diş düzəldən
ilanlardan betər adamlar.

# ARAĞIN AYAĞININ ALTI

Hərdən araq adamdan güclü olur,
hərdən də adam araqdan,
hərdən də hər ikisi bir yerdə dünyadan,
ancaq yaxşı olar, ay adam, ay insan,
dəli arağın ayağı altda qalmayasan,
yaxşı olar canlıların şahı insanı da,
sehirli suların sultanı şərabı da,
ümidsizlərin son sığınacağı
araq dədəni də,
şah insandan, şah şərabdan
yuxarı qaldırdığın
şahənşah badəni də
taxtından salmayasan.

# KİÇİKLİKLƏRLƏ KİÇİLƏR, BÖYÜKLÜKLƏRLƏ BÖYÜYƏR ÜRƏK

Bir dəli dənizin
bir qırpımından, bir anından keçdim,
böyüdü ürəyim dalğa-dalğa,
böyüdü içimdəki fırtınalar,
ürəyimdə dünya boyda bir dan yeri
doğa-doğa
bir böyük səhərin göyündən keçdim.

Böyük insanların üzünü,
Böyük eşqlərin fırtınasını,
göyüzünü, dənizini daşıdım ürəyimdə,
böyüdü, böyüdü ürəyim,
ürəyim böyüdükcə,
orda hər an, hər an
olduğundan daha böyük oldu hər insan,
hər biri dağla, dənizlə, göylə yarıbayarı,
dünyanı balaca bir qayıqtək atıb tutdu
ürəyimdə böyüyən eşqlərin fırtınaları.

Kiçikliklərlə kiçilər,
lap elə göyüzünün də tavanı,
göyüzünün də dirəyi,
böyük eşqləri, böyük dənizləri,
böyük üzləri daşıdıqca
böyüyər,
böyüdüyü qədər də böyüdər insan ürəyi.

# NİGAR XANIM RƏFİBƏYLİNİN BU DÜNYADAN QALXMASI*

Köçən sonuncu bəy qızıydı bəlkə,
Sonuncu bəy oğlu da köçəcək...
ölür ağalıq,
ancaq ağalıqla ağayanalıq da öləcək

...İnsan öləndə ən gözəl gününün
şəklini aparın tabutunun önündə.
Bəlkə arasında colma-çocuğun,
bəlkə ən dəliqanlı çağının-
tellərini gözü üstdən atdığı,
dünyanın sevgiylə oynatdığı
bir çağın şəklini aparın tabutun önündə,
O gözəl günün dalınca
Yürüsün bütün ömür,
Tənha qalınca
O gözəl günün dalınca
yeriyəcək ölüm də

Anar! Ömür yolunun
bir az qəmli təkrarıdı
qəbristanlığa gedən yol-
göz yaşıyla başlayar,
göz yaşıyla bitər.

Yetər! Artıq yetər!
Ölənin ən çox sevdiyi
bir şən hava çalın,
Bir mən bilirəm, qardaş,
insan göz yaşından oynamağa necə keçir,
bir mən bilirəm, doğulan gündən
ölümü onun göz yaşını içir.

Bir azdan Nigar xanım dünyadan qalxınca
yuxusundan diksinəcək Rəsul,
yanında görməyincə Nigarı,
enəcək çiynini uzaqdan gedən
tabutun altına verməyə:
— Bel bir az başqa cürə dəydi torpağa,
Üzünü görmədim,
orda yatan kimdi, qardaş?

— Bəlkə tanıyarsan,
Xudadat bəyin bircə qızı vardı...

Məzarçı, ay məzarçı,
hara qazmısan bu dünyanı
yerüzündən də, göyüzündən də üzü anrı?!
Belinin sapı sınaydı, ha uçursan qurtarmır,
dünyadan dərin,
dünyadan yuxarı qazmısan bu məzarı.

---

* Hətta bu şeir də Sovet dönəmində senzuradan keçməyib, bir neçə dəfə ixtisarla çar olunub

# ALLAHIN ƏN DÜMDÜZ, ƏN AĞ, ƏN TƏNHA TÜSTÜSÜ

*Sovet dönəmində günahsız güllələnmə cəzası alanlara*

Divarın qoynuna sığınan oğlan,
dua edən çoxdu, Allahsa təkdi,
dua etmə daha, dua oxuma,
bu dualara da kömək gərəkdi,
uçub getmir daha, gücləri çatmır,
elə buralarda qalır dualar,
çatsa da göylərə, göylər aparmır,
Allaha çatmadan ölür dualar.

Divarın qoynuna sığınan oğlan,
bir anda sıçradın, elə o anda
divarın qoynunda görünməz oldun,
bircə təsəllin var, elə o anda
elə göyüzündən səni görməyə
ən iti, ən nurlu gözlər gələcək,
güllənin tətiyi o baxan anda,
onun baxmağıyla bir çəkiləcək.

Dünyadan genimiş divarın qoynu,
divarın qoynuna sığınan oğlan,
divarın qoynunda min illər qaçıb
Allahın qoluna yıxılan oğlan,
Sən indi sönürsən, sönən ocaqsan,
sən artıq tüstüsən, uçub gedirsən,
çatıb ilk mələyə anlayacaqsan,
sən çoxdan yoxmuşsan, çoxdan yoxmuşsan,
yoxmuş üzün, gözün, əzabın, ahın,
sən ancaq ən dümdüz, ən ağ, ən tənha
tüstüsü olmusan bir vaxt Allahın.

## ŞAİR VƏ ŞƏR

Şair dedi şagirdinə:
— Şer deyilən bir dinə
inan ancaq,
həm də bil ən gözəl şeri
sən yox, Allah yazacaq.

Sonra lap yavaşca yenə
söylədi şagirdinə:
— Xəbəri olmur şairin,
Allahın əli dəyir
şairin hər şerinə.

Sonra baxıb min bir yana
dedi şagirdinə yenə:
— Soruşdun, bildin hər şeyi,
yeri, göyü, şeri,
soruşa bilərsən indi
bəs kim yaradıb şəri?!

Şəri kimin yaratdığın
bilə bilmədi şagirdi
yerdəkilər yeraltına,
göydəkilər göyüzünə
geri çağırdı şairi.

# ÖLÜMÜN LƏZZƏTLİ VAXTI

Xeyri yox, ha küs, ha inci,
daha səni adam saymır
bu gülməli dünyanın
nə qəmi, nə sevinci.

Bu gül kolu nədən qəmli?!
Bütün günü
heç danışmaq da istəmir,
ha dur, danış, al könlünü,
Həvəsi yox gülünün də,
İç! Ləzzəti yox şərabın,
Öl! Ləzzəti yox ölümün də.

Deyirəm, elə, adamın
Həyatda olmasa da
ölümdə baxtı olaydı,
adamtək yaşamasa da,
heç olmasa, ölümün
ləzzətli vaxtı öləydi.

## PEYĞƏMBƏRLƏR

Nə dünən, nə bu gün, nə sabah?!
Hər an, hər an
hər insanla danışır Allah,
danışır dünya yaranandan
min illər üzü bəridir,
bunu duyammaz hər insan
duyanlar peyğəmbərlərdir.

# ÇOPUR DAĞ

O dağ, o dağ!
Dünya yaranmamışdan da qabaq
göyüzündə tək-tənha
yaranmış o dağ,
bir də, qardaş, deyinən,
ötüb keçəndən sonra nə fərqi
min illə dünənin
— Odey bax! Zaman
o dağın dalına aşan
bulud kimidi,
Aşdımı?! Aşdı!
Keçdimi?!Keçdi!
Dünən axdı ...
Bu gün də axır ...
Min-min sabahlar da axacaq
O çopur dağın dalına.

Amansız dağdı o dağ
Aman! Aman!
Dibindən sular axır,
üstündən zaman,
sularla zamanın arasından insan,
bir çopurunda sular ilişib qalır,
bir çopurunda zaman,
bir çopurunda insan.

# GÖYÜZÜNÜN O ÜZÜNƏ UÇUŞLAR

Tanrım, Tanrım, İlahi,
Göyüzünün o üzünə kömək ol,
Göyüzünün o üzündə də
Bütün qəmli üzlərin üstdə
Tanrının sevən üzünü qoru



Eheyy! Göyüzünün o üzündəkilər!
Kimsiniz, xəyal, cin, şeytan, sərsəri ruh
ya adam?
Səsiniz gəlsin, təklikdən partlayıram!

*Göyüzünün o üzünə qonub*
*göyüzünün bu üzünü*
*dinləyən varlıq*

## EY TƏNHA RUH, SEVİRƏM SƏNİ

Yeriyəndə quşların ayaqlarından
izlər qalantək yerdə
uçanda qanad izləri qalır göylərdə.

Quşların göylərdəki qanad izlərinə
yalın ayaqlarını qoya-qoya
göyüzündə hər gecəyarı
gəzir, gəzir tənha adamların ruhları.

Qanad izlərinin arasından
izlərə toxunmadan düşür ulduzlar,
düşürlər ruhları incitmədən,
ruhlara qıymadan,
düşərkən qəfil görüb sevdikləri
tənha ruhlardan doymadan:
— Ey tənha ruh, sevirəm səni,
dönəcəyəm, dönəcəyəm,
bir min il də gözlə məni.

Həm də bu dünyada
kiminsə kimisə sevməyinə
ən çox o tənha ruhlar sevinərlər,
həm də, həm də
yer üzündə hamıdan az,
göyüzündə hamıdan çox onlar sevilərlər.

# HƏR İKİ DÜNYADA DA SEVİLMƏDƏN SEVƏCƏKLƏR DƏLİLƏR

Gəldim dünyaya sevgi günü,
gəldim gücləndirdim sevgini,
elə gələn kimi də
ürəklərə verdim ürəyimi,
ürəklərə qatıldı ürəyim,
üzümü qoydum üzlərə,
üzlərə qatıldı üzüm,
şer yazdım,
şerlərə qatıldı şerim,
sevdiklərimi sevdim dönə-dönə
sevgilərə qatıldı sevgim,
hər sevgim döndü bir məzhəbə, bir dinə,
beləcə, dünyaya bu gəlişimdə də
min məzhəbli, min dinli oldum yenə.

Öldüm, ölümüm qatıldı ölümlərə:
— Xoş gördük, canım-gözüm ölülər,
gəldim qatılım ölümünüzə,
bağışlayın, ölümümdən başqa
o dünyadan heç nə gətirmədim sizə,
üzüm üzlərə qatıldı qaldı,
ürəyim ürəklərə,
şerim şerlərə,
ancaq məndən sonra daha çox
ölümsüz olacaqlar ölülər,
hər iki dünyada da
sevilmədən daha çox sevəcək dəlilər.

# ELƏ SEVGİLƏR VAR

Dünyada elə şeylər var
gözlərini yumub görə bilərsən
onları ancaq,

Dünyada elə səslər var
qulaqlarını yumub eşidə bilərsən
onları ancaq,

Dünyada elə sevgilər var
səninlə nəfəs alar,
sənin deyil ancaq,
onlar bir zamanlar,
sən bu dünyada olmayanda da
səninlə bu dünyada yaşayacaq.

## BAŞQA BİR DÜNYANIN VAĞZALINDA GÖRÜŞƏNƏDƏK, ƏLVİDA

Böyük şəhərlərin yanında
Başqa bir şəhər kimidi təyyarə vağzalları.
Bezəndə, darıxanda şəhərdən
Çıxıb gedərəm ən yaxın göyə —
təyyarə vağzalında gecələməyə.
Gərək bağışlasın Bakı şəhəri,
Vağzal göyündən uzağa getməyə
imkanım yox,
Gərək bağışlasın Bakı polisi,
yan qoyub təyyarəçi papağını
ayaqyalın dolaşmaq keçir könlümdən
göyləri.
Mənim ömrüm bütün sevdadı,
Gərək bağışlasın təyyarəçi oğlanlar,
təyyarəçi qızları görəndə
bir daha yenidən sevmək,
yenidən sevilmək keçir könlümdən.
Gərək bağışlasın ünvanım,
Bir qəfil sevdayla göylərdə
itkin düşmək keçir içimdən,
Bir də itkin düşmüş dostlara
rast olmaq istərdim təyyarə vağzallarında.
Görüşüb, öpüşüb,
təzədən itkin düşərdik biri-birimizdən.

Kim bilir bir də nə vaxt görüşərik,
Kim düşər, kim düşməz yada?!
Dostlar!Başqa bir dünya vağzalında
görüşənədək,
Görüşüb təzədən itkin düşənədək, əlvida!

# YANMAYAN İRİ GÖZLÜ ŞAM

Bu burulğanlı gecənin dibiylə
burula-burula gedirəm mən də,
gedirəm yerə, göyə, ulduzlara dəyə-dəyə,
dəydikcə bu dünyada olmayan bir səslə
elə hey çağırıram kimisə,
səsimə bir balaca qız əli
çıxır gecənin içindən ay işığının əli kimi,
elə çıxan kimi də tutur əlimdən
deyir: «Qorxma,
bizim gecə olacaq indicə».
Qorxmuram, qoxusundan tanıyıram
anamın uşaqlıq səsini,
bu gecə doğuldu, dil açdı anam,
nə vaxtsa doğulacaq körpəsinə
«Qorxma» oldu ilk sözü indicə,
beləcə hər gecə cocuq anamın
körpə qız nəfəsinin qoxusutək
doğma gəlir dünya mənə,
tutub əlimdən aparır məni o körpə,
Aparır zamanların,
kainatların arasındakı bir küçəylə
bir kainatdan başqa bir kainata,
aparır əlindəki yanmayan iri gözlü şamı
üzü qabağa, qaranlığa,
bütün kainata tuta-tuta.

# XİLASKAR ƏL

Enə bilmək! Dönə bilmək!
Ya ayağınla, ya başınla
çata bilmək, dəyə bilmək
bu dibsiz gecənin dibinə,
bir körpə quş ürəyitək
bu körpə Şamı qoya bilmək
bu qəlbsiz gecənin qəlbinə.

Sonra elə hey üzmək,
üzən kimi yox, uçurmuştək üzmək,
geriyə üzdüyün qədər də
üzürmüştək uçmaq qabağa,
sola üzdüyün qədər də
üzürmüştək uçmaq sağa,
beləcə, dünyanı ən çox itirdiyin anda
qəfil atıla bilmək
bu dünyadan bir qırağa.

Elə ora atılıb duran anda
qəfil əlində bir əl görmək,
o andan bütün canınla o ələ daşınmaq,
səni dünyaya dartdığını duymadan
tək xilaskarın olduğunu düşünmək,
o əli öpüb, öpüb o ələ dua eləməkçün
hər gecə yenidən bu dünyaya dönmək,
dönüb yenidən
bu qəlbsiz gecənin qəlbinə enmək.

Sonra yenə üzürmüştək uçmaq,
uçurmuştək üzmək sola, sağa,
Sonda o əli əlində görməkçün
bir daha, bir daha
yenidən atılmaq bu dünyadan bir qırağa.

Beləcə, min, milyon illərcə
o ələ sevgilərdən doymamaq,
heç bir zaman o əlin səni geriyə —
dünyaya dartdığını duymamaq.

# GÖYÜZÜNÜN O ÜZÜNƏ OXUYACAĞIM ŞEİR

Bu nə işdi, Allahım, boy atıram,
uşaqlar beşində, onunda boy atantək
mən ömrümün minində boy atıram,
boy atıram,
evin damından çıxır başım, bədənim,
buludlar örtür gözümü,
quşlar sevişə-sevişə
yuva qurur çiyinlərimdə, saçımda,
boy atıram, boy atıram,
ayaqlarımdan da yerə kök atıram,
kök atıram-yerin altına boy atıram,
dolanıram, sarınıram dönə-dönə,
neçə dövrə vururam içəridən bu dünyaya,
təzə-təzə pöhrələrlə
yenidən qalxıram yerüzünə,
mən qalxdıqca təzə-təzə otlar, quşlar,
qarışqalar qalxır məndən,
qalxıram, qalxıram, tuturam göyüzünü
günəş məndən çıxır, yağış məndən yağır.

Boy atıram yenə,
Yenə dayanmıram, boy atıram,
Mən nə olmuşam, nə?!
Anladım, anladım, daha böyümə,
dur, canım,
səndə deyəcəyim, oxuyacağım bir
şeir qalıbmış
göyüzünün o üzünə.

# QONŞU GÖYÜN ADAMI VƏ YA ÖZ AHINDAN ALLAHI QORUYAN ADAM

Hər gecə baxıram göyə,
ən yaxın qonşu həyətdən
çıxırmıştək küçəyə
ən yaxın qonşu ulduzdan
bir kişi çıxır gecəyə,
baxa-baxa bizim göyə
çıxır qəminin külünü
bizim göyə tökməyə.
çıxır beləcə, hər dəfə
çəkib göndərir tüstünü
bir qüllab bizim tərəfə,
bir qüllab da
içində quylanıb qalan
bir ağır aha çatmağa,
onu tüstüdə azdırıb
içindən göyə atmağa,
o ah nəyin ahıdı,
elə ordaca doğulub,
ya elə baxdığı göydən,
ya bizim ulduzdan gəlib?!
Heç özü də bilmir bunu,
o, siqareti sorantək
o ah da içəridən
hey çəkir, sümürür onu,
ah canını sümürdükcə,
yenə siqaret istəyir,
yenə çıxır gecəyə o,
çəkir baxır biz tərəfə,
sanki bizdən nəsə duyur,

baxır nəsə duyur yenə,
yanır sinəsi, kürəyi,
siqaret yox, nəsə başqa
bir şey istəyir ürəyi,
çəkir tüstüyə döndərir
əli çatan hər şeyini,
evini, eşiyini,
ahı tərpənmir yerindən,
çəkir, çəkir binaları,
ağacları, küçələri.
Bir dəli qullab da vurur
lap dərindən, çəkir birdən
bütün dünyanı içəri,
sonra baxır min tərəfə
yeri yerdə,
göyü göydə tapmır o,
baxır, baxır, birdən qorxur,
içindən qışqırır ahı:
— Allahı istəyirəm! Allahı!
Bu dünyanın
ən şirin yuxusutək,
ən ətirli dumanı,
ən ətirli qoxusutək
Allahı istəyirəm.
Min illər, milyon illər
getdiyimi bilmədən
o dumanda, o yuxuda,
getmək, getmək istəyirəm,
itdiyimi bilmədən
itmək, itmək istəyirəm
sonra çatmaq bu dünyanın,
zamanın son sahilinə,
çatmaq, çıxartmaq başını
bu dünyadan bir qırağa —
Allahın bizi buraxıb

bu dünyadan birdəfəlik
baş alıb getdiyi çağa,
bizi neçin atdığını
elə orda —göyüzündə
diz çöküb sormaq Allaha.

Elə o anda o kişi
dözmür, susdurur ahını,
o beləcə heç bir gecə
qıymır böyük Allahına —
gedib Allaha çatmağa
imkan vermir ahına,
qayıdır girir evinə
ahı doymaya-doymaya,
salmaq istəmir Allahı
Allahın min illər öncə
onu saldığı dunyaya.

# GÖYÜMÜZÜN BU BAŞINDAN O BAŞINA

Bu yerişlə, bu duruşla
qarış-qarış hara gedir
bu gedən atlı qarışqa?!

Bu gedən atlı qarışqa
təzə bitən otlardan da,
təzə bitən daşlardan da uca,
nə xəbərimiz var bəlkə o,
min illərdi yol gedən
bu qara daşdan da qoca,
bu qara yoldan da qoca.

Bu dağların göyü quş qanadından,
bu torpağın gözü at nallarından,
çiçəklərin üzü ay işığından,
doymaz, könlüm, doymaz,
Bu gedən atlı qarışqa yollardan doymaz,
kəsər-keçər ömrümüzü,
aylardan doymaz, illərdən doymaz.

Qarış-qarış, tappır-tuppur,
hara gedir bu qarışqa?!
Hər gün yəhəri, cilovu,
ovu, ovsunu bir başqa.

Bu gedən atlı qarışqa,
atı qanadlı qarışqa
dünyanın bu qara daşından
o qara daşına gedir,
göyüzünün bu başından
o başına gedir.

# MİN İLLƏR MƏNDƏ ÜZƏN GƏMİ

Bu dünyadan bezə-bezə,
bir gün də bezib bu candan,
özümü atdım dənizə.
Can nə gəzir boğulmağa?!
Bu can başdan ayağa
qəmmiş, sevincimiş ancaq,
sevincim üzmüş sahilə,
qəmim incimiş ancaq.

Qəmim kəm, dolmayıb, azmış,
bu qəm bu canda az gəzmiş,
day küsməsin, inciməsin,
dursun doyunca gəzməyə,
Bağışla, gec duydum, Tanrım,
bu can deyilmiş, dənizmiş,
bu qəm də sənin gəminmiş —
min illər məndə üzməyə.

# QƏM QƏM ÜSTDƏ ALIR DƏMİ

Qəmə ancaq qəmtək baxma,
qəmtək baxanlar yıxılır,
bir qəm yüzünü yıxır,
qəm əydikcə üzünü —
göz yaşı kipriyini,
kipriyi gözünü yıxır.

Yığıram qəm üstə qəmi,
qəm qəm üstdə alır dəmi,
batırram qəmə qələmi,
qəm qalxır qələmimi,
enir sözümü yıxır.

Dizin-dizin qəm iziylə
ötüşür dizim dizimlə,
qəmim gedir göyüzüylə,
Elə bilir yazıq, elə,
Tanrının əmri, izniylə
Tanrının özünü yıxır.

# ÖLSƏYDİ, İNDİ ÇATDAQ-ÇATDAQDI DÜNYA

*Ən eşqli göyüzünün Səttar Bəhlulzadəsinə*

Gözləri göyüzünün gözündəydi onun,
işıq kimi gəldi, çiçək kimi bitdi,
su kimi çəkildi torpağa getdi.

Gün işığındandı fırçası,
ay işığındandı fırçasının köynəyi, donu,
Bizdən çox istədi, çox sevdi,
Göyüzü çəkib apardı onu,

Çox ölüm, ölüm deyirlər,
Ölsəydi: dünyanın bütün torpaqları
doldurammazdı onun üz qırışlarını,
Ölsəydi, indi çatdaq-çatdaqdı dünya,

Çox ölüm, ölüm deyirlər,
Elə bilirlər ölümə gedir
Hər torpaq altına gedən...

Aldadammaz qara torpaqlar bizi,
Nə tikanı, nə gülüylə, nə yaşılı, nə alıyla.
Biz yarı mələyik, yarı insan, yarı şeytan,
yarı bu dünyadanıq, yarı başqa dünyadan.

Yadındamı, Tanrım, sən sonsuz kədərdin,
biz də kədərin balaları,
bizi bircə-bircə, tək-tək
bu dünyaya qəm dərməyə göndərdin
oynamağa göndərəntək?!

## HEÇ BİR ÖLÜM BƏYƏNMƏDİM

Uddum həm ölüm əzabın,
həm də ölüm nəfəsin,
heç bir ölüm bəyənmədim,
diz çöküm, öpüm qəfəsin.

Ölüm olanda nə olar?!
Bir az gülərüzlü gəlsin,
Kefimizi aça bilsin,
O an ölmək istəməsək,
«qaç» — deyəndə qaça bilsin.

Deyinməyin, ay bəndələr,
bəlkə hələ bilmirsiniz
bəndələr sabahlıq deyil,
çox «Allah, Allah» — da deyib,
Allahın vaxtın almayın,
sizinki Allahlıq deyil.

Mən gözləyən nəsə, ancaq
öl günü gülüb gələcək,
ölümlər yolunu kəssə,
bu dünyada heç bir kəsə
heç bir ölüm qalmayacaq,
hamısın ölüb gələcək.

# HEÇ QALXAN RUHUMU DA GÖRMƏDİZ, GÖYLƏR

Mənim bu dünyada yalnız
sizlərə ümidim vardı,
ha çağırdım, baxmadınız,
mən sizi yoxladım, göylər

Buludlara demədim,
dağlara söyləmədim,
deyinmədim, söymədim,
mən sizə baxmadım, göylər

Siz baxanda çox gecidi,
mən min ildi ölmüşdüm,
elə ruhum qalxanda da
görmədiyizi bilmişdim,
mən sizə qalxmadım, göylər

## HEÇ NƏDƏN YARIŞMADIM, İLAHİ, MƏNİ DÜNYADAN GÖTÜRƏNDƏ ƏZİYYƏT OLMASIN SƏNƏ

Heç kəs xatırlamasın məni,
öləndən sonra
ən xoş xatirə də ağır yükdü
hər qalan insana.

İnsanı torpağa tapşırmaq —
insanı qarışqadan cücüyədək
torpağın üstündəki milyon canlının
                    yaddaşından
altındakı milyon canlının yaddaşına
                    atmaqdı,
bu da insanı bir cürə yaddaşlarda
                    yaşatmaqdı,
basdırmayın, atmayın məni yaddaşlara,
atın məni göyüzünə,
göyüzündən də görünə bilərəm,
atın məni göyüzündən də o yana,
əzab ola bilərəm Tanrının özünə də,
atın məni Tanrının özündən də o yana,
yadından çıxmaq istəyirəm Tanrının da.

Sənin qədər xatırladan,
sənin qədər unutduran yoxdu, Tanrım,
görürəm hər gecə hər şeyi
                    unutdura-unutdura
məntək nə qədər xəstəni, dəli-divanəni
çiynində çıxardırsan sabaha,
bilirəm sənin ən böyük gücün

ölüm, həyat deyil,
güc verməkdi unutmağa, unutdurmağa.

İlahi, kim kimi unuda bilmirsə,
kömək et, unutmağa güc ver ona,
İlahi, məni də sil bütün yaddaşlardan,
sevdiyim bu dupduru suyun,
bu dupduru torpağın ən qara daşının da
yaddaşını xilas elə məndən.

Heç nədən yapışmadım, İlahi, bu dünyada
əziyyət olmasın sənə
məni bu dünyadan geri alanda da,
sil məni bütün yaddaşlardan da,
sonra əziyyət olmasın sənə
yaddaşlardan qaldıranda da.

Hə gözəl, nə rahat, İlahi,bir min il də,
bir milyon il də unutdurdun məni,
indi ancaq sən bilirsən hardayam,
indi hardayamsa ordan sevgilər
üstümə dosttək qonan bu işığa,
bu yağışa, qara,
və məni hər an
heç bir zaman xatırlamayanlara.

# GƏLİM, BÖLÜŞƏK SƏNİNLƏ, MƏNƏ NEÇƏ ÖLÜM DÜŞÜR?!

Hə çox ölüm var canında
Qırılır, ölün düşür,
Gəlim, bölüşək səninlə,
mənə neçə ölüm düşür?!

Göyüzündən ağlanan nur
canımda göllənir durur,
kimsə göyü qarışdırır
durum bir də ölüm, düşür.

Bir səyyaham, ölmək peşəm,
ölümlərdən keçmək nəşəm,
hər ölüm bir göy, bir aşam,
hamısından yolum düşür.

# ÜZÜN SON GÜLÜŞƏ, GÖZÜN SON YAŞA QALIB

— Üzün, gözün körpə-körpə,
dalğa-dalğa, ləpə-ləpə
qırışlarla doludu
— Qırış deyil ki, onlar
gülüşlərin cığırı,
göz yaşının yoludu.
— Axır gülüşün axır,
axır, axır
gülüşün altdan göz yaşı.
— Gülüşün çaydı, axı,
göz yaşın da çay daşı.
— Axır, axır gülüşündən,
göz yaşından işıq axır,
— Çünkü gülüşün, göz yaşın
qarışıb qarışıq axır.
— Bax! Bax! Üzün son gülüşə,
gözün son yaşa qalıb.
— Daha gülmə, ağlama ha!
Gülüşün, göz yaşın ancaq
öləcəyin son günə —
son toya, son yasa qalıb.

## SIÇRAYAR DURA TORPAĞIM

Qəmi eşqə çevirməyə
məni bütöv yola saldın,
dönürəm para, torpağım,
bir param şeirə getdi,
bir param uçmağa, göyə,
bir param yara, torpağım.

Bu daşın, otun altına,
Sən verən adın altına,
çəkdiyin dərdin içindən
çəkdiyin dərdin altına
enirəm, qara torpağım.

Qəbrim pəncərəymiş göyə,
kim gələr açıb örtməyə?!
o anda uçub getməyə
sıçrayar dura torpağım.

# ÇOX ÇƏTİN İŞDİ,
# HƏM DƏ GÜLMƏLİDİ ÖLMƏK

Çox çətin işdi,
Həm də gülməlidi ölmək-
qaçanda çənən güləntək
çənəni haqlayan gərək,
ya bir salxım, ya bir gilə
yetişməmiş göz yaşına
göz verib ağlayan gərək.

Qəlbində itən üzlərin ,
uzun kiprik dənizlərin,
eşqə kəniz xanımların,
həm də xanım kənizlərin
kipriklərin öpə-öpə
gözlərin bağlayan gərək.

Ağlarsan səpilər canın,
Göz yaşı dənlər dörd yanın,
sənsiz qalan,
dənsiz qalan bu dünyanı
gözlərinin gilələrin
sonuncu iki dənitək
yem verib saxlayan gərək.

## YUXUSUZAM, LAYLAM

Mənim də qanadım ol, qara bulud,
məni də qaldır qat yağışına,
nolar, hərdən mənim də yağışımı yağdır
xəlbirindən aşıb daşa-daşa,
mənim də yağışımı tumarla, oxşa,
lap elə ən dərdli adam da xoşallanar,
dəli də ağıllanar tumarlananda.
Nolar, tumarlaya-tumarlaya
hər yağış damlasından
bir körpə günəş çıxart mənə,
qoy böyüsünlər görüm necə böyüyür onlar,
qoy min, milyon günəşim olsun mənim.
Niyə, axı, bu dünyada mənim varım-yoxum
ancaq şerim olsun,
nolar, bu dünyada mənim də hamıdan çox
nəsə bir şeyim olsun.

Mənim də canıma dol,
dağların, dənizlərin canına dolan külək,
mənə də öyrət hər şeyə qanad verib
sevinməyi,
mənə də öyrət ağacların saçında,
boynunda,
xanımların qoynunda gizlənib sevilməyi.

Mənim də laylam ol, layla ana,
bu dünyada hər şeydə sevgi görməyi,
hər şeyini sevgiyə verməyi,
yəni ölümsüz olmağı sən öyrətdin mənə,
ancaq yaman yorğunam, yuxusuzam,
laylam,

min illik, milyon illik sevgiyə
                    çatmaz gücüm,
görünür, hələ də insanam,
            çox yorğunam, yuxusuzam,
başımı qoyub dizinə
min il sonrakı sevgilərə ayılmaqçün
ayılmadan yatmaq istəyirəm yenə.

# İLK SEVGİ ANDI - İLK QANAD ANDI

*Hər gün neçə-neçə lələyi qanada çevirib dünyaya uçurdan Fikriyyə — Aşkiyyə xanıma*

— Səs salma, ay qağayı!
Bax! Bax! Dağ yatır, düz yatır,
dalğa yatır, dəniz yatır,
balıq yatır, yosun yatır,
hərə öz yuxusun yatır,
kim özünə çəkə-çəkə
qucaqlayıb dizin yatır,
kim atıb əl-ayağını
özündən enli, yekə,
özündən uzun yatır.

— Körpələr tapşırıb mənə,
körpə balıqlar, yosunlar,
ləpələr tapşırıb mənə
oxşayıb oyadam gərək
onları bir-bir, tək-tək,
oxşayıb oyadam gərək
yatıb qalan bələkləri,
gözü yumuq qanadları,
gözü yumuq lələkləri.

— Axşam oldu, ay qağayı,
bəs indi niyə belə
Səsin tutub yeri, göyü?!

— Ulduzlar tapşırıb mənə,
axşam oyadıb onları
tez göndərim göyüzünə,

ay özü tapşırıb mənə,
oxşayıb oyadam gərək
ay işığından qurulan
neçə sevgi qəsrini,
neçə eşq qalasını,
bir-birinə qanad açıb
ilk qanad andı içən
neçə aslan balasını,
neçə dovşan balasını.

# ANCAQ TANRI UÇA BİLƏN
# TƏZƏ GÖY AÇAR HƏR TƏZƏ ÇAT

Görürəm, Tanrım, yenə
dünya dönür öz üzünə,
gedir, gedir həm səninlə,
həm də sənsiz, öz-özünə.

Hamı qəmin göndərir sənə,
dərtlər, qəmlər səni üzür,
adamlar bir yana, səndən
xəncərlər, oxlar da küsür.

Hə tez duydun məni, Tanrım,
yenə mənə pay verdiyin,
yenə sinəmə sancdığın,
canımdan boyuna boy,
göyünə də göy açdığın
bu iki oxu da yenə
son göyünəcən uçmağa
iki lələktək verdin mənə.

Payın çatanda sinəmə
bircə an «Tanrım» — deməyə
ən gözəl söz verdin mənə,
bir an açılıb qapanan,
o an ancaq səni görən
iki kor yara, —
iki kor göz verdin mənə.

Göztək açılıb qapanan
Ürəyimdəki çatlardan da
səni görməkçün bir daha
bir min il də, milyon il də

ürəyimin divarları
yetər mənə, çatar mənə.

Hər çat məndə budaqlayar,
canımdan sənə pay açar,
göyüzündən də o yana
sənin sonsuz sükutuna
ancaq Tanrı uça bilən
təzə yol açar, göy açar.

# BAŞQA YERƏ ƏRƏ GETMƏK İSTƏMƏYƏN TƏRS, TƏNHA, SULTAN BACILAR

Hər il göyüzünün axan yerində,
göyün yaşıla dönənində,
bir də qayıtmayacaq
ceyranları, cüyürləri gözləyir
qız qamətli otlar.

Ulduzları otlayıb keçir,
zamanı adlayıb keçir,
gəlin hörüklü atlar,
dəmir körüklü dəvələr,
zamanı adladıqca
qanadlı atlar ancaq dəvələri,
qanadlı dəvələr atları sevərlər.

Dolaşır tikanlara otlar
Bir daha açılmayacaqtək,
yaşıllardan yaşıl,
ipəklərdən ipək.

Nizələri hazır tikanlar
dayanıb yan-yana
illərlə quruyurlar,
qısqanc qardaşlartək qoruyurlar
başqa yerı ərə getmək istəməyən
tərs, tənha otları —
tərs, tənha bacıları,
yurdun ən məğrur sultanları,
ən uca tacları.

## TANRININ SƏSİ

Qoşulub dağlara oxuyurdu o,
dağlar ulduzları eşidirdi ancaq,
qoşulub ulduzlara oxuyurdu o,
ulduzlar göyüzünün sonsuzluğunu
eşidirdi ancaq,
qoşulub sonsuzluğa oxuyurdu o,
Sonsuzluq
Tanrının səsini eşidirdi ancaq,
Özü də bilmədən
Qoşulub Tanrıya oxuyurdu o,
Özü eşidirdi özünün səsini,
Tanrının səsi bilirdi ancaq.

## SON DOSTUMA –DÜNYANIN ƏN QOCA GÖZ YAŞINA

Bir bu göz yaşı qalmışdı
axır ki, qaçıb, qaçıb
keçdin son göz yaşını sən,
təbrik, daha qəmin yox,
daha bütün qəmlərin
dostusan, tanışısan.

Daha nə qəm var aşmağa,
nə də həvəs danışmağa,
bəlkə bir də
dünya dönə danışasan,
lap elə dünya dönsə də
hamı hər şeyi bilir,
kimə nə danışasan?!

Canın da yox yorulmağa?!
Canın yoxsa,
canı hardan aldın bəs,
canı bədəndən atmağa?!
Deyən, gözün də yumulmur,
yuxun yoxdu, heç olmasa,
bir şirincə
ölümün varmı yatmağa?!

Canın yoxsa, söylə necə
min illərdi qaça-qaça
canımdakı, gözümdəki
qırışları aşırsan,
day qoca fəndi qaç, qoca,
xəbərin yox, bu dünyanın
ən qoca göz yaşısan.

## EŞQ HƏR ŞEYİ ÜSTƏLƏDİ

Yenə qəlbim tüstülədi,
eşq hər şeyi üstələdi,
yenə göy məni istədi, —
qəlbindən bir Şam göndərdi,
uçdu, endi,
qondu mənə Şamım yenə,
özü qalxdı bir qanadla,
o birini verdi mənə.

Mən də uçdum tək qanadla,
uçub tək qanadı oldum
eşqdən dəli bir axşamın,
Mən sənə çata bilməzdim,
Xaqanım, Sultanım, Şahım,
qanadımı tutdum oda,
canımı tutdum eşqə,
yanıb sənə çatdım, Şamım.

# SEVSƏN, SEVƏNƏ DƏYMƏZSƏN, QARA TORPAQ

Sevsən, sevənə dəyməzsən, qara torpaq,
sevginən sevginə dönüm,
bir də qoynuna girmərəm,
sən gəl gir qoynuma mənim.

Qara qız ol, qara torpaq,
ol, dəlin olum sənin,
Gir qoynuma, tək məni sev,
Son sevgilin,
Son ölün olum sənin.

Gir qoynuma, dol canıma,
Tapmasın heç bir ölkə,
Heç bir məzhəb, din səni,
Gecə-gündüz öpə-öpə,
Sən cucərdən güldən gözəl
Canımdan cücərdim səni.

Bir də tökülmə gözümə,
Tökülmə üstümə bir də,
qara gız ol, qara torpaq,
ol, elə sevim ki, səni
heç kimi istəmə bir də.

# BİR MİN İL DƏ KEÇDİ SƏNİ GÖRƏCƏYİMDƏN

Bir min il də keçdi səni görəcəyimdən
kipriyimi qaldırıb sənə baxmaq
istəyəcəyimdən,
ancaq qaldıra bilməyəcəyimdən
min il də keçdi,
İlahi, nə az çəkdi
gözlərimizin bircə an bir-birinə
baxmağı nədi,
heç bircə kipriyin bircəcə an qalxmağına da
çatmadı bu min il də, çatmadı, İlahi.

Bir min il də keçdi ölümümüzdən,
Şükür, nə ölüm qıydı bizə,
nə cücülər, ilanlar gözlərimizə,
Şükür, bu min il də bir an bulanmadı
bu qara torpaq da, bu qara daş da,
bu min ili də göz yaşı kimi
dupduru durdular aramızda.
Bu min il də hamının gözləri yumulu,
bu dünyanın sonunacan
kipriklərinin altında gözləri açıqlar
sevdiklərinə baxa bilməyən aşiqlərdi,
aşiqlər.

Bir min il də keçdi səni görəcəyimdən,
bu dupduru daşın altından
eyni anda, eyni göyüzünə baxmağımıza da,
baxışlarımızın orda tapışmağına da,
elə tapışan anda da sevginin şiddətindən
gözlərimizin bir min il də qapanmağına
çatmadı, İlahi, çatmadı bu min il də.

## QƏLƏM

Qərib olmasaydım bu dünyada,
bir də qələm almazdım əlimə.

Qəmli olmasaydım
bir də qələm almazdım əlimə.

Bir də qələm almasaydım əlimə
qəmli, qərib olmazdım.

Atam qələm! Anam qələm!
Ulduzları göyüzündə saxlayan sirr kimi
Səndə nəsə bir sirr var —
bizi hər şeyə qərib,
hər şeyə doğma eləmisən.

Bu yıxılan qədəhtək
ayıla bilmirəm səndən



## *SEVİŞƏK, İTƏK BİR-BİRİMİZDƏ*



Qəmin dibinə düşmə,
Onsuz da balacasan,
büzüşmə, balaca qadın, büzüşmə.
Heç soruşma da günah nədir?
Günah — sevgini öldürməyə bir bəhanədir

## DEYƏN, LAP ÇOX SEVİŞDİK

Bu qədər sevgimi olar?!
Deyən, lap çox sevişdik,
bəsdi, ayrılaq səninlə,
daha hərə özu olsun,
sıyrıl, sıyrılaq səninlə.

Min ildi bir olduğumuz,
dünyadan ayrıldığımız
bəsdi, bir sayıldığımız
iki sayılaq səninlə.

Tanrımız göndərən kimi
bir can iki bədən kimi,
bir pis yuxu görən kimi
birdən ayılaq səninlə.

Ayılaq görək yuxudan
Ayrıdı bu can o candan,
qaçıb, qucub qoxlaşan an
bir də bayılaq səninlə.

## SEVDİM, MƏNİ BAĞIŞLA

Mənə belə baxma, xanım,
nəfəsim itir canımda,
nəfəsdən sərxoş oluram,
gözlər alır,
kipriklər salır qəfəsə,
qəfəsdən sərxoş oluram.

Mənim sevgim də qəribə —
hey öz-özümə gülürəm,
sevdim, məni bağışla,
heç nə bacarmıram başqa
mən ancaq sevə bilirəm.

Bir daha bax, gizlət məni,
qəfəsində yox elə,
mən azadlıq istəmirəm,
qəfəsinin millərini
kipriyindən də sıx elə.

Sıx, mil milə yapışana,
mil millə öpüşənə,
bir nəfəs alana qədər!
Həfəsin millərə verib
min illər nəfəssiz uçan
bu candan sənə sevgilər!

## BİRCƏ-BİRCƏ ÖPƏN KİMİ SAÇININ HƏR TELİNİ

Bal saçlım!
Bircə-bircə öpən kimi
saçının hər telini
o an o teli bir daha
öpmək istəyirəm yenə,
öpə-öpə
hər telinin altında
hər telinçün bir ayrıca
ölmək istəyirəm yenə.

Elə pıçıldayan kimi
sevgimi dönə-dönə
saçının hər telinə,
pıçıldamaq istəyirəm
elə o andaca yenə,
pıçıldamaq istəyirəm,
heç nəfəs almadan da,
heç nəfəsə qıymadan da,
adının şirinliyindən
bir-birinə yapışan
dodaqlarım duymadan da.

Beləcə, bu sevgini
ya qışqırıb yerə, göyə,
ya da duatək səssizcə,
sakitcə söyləməyə
nə sözün sonu çatacaq,
nə göyün eni, uzunu,
nə sevginin min ilini
bir an etdiyiyçün ancaq
Allaha dua etməyə
bir anlıq vaxt qalacaq.

## BU YIXILAN QƏDƏHTƏK AYILA BİLMİRƏM SƏNDƏN

Narım, gilənarım,
Can eşqlə,
Qədəh şərabla,
pətək balla dolantək
dopdoluyam səninlə.

Mən səninlə sərxoşam,
Dopdoluyam səninlə,
aşıb daşırsan məndən,
məni də alıb axırsan.

Eşq eşqlə yetər sona
sərxoşluq sərxoşluqla,
durmadan içirəm, yenə
bu yıxılan qədəhtək
ayıla bilmirəm səndən
sən ayılmaz yuxusan.

## SƏNİ PƏLƏNG CƏNGƏLLİYİ, CƏNGƏLLİK PƏLƏNGİ YAŞADANTƏK YAŞAYIRAM, NARIM, GİLƏNARIM

Mən səni sevmirəm, səni sevmək azdı,
mən səni pələng cəngəlliyə,
cəngəllik pələngə yaraşantək,
pələng cəngəlliyi,
cəngəllik pələngi yaşadantək
yaşayıram, narım, gilənarım.

Sən baxma uzağa,
gözlərin yorular,
qoy mən baxım,
sən qəm çəkmə, darıxma,
qoy sənin əvəzinə də
mən qəm şəkim, darıxım.
Sən heç sevmə də,
sevgi sənə ağır olar,
bir gün dünya qarışar, heç bilinməz
sevən kim, sevməyən kim,
onda hamı günahkar, hamı hakim.

Bu dünyada hər şey —
bütün dağlar, düzlər, dərələr,
bütün güllər, çiçəklər,
ancaq məndən sonra biləcəklər
bu dünyada necə seviblər,
həm də bu qədər sevgiylə
dünyanı necə tərk ediblər,
bu dünyanın göyüzündəki qapısını da
necə sevgiylə qapayıb,
üstünə eşq şəkli çəkib gediblər.

# DÜNYA TƏHLÜKƏDƏ - DÜNYANIN ALTDA CANINA DÜNYACAN KÖZ DÜŞƏN ADAM

Sevişdik, sevişəli
Yanıldım, ucuz oldun,
Nə yalançı qız oldun,
Hər gün yalan deyirsən,
Mən öpəndən qalmadı
Bu günkü şirinliyin,
Daha şirin deyilsən,

Bildim, bildim ondan çox,
sevirdim bəndəsini,
Allah bağışlamadı məni,

Burda bir adam donub dayanıb,
Sən tanımırsan,
son günü ötəndə onun yanından
sən yenə deyirdin, mən son tanrınam,
tez ötüb keçməyə tələsdi adam,
tanıyırdım onu,
ən qiymətli şeyi sonuncu ahı,
bəxtdən danışanda tez coşandı o,
soyuyub Allahı, sönüb Allahı,
içinə hönkürüb qızışandı o,
ən uca göylərə ayağı dəyən,
ayı gecə-gündüz izləyən adam,
ölüb gedənlərə uğur diləyən,
batmış gəmiləri gözləyən adam,

Səni tapan gündən görmürdüm onu,
Səni itirən an çıxdı qarşıma,

o indi, yenə də
dərdi böyüdükcə büzüşən adam,
dünya soyuduqca, söndükcə ona
canına dünyacan köz düşən adam!

Dünya bir tank kimi keçir üstündən,
Heç özü də bilmir
O hansı dünyada, hansı ölkədə?!
Kim O? Bir zamanlar xoşbəxt, şən adam?!
Dünya təhlükədə —
dünya tank kimi!
Dünyanın altda
canına dünyacan köz düşən adam!

# ONSUZ DA BALACASAN, BÜZÜŞMƏ, BALACA QADIN

Qəmin üzündəsən hələ,
Qəmin dibinə düşmə.
Büzüşmə, balaca qadın,
onsuz da balacasan, büzüşmə!

Balaca bəlalar qoruyur
böyük bəlalardan yeri, göyü,
Bilmirəm nədəndi ancaq
balaca qadınlara düşür həmişə
bəlaların ən böyüyü.

Balaca bir qadın yaşar
bir uzaq yalanımda,
hara getsəm, neyləsəm,
yenə günahkaram yanında.

Nə deyim illərə?! Yəqin indi
üzünü illər naxışlayıb,
rast olsaq qəfil
baxışları qoymaz «Bağışla» deməyə,
heç özü də bilməz niyə,
Bəlkə də öz-özünə deyər:
— Günah nədi?!

Mən də bilmirəm. Bəlkə də günah
sevgini öldürməyə bir bəhanədi.
İnsafın olsun, qəmin dibinə düşmə,
Büzüşmə, balaca qadın,
onsuz da balacasan, büzüşmə!

# NƏ QƏDƏR AŞİQİ OXUTMADILAR

Bir eşqli gecə var, keçilməz, könül,
durub qəm çəkincə, get, ara, barı,
düzülüb gecəyə qəmli gözləri
ərköyün, ağlağan gitaraların.

Adamlar isnişər biri-birinə,
Könüllər tək qalmaz, nəğmələr yalqız,
yerdə də, göydə də hər şey sevişər,
bir gitara oğlan, bir gitara qız.

Hər sevgi sözünə bir çıraq yanar,
Nəğmələr söndükcə sönər çıraqlar.
Hər nəğmə içindən ayrılıqlara
Saçları dağınıq bir gözəl çıxar.
O an hər nəğmədən bir dəli oğlan
qaçar bir ünvansız qatara kimi
Alıb küləklərdən bir qız telini
Basar sinəsinə gitara kimi:
— Göz yumub açınca keçər bu dünya,
Göz yumub açınca keçər bu gecə,
Hər şey, hər şey göz yumub açınca!
Göz yumub açınca mən səni sevdim,
Göz yumub açınca səni unutdum,
qapama, qapama kipriklərini
göz yumub açınca bitəcək dünya,
əl-ələ, göz-gözə durmasaq bu an
canımdan sürüşüb itəcək dünya.

Tanrım, nə tez bitdi! İlahi, nə tez!
Qurtardı son inad, sonuncu tövbə,
Göz yumub açınca keçdi bu dünya,
Nə qədər aşiqi oxutmadılar,
Nə qədər qəribə çatmadı növbə.

# NƏ YAXŞI TANIŞ OLMADIQ ONDA

Nə yaxşı tanış olmadıq onda,
Tanış olub sevişmədik nə yaxşı,
Nə yaxşı sevişib, sevişib
sevgidən ölüb bu dünyada
sevgi andı, sevgi Allahı olmadıq
dosta, yada.

Nə yaxşı səninlə onda
Heç baxmadan keçib getdik,
Nə mən dindim, nə sən dindin,
Nə yaxşı gül aparmıram sənə indi,
Nə yaxşı sevgi üçün ölən bu gül
sənin gülün deyil,
Nə yaxşı əlimdə sevilən bu əl
Sənin əlin deyil.

Nə yaxşı görüşməyəcəyik bu dünyada,
Görüşməyəcəyik heç dünyanın sonunda da,
Heç Allahın yanında da.
Nə yaxşı düşməyəcəyik heç Allahın
yadına da,
yadına düşüb Allahın sevgili qızı,
sevgili oğlu olmayacağıq nə yaxşı,
Heç zaman heç yerdə heç bir şəkildə
bir-birimizçün bir də
doğulmayacağıq nə yaxşı.

## QÖNÇƏ QADIN BARMAQLARIYLA YANDIRILMIŞ QÖNÇƏ ŞAM

Qönçə qadın barmaqlarıyla
yandırılmış qönçə şam sevmək istəyir.
Sevmək istəyir pərvanəni yox,
onu titrədən küləyi də yox,
Onlar çox doğmadılar,
Allah, inciməsinlər, onları yox, bir az yadı,
bir az uzağı sevmək istəyir könül.

Külək deyil, meh deyil onu titrədən,
Ürəyindən uçan qönçə ahı
Sevgitək titrədir, titrədir onu, Allahı,
Bir az uzaqda sevilmək istəyən
kim var, axı?!
Onu sevmək istəyir bu qönçə şam,
Bir sevgi yetir ona, Allahı,
heç olmasa üç şam işığı o yana bir sevgi,
beş şam işığı bu yana bir sevgi.

Qəmli-qəmli yanır qönçə şam,
yanır qəm çəkdiyini bilmədən özü,
alovundan deyil, çəkdiyi qəmdən
işıqlanır, işıqlanır dünyanın üzü.

Qönçə qadın barmaqlarıyla
Yandırılmış qönçə şam
Son anında, son alovunda
O barmaqları sevdiyini
anlayacaq bu axşam.

# YIXILMAMISANSA AY İŞIĞININ ÜSTÜNƏ

Qoy öldüyümüz yerdə ölək,
dirildiyimiz yerdə dirilək,
yan keç, qardaş, yan keç görək,
Ömründə bircə kərə
yıxılmamısansa ay işığının üstünə
eşq xəncəri üstünə yıxılantək,
Xoş getdin gecəmizdən!

Qoy öz küçəmizə, öz gecəmizə yıxılaq,
yıxılaq ayaqlarımızın eşq dilədiyi,
dizlərimizin dua elədiyi yerə,
əllərimizin qandallandığı,
qollarımızın qanadlandığı yerə.

Bir adam ömründə bircə kərə
yıxılmayıbsa eşqinin küçəsinə,
ürəyinin izlərinə sürtməyibsə üzün, gözün,
o izin üstüylə sürünməyibsə dizin-dizin,
nə deyə bilər axı, o, eşq haqda?!

Keçin! Toxunmayın! Qaldırmayın o adamı,
qaldırsanız endirərsiz,
qoyun heç olmasa bir yüz il də
uzansın öz sevgisinin göyüzündə.

# DÜNYANIN SONUNA NÖQTƏ QOYA BİLMİR TANRI

Gecə saat 25:00
qısılıb göyüzünün bir küncünə
pıçıldaşır iki sevgili yenə.

Gecə saat 125:00
pıçıltı gəlir hələ də kainatdan,
artıq söz yox, ancaq pıçıltı var.

Gecə saat 1250000....
Bu necə gecədi sonsuz?
Zaman da yatıb,
günəş də yatıb qalıb,
çoxdan, lap çoxdan susub qalıb
min illərdi bir-biriylə danışan
sevgililərin baş daşları da.
Az qalıb bu dünyanın sonuna,
pıçıltı gəlir kainatdan yenə,
danışır hələ də
Tanrının ətəyinə qısılıb sevişən səslər.

Nöqtə qoyub bu dünyanın son gününə
təzə dünyanı başlamaqçün
min ildi, milyon ildi qalxa bilmir Tanrı,
baxır, qıymır,
qalxsa sürüşüb düşə bilər
ətəyinə qısılıb sevişən səslər.

# YALQIZLIQ, YALQUZAQLIQ SEVGİ KİMİ

Ən çox kim sevgi kimi?!
Ən çox kim yalqız bu dünyada?!
Ən çox kim bənzər yalquzağa?!

Hər gün sevgi günü!
Sevgi günü yaşamaq boş şey!
Sevgi günü sevgiylə can vermək,
birdən-birə vurulantək birdən-birə ölmək!

Heç vaxt bu dünyada olmayan, olmayacaq,
qanadlı yalquzaq bir daxma var,
ulduzların arasından tutub uçurdun
mənə sarı,
sizin olar dirək-dirək göyüzünün
iri gözlü, uzun kiprikli ulduzları.

Uçurdun mənə sarı yalquzaq Eşq dağını da,
yaxasında son eşqli daxma,
o daxmanın içində dünyanın ən doğma üzü,
ən doğma səsi,
ancaq qoymayın o daxmanı, o üzü, o səsi
göyüzündə dizin-dizin yüyürüb
məni qucaqlamağa,
utanıram doğmalıqdan,
ən çox da sözün, səsin, üzün doğmasından.

O daxmanı uçurdun mənə sarı,
elə-belə uzaqdan baxmağa,
bu dünyada doğma nə var hamısına
baxıb uzaqdan-uzağa

torpaq sünbül bağlayantək
göz yaşı bağlamağa.

Ən çox kim xıncım-xıncım, dağım-dağım?
Ən çox o tək, tənha, yalqız bu dünyada!
Ən çox o bənzər yalquzağa!
Ən çox o sevgi kimi!

# ANCAQ ALLAH SEVƏR SƏN DEYƏNTƏK

Səni sevən tale kimi
Səni candan ata bilməz,
səni sevən vətən bilməz
ana bilməz, ata bilməz.

Səni sevmək təhlükəli,
Səni sevib, sevib təkcə,
Yaşamaq da mümkün deyil
Səni sevib ölmədikcə.

Bəlkə bir gün, bəlkə min il
Sevgiyə azadlıq gərək,
Heç dəlilər də azad deyil
Sən azad olduğuntək.

İnsan sevməz min illərcə,
İnsan bu gün, sabah sevər,
Sən istəyən, sən deyəntək
Ancaq, ancaq Allah sevər.

## ÖPÜRƏM TELİNDƏN, EY ÜÇ KƏLMƏ SÖZ

Yatar, yuxusunda bir gənc dənizçi
durmadan elə hey kiməsə deyər:
-Unutma! Unutma! Unutma məni!
Bəlkə göyə deyər, bəlkə ulduza,
bəlkə bir ölkəyə, bəlkə bir qıza,
bəlkə bir ağaca, hardan biləsən?!

Yumdum gözlərimi, nə sirdi, Tanrım,
o dəniz də mənəm, o dənizçi də.
Gah dəniz oluram, gah da dənizçi,
gah qayıq oluram, gah da qayıqçı,
gah balıq oluram, gah da balıqçı.

Məni udur illər, unudur illər,
ayrılıq dayanır hər udacaqda.
İstər nəğmə söylə, istəsən şeir,
xeyri yoxdu, canım, kimin alnına
unutmaq yazılıb, unudacaq da.

Unudub gedirəm dünyada nə var,
hər şey də, hər kəs də məni unudar,
Səni and verirəm o lal dilinə,
ey göy titrəməsi-ey ilk məhəbbət,
bircə sən, təkcə sən unutma məni.

Cavabın «hə» olsun, ya da «yox» olsun
lap cavabsız olsun, lap əzab olsun,
öpürəm telindən, ey üç kəlmə söz-
mən səni sevirəm.
Heç zaman, heç yerdə unutma məni,

dilimin sehirli o üç kəlməsi-
mən səni sevirəm, unutma məni.

Kimin əlləridi səssiz-səmirsiz
arxadan yumşaqca yumur gözümü:
-Deyən tanımadın? Mənəm, həmən qız!
Çox gözlətdim səni, qurbanın olum.
-Lap sevgi də olsan, ölüm də olsan,
sən çox tez gəlmisən, qayıt geriyə,
mən hələ sevgidən çox az dəliyəm,
səni tam dəlitək sevməyim üçün
mən hələ min il də gözləməliyəm.

# DÖN BƏRİ BAX YERİ

Xan ceyranın qaçışında,
Ən şəhanə uçuşunda,
ya alnında, ya döşündə
bir ox yeri var, yeri var.

Qalmısan şahlıq atında,
Göyün yeddinci qatında,
Hər bəyaz telin altında
bir ah yeri var, yeri var.

Ən kimsəsiz küçə sənin,
Küçə sənin, gecə mənim.
Sən bağlayan pəncərənin
bir dön bəri bax yeri var.

## NARİNGİ GECƏSİ

Bir gecəyarı
yolda getdiyin yerdə
özündən asılı olmadan
qəfil başını qaldırıb
baxırsan bir pəncərəyə,
içəridə yarıqaranlıqda
bədənindən qaranlığı soyunan
bir qadının
pəncərəyə düşən kölgəsindən
onun gözəlliyini duyursan,
Gözlərin
o qadınının gözəlliyini,
buluddan çıxan bədənini,
pəncərədəki sərxoş pərdədən,
sərxoş qaranlıqdan ayırantək
eləcə bir eşqlə
indi oturub
naringini ayırırsan qabığından.

# QONŞU TOYUNA ON HASAR O YANA OYNAYAN UŞAQ

Qonşu toyuna
on hasar o yana
oynayan uşaq,
gül yarpağı altında,
gül yarpağı şəklində
yazılır alın yazın.

Qonşu toyuna
on hasar o yana
oynayan uşaq,
çıx yarpaq altından,
ay baxır sənə, ay baxır sənə.

Təzəcə yağışdan çıxmış göyüzü,
Göyüzündən heç nə
keçməyib hələ,
hələ gunahkarlar göyə üz tutub
and içməyib hələ,
çıx yarpaq altından yenə,
ay baxır sənə, ay baxır sənə.

Yağışdan təzəcə çıxmış
göyüzü kimisən sən də,
qonşu toyuna
on hasar o yana
oynayan uşaq,
Odu bax! Odu bax!
Baxıb sənin oynuna
göyüzündə qol açıb
oynayırlar mələklər
on göyüzü o yana.

Dahilik ruhi hadisədir, ağıldan yox, ruhdan gəlir. İlahi hamını dahi yaradır. Milyonlar Allahın onları nə üçün yaratdığını duymur. Dahilər Allahın onları nə üçün yaratdığını duyanlar, İlahinin onlarçün ayırdığı İlahi yolu tapıb gedənlərdir.



***İNDƏN BELƏ AĞLAMA, UÇ,***



Heç olmasa yaxşı insan ol.
Yaxşı insan olmaq da bir dahilikdi.

# UMUDUMUN ŞƏHƏRİ

Göyüzünün qatlarıynan,
Başının bulutlarıynan,
Boşuna umutlarıynan
Üstümə dağlar yüyürür.
Dağlar, yıxaram sizi!

Dağlarda sular dirilir,
Sular yüyürür, yüyürür.
Bir burulğan dibində
Mənim halım sorulur.
Buruq-buruq gələn çaylar!
Çaylar! Yıxaram sizi!

Tozu qarışıb dumanına,
dumanı dolub başıma,
bir az da gümanıma.
Qıvrım-qıvrım gələn yollar,
Yollar! Yıxaram sizi!

Dağın olum, daşın olum,
umudumun şəhəri,
baş qoyum küçənə,
sərxoşun olum,
baxım altdan— altdan ötüb keçənə.
Mənim ol! Umudumun şəhəri!
Yıxaram səni!

## QƏRİBİK, ŞAİRİM, QƏRİBİK, SÖZÜM

Şairlər qəribdi bu yerüzündə
Küçədə, bayırda, evdə, eşikdə,
Meşənin içində, çölün düzündə
Oğul, qız yanında, ata yanında.

Qəribik, şairim, qəribik, sözüm,
min illər sonra da ayrılıq yenə,
qəmli axşamlartək enər göylərdən
şairin qəbrinə, sözün qəlbinə.

Qəribik, şairim, qəribik, sözüm,
qəriblik əksilmir gözlərimizdən,
dünya doğma gəlmir gözlərimizə,
qəmi yığmaq olmur sözlərimizdən.

Keçib gəldiyi
Göyüzü kimidi şairin üzü-
işığı saralar, buludu keçər...
Hər gün könlümüzdən, ürəyimizdən
göyüzünə dönmək umudu keçər.

# İNDƏN BELƏ AĞLAMA, UÇ!

İndən belə ağlama, uç,
yox olanlar vardı uçdu,
bu dünyanın dərdin çəkmə,
bu dünyanın dərdi uçdu.

Bu dünyadan dünya çıxmaz,
Umuduna umud çox az,
Ancaq umud dərən baxmaz,
dərdi onu dərdi, uçdu.

Əlindədi sonum, ucum,
qanadlandım sənə uçum,
bu dünya tək sənin üçün
gül dərdiyim yerdi, uçdu.

## YENİSEY ŞEİRLƏRİNDƏN
## YENİSEY-ANA SU

Ana yanında ölməkdi
dünyanın ən gözəl ölümü,
Ölüm də qorxulu gəlməz adama,
qara torpaqlar altına getmək də
ana yanında.

Bu çayı görüncə
ölüm günüm qədər
əziz gəldi mənə bu gün.
Heç kimi istəmirəm,
gözümdən iki damla yaşı silirmiş kimi
bu gün anam qapasın gözlərimi.

Dünyanın ən gözəl yuxusunu
bir daha ayılmadan
sənin qoynunda yatmağım gəldi,
Yenisey, Ana Su.

## ŞEİR ANDDI

Şeir— anddı mənimçün.
Şeir yazmaq-and içmək,
and içib
göydə ulduzuna,
yerdə şeirinə çəkilir hər şair-
yurdunu qoruyan əsgər
qılıncına and içib
ölümünə çəkiləntək.

## ANALAR DOĞMUR ŞAİRLƏRİ

Ancaq, ancaq
göyüzünün dar ağacından
doğulur şairlər.
Əzablar, qəmlər doğmur,
Qılınclar, qələmlər doğmur şairləri...

Ömrü boyu o dar ağacı altında
Yaşayır, yazır şair,
Qəfil sevğiyə hazır olantək
Hər an qəfil ölümə hazır şair.

Hara gedirsə getsin,
gedir başı üstündə
dar ağacı şəklində mavi göyüzü,
yaza-yaza boynundakı
görünməyən mavi kəndiri
hər gün bir az, bir az
dartır, dartır şairin özü.

Kim bilir bəlkə də
heç yerli-dibli yoxdu dar ağacı,
Kəndir Tanrı sevgisitək
göyüzündən uzanır,
Tanrının əlindədi
kəndirin son ucu.

## BÜRCÜ-BÜRCÜ

Araz axar bircə-bircə,
Ölər diricə-diricə,
A bürcü-bürcü-bürcü!

A bürcü-bürcü-bürcü!
Yurdum bir ah çəkəndə
Dağları bürcü-bürcü!
Göyləri tuncu-tuncu!

Bu dağlar yan üzündən,
Alışar yan üzündən,
Yurdum bir ah çəkəndə
Göy atlar göydən gələr,
Ağ atlar dan üzündən.

Qılınc qayadan çıxar,
Qının oyadar çıxar,
Vətən «Atlan!» deyəndə
Qırat dəryadan çıxar.

A bürcü-bürcü-bürcü!
Vətən dara düşəndə,
Qırılanda dağları,
Qırılanda qılıncı
Göyə qalxıb ulayar
Analar bürcü-bürcü!

# HAMIDAN QABAQ

Hamıdan qabaq şairlər görür
 yazağzı balaca yaşıl otlar
necə qaldırır torpağı, daşı.
Hamıdan qabaq yağışın, sözün adından
şairlər əyilib öpür
dağı, daşı yarıb çıxan
balaca otların alnından.

Baxıb güllərə, çiçəklərə,
arılara, kəpənəklərə
Hamıdan qabaq şairlər deyir:
—Arıya, kəpənəyə yaxşı bax, atam,
yaşatmağı bacarmalıdı
                        yaşamaq istəyən adam.

İllərtək sıralanan dağlara baxantək
şairlər baxırlar gələn illərə,
Baxıb görürlər illərin ətəyində
İndi hamıdan çox gülür bir adam,
xəbəri yoxdu yazığın ancaq,
illərin o üzündə hamıdan çox ağlayacaq.

Hamıdan qabaq şairlər görər,
hamıdan qabaq şairlər deyər,
hamıdan qabaq şairlər ölər.
Dəyər, şeirim, dəyər, şairim,
hamıdan qabaq görməyin,
gördüyünü deməyin xətrinə
hamıdan qabaq ölməyə dəyər.

# TƏBRİK! MƏN DƏ UCALDIM

Göyün durulu, dağlar,
Yolun dirili, dağlar.
Bir qəm sən sök, bir qəm mən,
Qəmin hörülü, dağlar.

Hərə bir dərd gətirir,
Təbrik! Təbrik!
Birin yüz olur, dağlar.
Dərdini borc ver mənə,
dərdim azalır, dağlar.

Borc aldım ölümü də,
Öldüm güc aldım, dağlar,
Ruhum qalxdı göylərə,
Təbrik! Təbrik!
Mən də ucaldım, dağlar.

## GÜLLÜ XƏNCƏR

*Qanadlı Afaq Məsuda*

Məni görən dərd balalar,
Beşi, onu, mini keçər,
Tezcə baxaram üzünə,
nə dərdi var mənə keçər.

Dərdi keçər, getməz yenə,
Göz qırpmadan durub baxar,
bir əlindən xəncər çıxar,
bir əlindən gülü baxar.

Güc yığar xəncərli əli,
dayanmaz ahu-zarıma.
xəncərin vurar sinəmə,
gülün qoyar məzarıma.

Elə bilər məndən gəlir,
Məndədi bütün dərdləri,
Bir daha vurar xəncəri,
Elə vurar, elə bilər
Öldürür bütün dərdləri.

Hərə bir təhər öldürər,
Kəsər iliyimdən məni.
Kim sevdiyindən öldürər,
Kim dəliliyindən məni.

Yenə sağ olsun hər biri
Seçər gülün ətirlisin,
Çox əziyyət verməz mənə,
Seçər xəncərin itisin.

Ölüm hər təzə gələnin
ağzında təzə dad olar,
Xəncər vurar, gülün qoyar,
Əlləri də rahat olar.

Gələr təzə vətən oğlu,
qəbrimdən qalxıb baxaram,
yenə bir xəncərə doğru,
yenə bir gülə qalxaram.

Axırda elə bilərəm
Tək bir gül var, tək bir xəncər,
Xəncər vuran, gül gətirən
adamlar, əllər dəyişər.

Yalvararam sinəmdən heç
Çixarmayın bu xəncəri,
Xəncər sinəmdə basdırın,
bilinməsin qəbrin yeri.

Bir daha xəncər vurmaqdan
ağrımaz əli heç kəsin,
qəbrimə gül gətirməkdən
canınız qurtarar sizin.

Vallah, gül də istəmirəm,
Lap eşqlə də dolmuş olsa,
bəsimdi xəncərin ustdə
bir gül şəkli olmuş olsa.

# QANADLI ADAMDAN YADİGAR GÖZ YAŞI

Ömrü uzunu xəbəri olmadı qanadlarından,
Böyrünə yapışan qanadlarını
bir dəfə də aça bilmədi, uça bilmədi.
Ayağında qandalı da vardı,
ayağındakı qandaldan xəbəri vardı ancaq.

Uşaqkən sevindi
oyuncaqlarını alan uşaqların sevincinə.
Böyüdü, hər küçədə, hər tində
hər dində adamlar aldatdı onu,
sevindi, sevindi yenə.
Ancaq onun hər şeyə sevinməyinə
dünya dözə bilmədi daha,
Axırda sevinməyi qadağan elədilər ona-,
O da başladı özgə dərdinə ağlamağa,
çox ağlaya bilmədi ancaq,
dərd o qədər çoxudu dünyada,
gücü yetmədi gücünə,
yıxıldı bir göz yaşının küncünə.

Ölmüşdü, amma hələ diriydi gözləri,
Gözlərindən axıb tökülürdü yaşlar
ayağındakı qandalın üstünə,
damla-damla əridirdi yaşlar qandalı,
qandal əridikcə açılırdı qanadları.

İndi bir damla göz yaşı durar
bu dünyanın ortasında
uçub qalxan o adamdan yadigar.
Kim baxarsa o göz yaşına
çıyinlərində öz qanadlarını görər,
ayaqlarında öz qandalını.

## ÜÇ BACI
*(sonsuz poema — göyə sonsuz yol)*

*Mərdəkan uşaq evinə*

O qız doğulan gün
Anası son nəfəsində
uzatdı əlini qızına sarı,
qızı əvəzinə
əli dəydi Tanrının ətəyinə,
Getdi əli Tanrının ətəyində,
gözləri yaşda,
O körpənin bir kəsi qalmadı
Tanrıdan başqa.
Tanrı baxıb, baxıb onu da gördü,
görən kimi də qızlığa götürdü-
O mübarək axşam Tanrı baxınca
qaranlığın ən şirin yerindən
uçub gəldi üç mələk,
birinin əlində güzgü,
ikisinin əlində şam.
Şam işığında
körpə baxıb gülümsündü Tanrıya,
Baxdı Tanrı gülən körpəyə
baxdı Tanrı gülən güzgüyə,
baxdı Tanrı yanan şamlara,
bəxti göylərin ən gizli,
ən güzgülü yerindən
qızın ayağına gətirdi,
Xəbərləri olmadan
körpəni də, şam işığını da,
güzgünü də qızlığa götürdü.

O qız böyüdükcə böyüdü,
böyüdükcə unutdu

şamları da, güzgünü də.
Xəbəri olmadı ancaq,
hara gedirdisə, yenə o üç mələk
gedirdi onun dalınca
birinin əlində güzgü,
ikisinin əlində şam.

O mübarək gözəlin adına
tökülüb gəldi elçilər.
Bir gecə yarı
ömründə ilk dəfə o gözəl qız
yuyurdu kişi köynəklərini,
qəfil söndü işıqlar,
yenə uçub gəldi üç mələk
birinin əlində güzgü,
ikisinin əlində şam.
Qız baxdı güzgüyə şam işığında,
titrətmə tutdu qızı,
güzgüdən ona baxırdı
təzəcə ona boylu olmuş anası.

Son nəfəsində o qızın
nəvələri durmuşdu baş ucunda,
illər ağarmışdı saçında,
uçdu «Ana» deyən anda səsi,
güldən qopan gül ləçəyitək
uçdu son nəfəsi də,
Yenə səssizcə uçub gəldi üç mələk
birinin əlində güzgü
ikisinin əlində şam.
Son nəfəsində gördü, tanıdı o qız
doğulan günü gördüyü o üç bacını.
İki şam işığı
iki bacı barmağıtək
bağladı qızın gözlərini,

güzgüdə qaldı son nəfəsi,
özü uçub getdi
anasının qucağına,
çatdı baxdı, gördü anası da
öz anasının qucağında
lap körpəcə uşaqdı,
o da anasının qucağında
ondan da körpə bir uşaq.
Heç demə, ölmək-
Qayıtmaqmış təzədən
Öz yurduna, ocağına,
qayıtmaqmış təzədən
anaların qucağına.

... yetim doğulanların hamısının
dalınca uçan
o üç mələk
uçub getdi o qızın dalınca o axşam,
birinin əlində güzgü,
ikisinin əlində şam.

## ZALIM, NƏ DURMUSAN O ULDUZUN ALTINDA YENƏ

Yenə qulaq verib göylər deyənə,
Durmusan bir ulduz altında yenə?!
O ulduz yürüyər sən yürüdükcə,
Sən dayanan anda ulduz da durar,
bəlkə o baxdığın ulduz altında
xoşbəxtlik adında nəsə bir şey var?!

Gözləmə boş yerə! Gözləmə, zalım,
xoşbəxtlik yoxdu ala gözlərə,
gözəl oğlanlara, gözəl qızlara,
ürəkdən, könüldən gələn sözlərə.

Boş yerə! Boş yerə! Ölümdən qaçman,
Gələn də peşmandı, gedən də peşman,
Hə dost dost kimidi, nə düşmən düşmən,
Dünyadan köçməyin vaxtıdı, zalım.

Üz-göz cizgilərin yerində hələ,
Uca başın gora əsdiyi gündə —
Sevdiyin gözəllər səni görəndə —
Dünyadan köçməyin yaxşıdı, sevgim.

Son sevda yolunda axşamlarım var,
Harda qərib ev var, orda şamım var.
Hələ ki, hələ ki, xoşbəxtəm, dostum,
Öləndə üstümdə ağlayacaqlar.

Vaxtında ölmək də bir igidlikdi,
Bir də gördüm canım dünyaya yükdü,
O an bu dünyadan ruhum qalxacaq,
Ən təzə lələklər mənim olacaq.

## DONURDU HADİNİN ƏLLƏRİ

Soyuğu başladı yetim bir məmləkətin,
Keçən ilin soyuğu qıçında
kasıb qaçıb gizlənmişdi
cındırının içində.
Soyuq ayı dərisindən də keçirdi,
kasıbın cındırından keçmədi,
-Gözümüz aydın! Kasıb soyuqdan küsüb!
Qapılılar bağladı qapısın,
pəncərəlilər pəncərəsin:
özləri bilərlər-
kasıb soyuğun, soyuq kasıbın.

Hamı qaçıb gizlənəndə,
çəkiləndə bu dünyadan
                    hətta şeytanın da ayağı,
sınıq pəncərələrə tutulmuş qəzet kimi
şairlərə gəlir dünyanın soyuğu.

Donurdu Hadinin əlləri,
Qapılılar qapısın bağlamışdı,
pəncərəlilər pəncərəsin.
Buzdan, şaxtadan yollar da qalın,
Qara torpaq da qalın, qalın,
üstündə nə qəbir qazılar, nə dua oxunar,-
Allah da bağlamışdı o dünyanın yolun.

Bir atlı keçirdi
Allah bağlayan, dərd açan yoldan,
atlının bığları eşmə,
dərdin yolları sürüşkən,
-Canım atlı, gözüm atlı,
bu dünyanı keçməyə

ya bu atı bağışla,
atı bağışlamırsan,
atın ağzındakı odu bağışla.
Odu da bağışlamırsan,
gəl, bu bığları bir də eşmə!

Donurdu Hadinin əlləri
səsinə at dayandı,
atın ağzında od dayandı,
Atlı qamçıladı atı,
od çıxırdı atın ağzından,
Donurdu Hadinin əlləri,
qaça-qaça saldı əlini atın ağzına,
Atlı qamçıladı atı,
At qaça-qaça yumdu ağzını.

Donurdu Hadinin əlləri
Çıxartdı ürəyinin yanından
sata bilmədiyi şeirləri,
od vurdu şeirlərə
saldı əlini odun içinə,
orda əli ürəyinə dəydi,
orda ürəyi əlinin içində,
əli ürəyinin içindəydi.

Şeirin odu axıb, axıb isitdi
çölləri, dağları, məzarları da,
isitdi ölümsüz məzarların
ölümsüz etdiyi bu ulu yurdu,
... O anda, yurdun bir qırağında
qalxıb ulu məzarından Mirzə Ələkbər
ciyərinin qanını yuyurdu.

## ADAMLAR SİLAHLA ARARDI ONU, MƏLƏKLƏR QAYTARDI QANADLARINDA

*Cavidə şeirlərdən*

*Bu şeirlər 1981-də Cavidi mələklərin qanadında Vətənə qaytardı. 82-də insanlar onun nəşini gətirdilər, ancaq əsil Cavid ruhdu, o da şeirlə geri dönmüşdü.*

Hər qaranlıqda bir işıq,
Hər ümidsizlikdə
bir ümid bizi arayırmış.
Bu da ruhumuzu güldürəcək bir xəyal,
Bizi dərdlərdən qaldıracaq bir qanad,
Ancaq ümidlər bizi yaşatmaqdan,
biz ümidləri yaşadırıq, ustad.

## GÖYÜZÜNDƏN ENƏN ÇİÇƏK

O hansı ildi, hansı gündü,
gözəl gözlər ağlarkən güldü?!
Qapandı qara-qorxunun
Çoxdan qapanılası gözü,
ilişikdən qurtarmış
bir bayraq kimi
açıldı göyüzünə «Bəraət» sözü.
Yapışıb bir işıq telinə
Göyüzündən bir çiçək endi.
Endi yavaş-yavaş o çiçək,
endi Tanrı yanından aşağı,
endi o böyük insan alnından aşağı.

Endi, döndü bir uşaq əlinə,
Neçə illərdi bir cüt qəmli göz
açıq qalmışdı göyüzünə,
endi uşaq barmaqları
yavaş-yavaş o gözlərə sarı.
Barmaqlar toxununca
titrədi o qəmli gözlər,
titrədi, qapanmadı...
O balaca əl təzədən
döndü bir çiçək gözünə,
günahkartək çəkildi göyüzünə.

Uşaq barmaqlarıyla da
qapanmadı göyüzünə açıq gözlər,
toxunma, Adəm oğlu,
insan barmağında köz var.
Budağı sınıq bir qoca çinar,
canı uçuq bir divar,
Adəmdənqalma hər nə var
canlarında əbədi uçuş
göyüzünə qovuşmuş,
toxunma, silkələmə göyüzünü,
ulduzlar düşər, sənin də taleyin ağlar,
toxunma göyüzünə,
göyüzündə nə qədər qar var
silkələdiyin anda
sənin də qapqara saçına yağar.

Toxunma, toxunma, Adəm oğlu,
Yaxşı ki, Allah gücü yoxdu səndə,
yoxsa yolundan çıxarardın
dağları, düzləri,
çayları, dənizləri də.

Cavid əfəndi, kim var insan adında
hamısı günahkardı
bu göyüzünün altında.
İçində boğulanlar da,
Damarlarındakı qorxaq qana görə
Sizdən sonra doğulanlar da.

Damarlarımızdakı qan çəkir bizi,
Günahları qana-qana
yenə yalan yazırıq,
yeni günahlara hazırıq!

Min illərdi bəşər övladı
Beləcə gedir irəli —
gedir, böyük insanları
daşlaya-daşlaya,
sonra öz günahlarını
özü özünə
bağışlaya-bağışlaya...

# HƏR İNSANI DOĞULUB AYAQ AÇDIĞI TORPAQDA DƏFN EDƏK

Onun son dəfə baxdığı
bir yarpaq göyüzünü
bir solğun ulduza büküb dəfn edək,
onun son dəfə söykəndiyi qayın ağaclarını
qucaqlayıb qərib qardaştək dəfn edək.
Dəfn edək hər insanı
doğulub ayaq açdığı yerdə,
şəhidləri şəhid bayrağını
göyüzünə sancdığı yerdə dəfn edək.

Göyüzündəki ən nurlu məzarın itkin adı —
Məhəmməd Hadi,
Şamaxının neçənci ocağında
göydən endiniz torpağa,
ayaq səsinizə
əbədi uyuyan Mirzə Ələkbər
diksinib qalxdımı ayağa?
Yoxsa qıymayıb dostların yuxusuna,
qarışıb yağan qara
barmaqlarınızın ucundaca
səssizcə endiniz torpağa?!
Amma Hadi əfəndi, göz yaşının
səsiylə uyuyanlar
dostların göz yaşıtək səssiz yerişinə də
oyanar.

Nazim Hikmət əfəndi!
Dəfn edək atom işığından ölən uşaqları
ulduzların dalınca qaçdığı yerdə.
Dəfn edək hər şairi
Allaha sarı qanad açdığı yerdə.

Ana ayaqlarının altıdı
ən gözəl Tanrı torpağı,
çarmıxdan açaq İsanı
dəfn edək Məryəmin ayaqları altında.

Təkcə dəfn etməyək günahlarımızı,
Yaşayaq günahlarımıza baxa-baxa —
kimimiz gülə-gülə,
kimimiz dua edə-edə,
kimimiz də oxuduğu duadan da
qorxa-qorxa.

## SÖYÜD AĞACI - SOY AĞACI

Bir söyüd budağı sancın
dan yerinin altına,
qoy bitsin orda.
Bir söyüd budağını da bərkidin
Azdramada —
teatr pərdəsinin üstünə,
qoy bitsin orda
bütün əclafların,
bütün ölümlərin qəsdinə.

Bir söyüd qələməsini də
sancın Naxçıvanda —
bir balaca arxın qırağına.
Qalxsın o söyüd budaq-budaq
yurdun qara buluduna.
Ensin saçaq-saçaq
yurdun qara torpağına.

Qalxsın o söyüd
o torpaqdan qalxan

soyun qələbəsitək,
qalxsın o söyüd
o arxdan axan
suyun qələbəsitək,
dikəldin o arxı da
bir soyun qələməsitək,
axsın, qalxsın,
qalxa-qalxa, sına-sına
Tanrının göyüzündəki bağçasına.

## CAVİDİN SON MONOLOQU

Əbədi heçliklərdən yüksəl,
yüksəl, zavallı bəşər,
yüksəl, səndələyən canlı məzar,
yüksəl, ruhumuzu güldürəcək
                              sərsəm umud,
Hər zamanın bir hökmü var,
hər hökmün bir zamanı,
bir məqamda
hər hökmdar bir sərsəri,
hər sərsəri bir hökmdar.
Yüksəl, sərsərilər sultanı,
sultanlar sərsərisi,
yüksəl işləməkdən
yanğın yeritək qapqara, zavallı bəşər.
Yüksəl, bizdən küskün əcəl.

Zavallı bəşər
ölümdən də səadət umur,
insan ən ucaya
dar ağacından asılanda yüksəlir,
eləmi, Əmir Teymur?!

## CAVİDİN SON DUASI

Mən gözlərimi yumdum,
Balalarımı sənə tapşırdım,
Bəs səni
kimə tapşırım gedim, ana yurdum?!

## QAYITDI MƏLƏKLƏRİN QANADLARINDA

O gözəl oğul, o solğun nur,
Bir də, bir də çətin doğulur.
— Çoxdan getmişdin, xan oğul,
Canım, ciyərim oğul,
özün gəldin, qürbətdə qaldı adın,
hardaydın, çağırdım qayıtmadın.
— Ömür nədi ki, xanım ana,
Bugünkü qocadı dünənki çağa.
Elə bil yanındaydım,
yatmışdım, qıymırdın oyatmağa.
— Ömür yuxuların
ən uzunudu, sultanım oğul,
— Ölümdü yuxuların ən uzunu,
Canım, sultanım ana.
Yollar gəldim yoruldum.
Qoy bəlalı başımı
qoyum qara torpağına.

## YUNESKO-ya məktub

Cənab baş direktor!
Təzədən yazılsın
bütün insani haqlar,
sayla, güclə deyil,
böyük insanlarıyla
tanınsın xalqlar,
baxın, olduğundan
çox az tanınır Azərbaycan,
buna çətin inanasan —
bu balaca torpaqdan
bu qədər böyük insan çıxa,
bu qədər az tanınasan.

Bütün dünyada bir gecəliyə
bağlansın Şekspir teatrları,
buraxılsın pərdələri
Brext teatrlarının,
Bekketin, İoneskonun,...
ya da hansısa Conun, Devidin
açılsın hamısında teatrı Cavidin,
açılsın həm də
bağlı kitabı YUNESKO-nun,
təzədən yazılsın adlar,
Bəhmənyardan, Nizamidən sonra
Xaqani, Məhsəti, Əcəmi, Ürməvi,
Xətai, Füzuli, Sultan Məhəmməd,
Vaqif, Mirzə Fətəli, Mirzə Cəlil,
Mirzə Ələkbər,
Üzeyirbəy...
...Və dünyanın yüz ölkəsində
yüz Şeyx Sənan bir daha, yenə
yüz yalçın qaya başından
atılsın yüz Kür nəhrinə,
atılsın eyni anda
yüz xalqın oğlu
bir haqqa doğru.

*1980*

# ÖLÜMDƏN SONRA BAŞLAR ŞAİR ÖMRÜ

Noldu birdən-birə, Mixail Yuriyeviç,
İndicə gülürdünüz?!
İndi qəbir tüfəng lüləsitək dar,
Elə bilirdiniz hamının Allahı var?

Diz çökün, cənab Martınov, diz çökün!
Fələyin zülmü çox, Allahın mərhəməti!
Diz çökün! Bir şair də söndü-
Sevdalar yaşılı, ocaq kösöyü,
Üstündə Allahı, üstündə göyü.

Gözlər hədəqədə, ölüm sinədə,
Alın yazısına, qara günə də,
bazarda soğanın qiymətinə də,
bir bəhanə gərək, bir bayıs gərək
Güllələyin şairləri! Sonra diz çökün!

Kimin günahı var, kimin ahı var,
Dünyanın nə qədər pis sabahı var
Hamsına, hamsına şairlər bayıs!
Güllələyin şairləri! Sonra diz çökün!

Güllələyin qulaqları oxşamayan təzə sözü,
Güllələyin damarlara sığmayan təzə qanı!
Güllələyin lirikanı, Lorkanı, Nerudanı!
Güllələyib güllələnmək əsridi,
Güllələyib güllələnin!

Qəbristanlıqlar ölüyə həsrət!
Dəlixanalar dəliyə həsrət!
Güllələyin şairləri!

Koroğlu zəncirdə, Qıratı darda,
Dəlləklər gəzirlər karetalarda.
İndi ağlayanlar güləcək gorda,
Gorda ağlayanlar güləcək harda?

Güllələyin şairləri! Onsuz da
Şairlər ölürlər yaz yağışından,
Arvad qarğışından, qız baxışından,
Dünyanın tələsik yır-yığışından,
Günahlı, günahsız şairlər ölür.

Güllələyin şairləri!
Ancaq tövbə gecəsi əynində soyxa,
qorxa-qorxa
Puşkinin yarasın öpməyə yüyürsün Dantes,
bir kilsə qapısında səhərəcən
böyürsün Dantes;
Bir də yol verin, yol verin cənab Martınova
yıxılan Lermontovu qucaqlamağa...

*1977*

# ƏLİ KƏRİMİN KİTABINA BAXAN QUŞ

Hələ ki, bizim dilimizdə
Bizdən də yaxşı danışır
yurdumuzun agacları, quşları,
çiçəkləri, daşları.

Şükür! Ağacların, quşların-
Bizim dərdimizi
Bizdən yaxşı danışmağına, Tanrım!
Şükür! Bizə verdiyin quş dilinə,
ağac dilinə, daş dilinə.

Şükür! Mən hələ də, yenə
ölümü şertək oxunan şair
başını sevinə-sevinə
balta altına qoyantək
başımı kitab üstə qoyan adamam,
eşqin üzünü, eşqin səsini
daha eşqli bir dünyanın
kamança çiçəyi,
kamança yarpağıtək duyan adamam.

Şükür! Yenə
Tanrı yanına qalxdı ulduzlar,
bir az da Tanrı yanından
yetim-yesir sevgilərə
gülümsünüb baxdı ulduzlar.
Ulduzların bir də baxanacan
nə qədər eşqdən də gözəl üz,
ülgücdən də iti can qayıtmışdı torpağına,
qayıtmışdı torpağından.

Şükür bir də torpağına qayıtmağa, Tanrım!
Şükür bir də torpağından qayıtmağa!

## ƏDALƏTİN SAZININ BİR TELİ

Qışılmışdı iki yetim bir-birinə,
Leyli saz qısılmışdı Ədalətə,
Məcnun qısılmışdı Leyli qəbrinə,
iki qərib qısılmışdı
haqqın ürəyinə, haqqın qəlbinə.

Nə çox istərmiş özünü!
Gördüm Ədaləti mən də,
Gördüm hamıdan gizli
Sazının bir telində
«Can» deyirdi özünə,
«Can» —deyirdi sazına.
Can bizi udacaq,
uçurdacaq uçurumlara!
Qanadlandıracaq haqlara!
Can candan əziz şəhidlərimizin
üz qoyduğu torpaqlara!
Elə üz qoyan andaca
sevgidən ağlayacaq üzlərə!
Can «Can» sözü eşitməyən
yetimlərə, yalqızlara!

Can bir günlüyə, bir aylığa
gözümüzə görünəcək
dünya adlı sevgiyə,
dünya adlı ayrılığa.

## TƏZƏ GƏLƏN KÖRPƏYƏ

Bütün körpələr cənnətdən gəlir. Hər təzə körpə dünyaya göz açan kimi canına daraşan dərdləri görüb qışqırır ki, onu istədiyi dünyaya deyil, səhvən başqa dünyaya gətirdiyini Allah eşitsin. Körpənin ilk qışqırtısı Allaha ilk duası, dünyaya ilk etirazıdır.

Ay bəbə, baxma geri,
Allah bilibdi, yeri,
hamı dünyaya səntək
səhvən gəlibdi, yeri.

Hamı Allahındı, bil,
Allah hamının deyil,
Gözünə hər nə dəyir,
Allah qurubdu, yeri.

Sənlə enib dərdin də,
Ürəyində, dərində-
ən şirincə yerində,
yurdun hörübdü, yeri.

Dönüb geri baxmağa
varmı bir dünyan daha?
Sözün varsa Allaha,
Allah görübdü, yeri.

## BİR CÜT BACI GÖYƏRÇİNƏ QARDAŞ OLMAĞA GEDƏN ATLI

Bir çay yuxarı, bir çay aşağı,
bir göy yuxarı, bir göy aşağı,
başsız atlıları aldada-aldada
alıb aparır ay işığı.

Yuxulu yolların yalmanlarına
yerdə qaça-qaça,
göydə uça-uça yatar o atlar,
içi ulduz dolu göy faytonutək
göyü yerə sarı dartar o atlar.

Göy yaxınlaşdıqca hər gün, hər gecə
bir azca, bir azca
dünyanın işığı artar beləcə,
beləcə gecələr dönər gündüzə,
beləcə bir gün də
bütün görünməzlər görünər gözə.
...bir başsız atlının çiyninin üstdə
cücərən yamyaşıl başını görcək
bir cüt ağ göyərçin tanıyar onu
çoxdan itkin düşmüş qardaşlarıtək:
— Min ildi, milyon ildi
bacıların uçur havana, qardaş,
Tanrının əli də çiynində yenə,
hayana gedirsən, divanə qardaş.
— Gedirəm bir bulağa
bir cüt yaşıl göz olmağa
bir cüt yaşıl daş olmağa,
bir cüt bacı göyərçinə
yaşılbaş qardaş olmağa.

*1977...*

# DAĞLARDAN DA GÜCLÜ

Dəryalardan da,
dağlardan da güclü
bir şey var bu dünyada,
bəlkə də o div gücü
bir çay ulduza qarışıb
axıb gedir sularda.

Nə var, nə var bu dünyada
bir sərçə balasının
bir dam üstündəki
göyündən böyük?!

Dəryalardan da,
Dağlardan da güclü
Bir şey var bu dünyada.

Kim bilir bəlkə o div gücü də
o sərçə balasının olacaq-
bu yosunlu dənizi
bir yaşıl yarpaq kimi
dimdiyinə alacaq.

## UŞAQLAR, HƏRFLƏR

*Balaca dostum Elşən Güclüyə*

Çıçəklərin,
Bir də uşaqların gözləridi
Dünyada ən iri gözlər,
böyüklərçün ən anlaşılmaz sözlərdi
uşaqların çiçəklərə,
çiçəklərin uşaqlara dediyi sözlər.

Dəniz göylə,
Güzgü suyla dopdolu
gözəl qabdı uşaqlara,
Hər şey canlıdı,
hər şey kitabdı uşaqlara.

Gözləritək ürəkləri də böyük olduğundan
hər şeyin adını
böyük hərflərlə yazar,
yazar balaca uşaqlar.

Böyüdükcə, güclədikcə
Qələm tutan barmaqlar,
böyüdükcə, güclədikcə uşaqlar,
balacalaşar hərflər,
onlarçün də
anlaşılmaz bir dildə
danışar çiçəklər.

# BALACA GÜNEL BAXIŞA

Min illərin içindən
yelləndi balaca Günelin əli:
— Əmi! Əmi!
Allah köməyin olsun!
Dönüb mat-mat
baxdım uşağın üzünə...
Min illərin içindən yenə
yelləndi balaca Günelin əli:
— Əmi! Əmi!
Günəş köməyin olsun!
Yağış köməyin olsun!
Şimşək köməyin olsun!
Külək köməyin olsun!
Dedim: ay səni şeytan bala!
Dedi: Şeytan köməyin olsun!
İndi kişisən,
bu dünyada bir şey anlama!
Deyirəm,
ürəyimiz uşaq ürəyi olsa,
şeytan da kömək olar adama.

# QANADLARI DA OLMALIDI TANRI BAĞIŞLAYAN ƏZABIN

Bu dağı Tanrı qaldırıbsa,
yolunu göydən saldırıbsa,
qanadları da olmalıdı,
hanı bəs qanadı bunun?

Bu yol Tanrı əzabıysa,
Dərdin Tanrı uzadırsa,
qanadları da olmalıdı,
hanı bəs qanadı bunun?!..

Göysüz, qanadsız olur
insan bağışlayan əzab,
Hanı bəs qanadı bunun?
Qanadları da olmalıdı
Tanrı bağışlayan əzabın.

Nə vaxt verərsən göyümü,
elə hey göynərəm, Tanrım,
göy verməzsən bu əzabı,
bu ürəyi neynərəm, Tanrım?!

Kəndindən, köyündən uzaq,
Gördüyüm göyündən uzaq
Göyümü harda axtarım?!
Bu ürəyin, bu əzabın
qanadlarını da ver,
göyünü də yarat, Tanrım.

## HAMIDAN DƏRDLİ, HAMIDAN DƏLİ

Min-min, milyon-milyon,
ulduzlar yanır göydə,
mən uçuram, şığıyıram
ancaq birinin işığına.

Min-min, milyon-milyon
ölümlər gəzir məni,
Mən ancaq bir ölümdən qaçıram
Ondan qaça-qaça
uçuram, şığıyıram
ancaq onun işığına.

Min ildi, milyon ildi
hər an xor səsi gəlir
bu göyüzünün o üzündən,
mən o xorun içində
bircə səsi dinləyirəm ancaq,
hamıdan dərdli, hamıdan odlu,
hamıdan dəli oxuyan odu,
Xor dayananda da oxuyur o,
Oxuyur, oxuyur o,
Xorun içində
Xordan xəbəri yoxumuş kimi,
Göyüzündə, üzü Tanrıya
Tanrının dərdini oxuyurmuş kimi.

# YOX OLMAQ

Canım, nə şirin, nə dadlı
göyüzündə görünməz bir quyuya yıxılantək
qəflətən yıxılmaq,
heç bir üz görmədən,
heç bir iz qoymadan
yox olmaq! Yox olmaq!

Hər axşam görünüb,
hər səhər yox olmaq,
ulduzların hər axşam
sulara girib yuxlamağı,
hər səhər yox olmağıtək.

Yox olmaq! Yox olmaq!
Hər an yenidən doğulan bir sevginin
yaxasında yox olmaq!
Bir daha yenidən yuxusunda doğulmaq!
Doğulub yuxusunda da yox olmaq!

Yox olmaq! Yox olmaq!
Heç öz-özünü də tapa bilməmək!

Yox olmaq! Yox olmaq!
Yox olduğunu bilmədən
bütün yox olanlarla
alın-alına, göz-gözə,
nəfəs-nəfəsə qalmaq .

## ÜZÜNÜ OVCUNA ALMA, AY DƏLİ

Çəkir ürəklərimiz
bu dünyanın dəmini,
üzünü ovcuna alma, ay dəli,
əlinlə əridəmməzsən qəmini.

Yoxsa sən də göydə nə qədər dərd var
hamısını çəkib çıxmısan başa,
başını döyməyə bir doğma divar,
bir göy tapmamısan ovcundan başqa?

Sən də eşq sayırsan bütün dərd, qəmi?!
Demək sən də dərdin, qəmin gülüsən,
hər an da yenidən, yeni bir eşqlə
unudub sevirsən sevdiklərini,
demək, sən də dəlilər dəlisisən?

Üzünü ovcuna alma, ay dəli,
göyə təzə ulduz çıxıb,
uçum sənə ulduz dərim,
İsti-isti istəmirsən?!
Qoy soyusun, bumbuz dərim,
xoşun gəlmir
bu gecəki ulduzlardan?!
Gözlə, sabah, gündüz dərim.

Üzünü ovcuna alma, ay dəli,
Yazıqdı, vallah, Allah da,
çəkir hamının dərdini,
bir dərd bəs olmur heç kəsə,
qoyur üstünə dördünü,
zalımlaşdıqca adamlar
daha fağır olur Allah,

çəkir hamının dərdini,
birin yerinə dördünü.

Üzünü ovcuna alma,
Qaldır başını, ay dəli,
Ay Allahın zalım gülü,
Allahın ürəyində də
şan bağlayan min yara var
simli-simli, saçma-saçma,
birin də sən açma, dəli.

Qaldır başını görüm,
üzün, gözün, göz yaşların
ovcunda soyuyur sənin,
lap Tanrının üzünəcən
gözlərin böyüyür sənin,
uzanır gözünün yaşı,
uzanır ovcun, əllərin
Tanrı üzündə qalmağa,
uzanır Tanrı üzünü
bu dünyanın ən qəmli,
ən qərib üzü kimi
öpüb ovcuna almağa.

## ƏN GÜLMƏLİ ÖLÜ

Dərdim dirilir, dağlar,
Dərdi mənə yorsana,
Qəbrim yorulur, dağlar,
Məni göyə versənə.

Allah verən ölüm nə,
Məni saran ölüm nə?
Bir can iki ölümlə
Sevindiyin görsənə.

Yenə şeir dəlisitək,
Dəlinin sevməlisitək,
Ən gülməli ölüsütək
Qazıb məni sorsana.

# ÖLMƏK İSTƏYİRƏM, YAŞAMAQ İSTƏYİRƏM

Ölməyə aparırlar,
yaşamaq istəyirəm,
tez nəfəs verirlər,
ölmək istəyirəm.

— Hardasan, Tanrım, deyirəm,
insanoğlu cavab verir.
— Bu sənsənmi, insanoğlu,
— Mənəm, deyir Tanrı.

# QALXDIQ TƏZƏ TORPAQ, TƏZƏ ADAMTƏK

Alın yazısıtək bir gecədə,
Daşlı, kəsəkli bir küçədə
Əyilib torpağa, çöküb torpağa
qalxdım təzə adamtək,

Kimi dünyanı əyri gedər,
kimi düzünə,
Kiminin taleyi alnına yazılar,
Kimininki üzünə,
Qoyub alın yazımı qara torpağa,
sürtdüm üzümü qara torpağın üzünə,
qalxdım təzə adamtək.

Min dərdin bir bacısı
ağ birçəyə qara gül taxanıdı,
Göz yaşının ən acısı
içəriyə axanıdı,
axdı, döndü canım bir damla göz yaşına,
qara torpaq ağladı məni,
rahat oldu canı, rahat oldu canım,
qalxdıq təzə torpaq, təzə adamtək.

Bu dünya qəmə əyəcəkdi məni,
O qəm də qumtək yeyəcəkdi məni,
Bu qara torpaq birdən çəkdi məni,
Qalxdıq qəmsiz-qadasız
təzə torpaq,təzə üz, təzə adamtək?!

...İndi də qəmsiz ləzzət eləmir dünya,
Birdən tanımaz, tapa bilməz məni:
— Qara torpaq, neylədin qəmimi?!

# ƏN SON ENƏN ƏN YAXŞI ENƏCƏK

Açılan güllər də deyir
Hər enən yaxşı enəcək,
Kiminin başına gülü ,
Kiminin daşı enəcək.

Axtarıb məni tapmağa,
Bu dünyadan qoparmağa,
Gözlərimi qapamağa
Barmaqlar naşı enəcək.

Hardasa uzaqda deyil,
Tapacaq uşaq da deyil,
yanımda üzağ da deyil,
utanıb başı enəcək.

Keçib qaranlıq göyləri,
Eyni bir anda içəri-
Göyüzündən gor xəncəri,
Gözündən yaşı enəcək.

# DƏNİZİN ÜSTÜNDƏ BİR XƏYAL

Bir ucsuz-bucaqsız dəniz
gələr ayaqlarına,
bir arxı keçən kimi keçərsən ondan.
Bir ucsuz-bucaqsız dəniz də gələr
o dənizin dalınca,
bir ucsuz-bucaqsız torpağı keçən kimi
keçər səndən.

Adamsız, avarsız bir qayıq
durar dənizin üzündə,
baxıb, baxıb ada sanarsan,
sanıb üzərsən ona sarı,
Adamsız, avarsız o qayıq da
səni ada sanar,
sanıb o da üzər sənə sarı.

Dənizin üstündə bir xəyal...
Gördün? Gördünsə,
Artıq o xəyalın əsiri oldun.

Dənizin üstündə bir xəyal-
ya o sənin gözlərinə görünər,
ya da sən onun.

# BU DÜNYADA SİRR AXTARMA

Bu dünyada sirr axtarma,
bu dünyanın sirri yoxmuş.
Yaşamağa yer axtarma,
Ölməyə də yeri yoxmuş.

Sevişməyə bir dəli yox,
asılmağa bir teli yox,
yürüməyə irəli yox,
qayıtmağa geri yoxmuş.

Odər belə dərdə dönmüş,
dərd də yoxdu, dərdi dönmüş,
gördüm Allah burda imiş,
döndü üzü bəri, yoxmuş.

# ELÇİ

Musa, İsa, Məhəmməd —
Tanrının elçiləri.

Ya da
Eyni elçidi
ayrı zamanların göylərindən
hər dəfə
təzədən uçub gəlir dünyaya
ayrı adların qanadlarında.

Görünür, belə məsləhətdi, qada,
Qanadlı elçilərsiz
yaşaya bilməz qandallı bəşər.
Yaşaya bilməz
hər dövrdə bir dinə,
bir məzhəbə
qulluq eləməsə.



**Mən də, mən də sənintək**
**zalım adamam, Tütək**



# ƏLİN ÜSTDƏ ÇAT VERMİŞ «ANA» KƏLMƏSİ

Yolda öz-özünə danışan adam,
danışıb özünə söydürən adam,
əlinin üstünə
«ana» kəlməsini döydürən adam,
min illərə qalmış üzünün gülməsi,
görürəm ürəyini çatlamağa qoymamış,
əlin üstdə çat vermiş «Ana» kəlməsi.

Evimizin divarındakı çatlar,
gecə-gündüz sizi daşıdım ürəyimdə,
Bu dünyanın nə zülüm işləri var-
üst-üstə düşdü
ürəyimdəki çatlarla divardakı çatlar.

Evimizin divarındakı çatlar!
Üzü sizə sarıydı bütün yazdıqlarımın,
Çat vermiş dostları
Sıranıza düzə-düzə,
kimin günahı vardı bağışladım sizə.

Dostlar! Sevinin, qanadlanın, uçun!
hamımız birgə, həm də tək-tək,
eyni dərdləri çəkmişik demək —
Heç olmasa bircə yol bu çatlarçün
ürəyimiz sevinsin barı-
günahımız ayrı-ayrı,
eynidi, birdi ancaq
ürəyimizin çatları —

## TALEYİMİZİN AĞIR QAPISI

Ayaqyalın, başıaçıq bir uşaq
Hər gecə üşüyə-üşüyə döyür qapımı;
Uzandığım yerdən görürəm
            ağlamağını onun,
Qapını yaralı diziylə vurmağını görürəm.
Açmaram qapını,
            bilirəm mən açan qapıdan keçsə,
Sabahdan dünyanın
            ən ağır dərdi gözləyir onu.

Doğma dərtdi
            bu gecə yarısı qapımı döydürən,
qan çəkən kimi dərdin doğması da
                        çəkir adamı,
eyni qapını döyür eyni taleli adamlar,
İnsan özü bilmədən
uşaqlıqdan beləcə can atır doğmalığa.

Biz gedirik, taleyimiz qalır bizdən sonra
            gələnlərə.
Dəyişən insanlardı, talelər qalır,
Musa elə İsadı, İsa elə Məhəmməd,
Ancaq bir azca yeri dəyişir talelərin,
Bu bir qarışıq yuxudu, heç kəs bilmir
kim kimlə alışıb, sönüb, yanıb,
kimin taleyi kimin taleyilə dayanıb.

...Bir zamanlar mən də ayaqyalın, başıaçıq
beləcə döydüm bu qapını hər gecə.
Üzünü görmədim qapını açanın ancaq,
üzünü görmədiyimiz adamlar açır
taleyimizin ağır qapılarını.

Kimə, hansı qapını açmışıq
bilmirik heç biz özümüz də,
açdığımızı sandığımız qapılar
bağladığımız qapılardı bəlkə.

Hər gecə bir uşaq üşüyə-üşüyə
yumruğuyla, diziylə döyür qapımı;
Mənim də zamanım gəlir, balaca,
Döy qapını, açılacaq qapı dalımca.

# HAMININ PAXILLIQ ELƏDİYİ ADAM

Hamının paxıllıq elədiyi adam
hər gün bir az, bir az
göyüzündən yığdı qanadlarını yanına,
yığdı, yığdı, sonda
qanadları balaca gəldi ona.

O elə bilirdi ancaq
bütün göyüzü onun qanadlarıdı,
onu hər gün bir az, bir az yığır yanına.
Xəbəri olmadı ancaq
göyüzü eləcə qaldı göyüzündə,
göyüzünü yığarkən bir lələyi də
düşdü qaldı
göyüzünün mavi düzündə.

Göyüzünü yığa bilməyincə
Yığdı, yığdı qanadlarını
bir güllənin ağzına,
Yığdıqca, güldü ölümü,
açıldı güllə,
açıldı ölümün bəbəkləritək,
bir anda göyüzünə dağıldı ömrü
güllə lələkləritək, güllə lələkləritək.

İnsan barmağı incidərdi
gözündə gizlənən dərdi,
Tanrı göyüzündən
o dərdin son lələyini
o dərdin gözlərini
qapamağa göndərdi.

O qədər tənhaydı, o qədər təkdi-
görcək gözü yaşardı ölümün də,
çıxdı o dərdin canından,
diz çökdü önündə.

Ölümündən başqa kimi vardı onun?!
                        Kimi vardı?!
Ölümündən başqa göyüzünün
                        mavi düzündə
bir körpə lələyi vardı,
bir körpə lələyi vardı.

Bəlkə o körpə lələyin,
bəlkə özünü öldürə bilməyin
paxıllığını çəkirdilər adamlar?!

# BİR UŞAQ ƏLLƏRİNƏ

Göyündə bir az yana gedən dünyamı öz göyünə qaytarmaqçün mənə güc vermiş balaca dostum Fərid bəyə və Zümrüd xanıma

Dünya səndən bezəndə
sən də dünyadan bezib
endirərsən başını
yorğun-arğın dizinə,
bir uşaq əlləri
toxunacaq üzünə.

Söykəyərsən başını,
qırış-qırış üzünü,
qıyma-qıyma gözünü,
itdən-qurtdan,
qəmdən-dərtdən,
dostdan, tanışdan
dastan-dastan alın yazını
bir uşaq əllərinə,
endirərsən başını
böyük dualar üçün
bu balaca əllərə,
Böyük andlar içməyə,
Günahlardan keçməyə
Endirərsən başını.

Haqq qapısın açmağa
qanadlanar mələyin,
elə bəlkə,
ancaq o ələ görə
bağışlanar günahın,
qəbul olar diləyin.

Ancaq yenə, yenə də
Dünya səndən bezəndə
Sən də dünyadan bezib
fit çala-çala gəzib
endirərsən başını
yorğun-arğın dizinə,
bir uşaq əlləri
toxunacaq üzünə.
Söykəyərsən başını
o uşaq əllərinə,
saxlarsan göz yaşını
o uşaq əllərindən.

# TABUT KÜRSÜSÜ

Xitabət kürsüsü-
dikinə çevrilmiş tabut.
Qucaqlayıb xitabət kürsüsünü
öz doğmaca tabututək
uzanır natiqin əli
irəli, sola, sağa,
uzanır, uzanır natiqin dili
əlindən də uzağa.
Görən daha kimi əliylə aldadıb,
kimi diliylə dartıb
öz yerinə-öz tabutuna
salmaq istəyir bu?
Bəlkə dörd yanını,
bəlkə bütün ölkəni,
bəlkə bütün dünyanı?!

# MİN İL SONRAKI KİMİ

Min il sonrakı kimi
yenə də dərdlər açdı,
yenə də bu dünyada
sevinc dərdə,
dərd sevincə möhtacdı.

Min il sonrakı kimi
gül yarpaqdan qanad aldı,
qanad aldı, qanadlandı,
yarpaq da gülə uçdu,
baxıb gülə, yarpağa
dərdi yazan da açdı.

Min il əvvəlki kimi
yenə dərdlər uçurdu
min il sonraya sarı
hey sürü-sürü, tək-tək,
min il sonrakı dərdlər
min il əvvələ uçantək.

Beləcə itirdi zaman,
beləcə mavi göylərin
budağında, yarpağında
gecə gündüzlə haçaydı,
göyüzündə doğulan dağlar
göyüzündən də ucaydı.

Min il sonrakı kimi
yenə sevinc dərdə,
dərd sevincə körpüydü,
bu dünyada gördüyümüz
görmədiyimizin köpüyüydü.

# DÜNYA BU ŞAİRİN DƏ ÜSTÜNDƏN YOL ELƏDİ

Mən şeirin göyüzünə tuşlanan gülllədən
vurulub düşmək istəyirəm,
düşmək istəyirəm
bir sevgili şeirimin qollarına.
Ancaq istərəm
sonbeşik, sonqələm şeirlərim
yıxılanda görməsinlər məni,
yıxıldığım yerə baxmadan
uçub keçsinlər üstümdən.

Mən şeirin göyüzündə-
şeirin buluduna girdiyim yerdə
vurulub ölmək istəyirəm.
Eləcə öləcəyəm də!

Öləndə
bu torpağın ən qəmli şeirinin
ayaqları altında basdırın məni,
o qəmin, o şeirin yarasının hovunu
heç olmasa bir azca
canıma çəkə bildim bəlkə.

Bir də qara torpağa qaytaranda məni,
ayırın bədənimdən, ötürün göyüzünə
mənə sarılıb ağrımı udan,
ağrılardan canı şan-şan buludu,
düşəndə düşdüyüm göyü, yeri
canıyla yumşaldan buludu,
Sonra deyin: Dünyanın işi belədi,
Bu şairin də gücü çatmadı dünyaya,
dünya bu şairin də üstündən yol elədi.

## HƏQİQƏTLƏRDƏN BOĞAZA YIĞILANLAR

Bu gün
nə qədər yalanlar söylədik bir-birimizə,
bu yalan nə yaxşı şeymiş,
indi məğrurca durmuşuq,
çünki dünyanın ən gözəl yalanlarını
biz söyləmişik,
Bizim yalanlarımızın yanında
boş bir şeydi
dünyanın ən böyük həqiqətləri.
Ancaq biz,
ancaq biz seçə bilərik bu dünyada
həqiqətləri yalanlardan,
yalanları həqiqətlərdən,
Çünki ancaq biz bilirik
ən böyük yalan
ən böyük həqiqətdi
ən böyük həqiqət
ən böyük yalan olduğu kimi.
Ancaq biz, ancaq biz-
həqiqətlərdən boğaza yığılanlar
qışqıra bilərik:
— Yaşasın yalanlar!

## ÜMİDİN OĞLU

İkimiz də doğulandan
dünya deyilən bu divarı
metro pillələriylə qalxantək
pillə-pillə
qalxırıq yuxarı
Sən yuxarı qalxan pillələrdə durmusan,
ora-bura baxırsan bekarçılıqdan,
pillələr özü qaldırır səni.
Üzü aşağı enən pillələrlə
ürəyim ağzımda
üzüyuxarı qaçıram mən...

Gül mənə, hey gidi dünya, gidi,
Ürəyimdə sənin fırlanışını da,
alın yazımı da,
min il sonrakı
göz yaşımı da,
ötüb keçmək ümidi.

# ŞAİR QƏLƏMİ

Dünyaya baca kimidi şair qələmi,
baca evin tüstüsünü,
hisini çəkəntək
şair qələmi də çəkər,
çəkər ötürər canından
dünya deyilən
damlar damının dərdlərini.

Şair şairdirsə,
qaçmaz dərd qardaşından,
qəm bacısından,
öləndən sonra da
gecə-gündüz tüstü çıxar
qəbrinin,
qələminin bacasından.

# SON KİTAB, SON SƏS

Görən hansı kitab olub
ölümündən qabaq
ölümsüz Füzulinin
baxdığı son kitab.
Görən hansı gözələ bənzəyib
Nəsiminin yazdığı son hərf,
görən hansı not işarəsi olub
Üzeyir bəyin əlindən, ürəyindən
son damla qanıtək
damcılayıb tarixə düşən,
Görən Niyazinin
hansı əlinin son hərəkəti
hansı səsi insan kimi
qaldırıb ayağa?!

İndi kimi gözləyir
son dəfə oxunacaq
hansı xoşbəxt kitab,
yazılacaq hansı xoşbəxt hərf,
son damla qantək
damcılayıb tarixə düşəcək
hansı xoşbəxt işarə,
hansı xoşbəxt vergül, nöqtə,
Yatdığı yerdən
tarixin göyüzünə qaldırılacaq
hansı xoşbəxt səs,
hansı xoşbəxt söz?!

# ANA İŞİ-TANRI İŞİ

Dünyanın hər yerində
qanadlı doğulur qızlar,
doğulurlar mələk yerinə,
kəniz yerinə,
elə doğulan kimi də
qurban verirlər qanadlarını
dünyanın təmizliyinə.

Ölkələrin, yolların tozunu ala-ala,
döşəməsini silə-silə
dünyanın o başından bir ana,
bu başından bir qız
ikisi də eyni anda
diz çöküb silirlər dünyanın döşəməsini
ipək qanadlarıyla.

Birdən ananın əli toxunur bir ulduza
döşəmədən qalxan
bir papaqlı mismara toxunantək,
toxunan kimi qalxır ana,
baxıb görür indi döşəmə nədi,
ən ürəkli, ən uçağan quşun da
qalxa bilmədiyi bir ucalıqda
silir dünyanın tavanını
bir qız uşağıyla yan-yana,

görür silirlər bir yerdə
balaca əl güzgülərinə bənzəyən
ulduzların üzünü,
ulduzları silib verirlər
yanlarında uçuşan balaca mələklərə,
baş əyə-əyə silirlər

dünyanın ən qədim eşqini yaşadan
ayın özünü,
soyumağını gözləmədən, əlləri yana-yana
silib parıldadırlar günəşi.

Ana işi-Tanrı işi!
Gecə-gündüz bütün dünyanı da beləcə
silir, təmizləyir Tanrı da,
silə-silə, təmizləyə-təmizləyə
dünyanın düşən ulduzunu,
itən işığını tapıb qoyur yerinə.
Sonra yoxlayır bir də, bir də
dünyanın hər divarını, hər küncünü,
qaldırır, hörür yerinə
göyüzünün mavi tikilisindən çıxıb düşən
milyon-milyon mavi kərpicini.

# BİR OCAQ BAŞINDA

Bir ocaq başında yarıyuxulu,
Analar qısılıb böyür-böyürə,
Qalıb balalara dünyanın çoxu.

Hərənin sözündən bir şey qanılar,
Biri balasını tərifləyəndə-
yana baxa-baxa susub qalanlar
ağlayar üzünün bir tərəfində

Göydən dillənən yox, göydən baxan yox,
Taleyin sonunda donub gözləri,
başını qaldırıb göyə baxan yox,
böyük Göyüzündən küsüb üzləri.

Allahdan, bəndədən qaçıb gizlicə
ağlayar analar hey için-için.
Ağlamaqdan asan dünyada nə var,
ağ telli, ağ üzlü analar üçün?!

«Dünyanın padşahı, şahı»-dedilər,
Belə qısıldılar can bahasına,
Balalar inanıb çıxıb düşdülər
Bu boyda dünyanın iştahasına.

Çəkin cəzanızı yatmayın indi,
Nəyə lazımıdı bu boyda dünya,
çox da ki, ocaqlar his eləyirdi?
Fağır balalara, gül balalara
bir ocaq yanı da bəs eləyirdi...

*1975*

# AĞ YAYLIQ AĞ GÜNDÜ, OĞUL

*Bu dünyadan arzularına çatmadan*
*köçənlərin xatirəsinə*

— Qarı nənə, qarı nənə,
Ağ yaylığın düşdü, nənə,
— Daha nə gözlər var, nə yaşlar,
Ağ yaylıq ağ gündü, oğul,
Ölüm günündən başlar.
-Qarı nənə, qarı nənə,
Qırmızı yaylığın düşdü, nənə.
-Qırmızı yaylıq toyundu, oğul,
Kimi çağırmısan toyuna?
Qoy oynasınlar onlar
Söykəyib üzlərini
bir-birinin çiyninə.
-Qarı nənə, qarı nənə,
Qara yaylığın düşdü, nənə.
-Qara yaylıq ölümdü, oğul,
Üşüyürsən, ört üstünə,
-Qarı nənə, qarı nənə,
Bağlama gözümü, nənə,
Bir damla göz yaşı incidir məni,
qoy onu ağlayım, nənə.
-Gözünün son damlasıdı,
oğul, incidir səni,
O son damla göz yaşı
Hələ illərcə saxlayacaq
gözlərinin çiçəyini,
Qoy örtüm gözünü, oğul.

# QARDAŞIM TORPAQ

*Uşaqlıq dostlarım*
*Hüseynlə Mikayılın xatirəsinə*

Bu bahar günü qorxum yox,
nə məni özgə günlərdən qoruyan
ölüm günümün sayıqlığından,
nə qara torpağın soyuqluğundan.
Davadan kürəyimdə çıxartdığım
bir yaralı qardaş ağırlığıdı mənə
sinə daşının ağırlığı da.
Bir də məndən qabaq gedən dostlar
çoxdan isitmiş olarlar qara torpaqları.
Qardaşım ölüm gəlincə
Təzə güllü üz çəkilmiş yorğanı
qaldırırmış kimi qaldırıb yerüzünü
enəcəm Hüseynlə Mikayılın yanına.
Hüseynin ələmini daşıdım dəfnində,
Mikayılın nə tabutunu gördüm, nə qəbrini.
Ancaq bilirəm, Mikayıl da
bir söz deyib qırmaz qəlbimi.
Qara torpaqda çoxdan isitdiyi yerini
çəkilib verəcək mənə.

Qardaşlar! İsitdiyimiz yeri
çəkilib bir-birimizə verə-verə
qoymayacağıq bizdən sonra gələnlər
bu qara torpağın soyuqluğunu biləl追.

# TUT DİBİ QARIŞQADI AC DAŞIYAR TOXUNA, TOX DAŞIYAR ACINA

Qara-qara quşlara,
yazıq-yoluq quşlara
dəymə, dəymə-
xoş getməz göyüzünə.
Sədəf-sədəf, düymə-düymə
balıqlara dəymə, dəymə-
xoş getməz dənizinə.

Qarğışdan, qara sözdən,
pis üzdən, paxıl gözdən.
göyüzündən, dənizdən
anam sovur uşaqları,
qovur, qovur uşaqları.

Göylərə qalxan deyiləm,
dənizə baxan deyiləm.
ağaca çıxan deyiləm-
anam qoruyur məni,
qovur, qovur uşaqları.

Tut dibi qarışqadı,
ac daşıyır toxuna,
tox daşıyır acına-
tapdayarsan keçərsən,
xoş getməz tut ağacına,

Tut dibi qarışqadı,
ölüm hər qarışdadı,
nə biləsən ki, anam,

bu dünyada gülən başqa,
ağlayanlar başqadı.

Anam, mən xalıq deyiləm,
dəryada balıq deyiləm,
sizlərə layiq deyiləm-
qoy oynasın uşaqlar.

*1977*

# TƏNHA ULDUZ ALTINDA

Bu gecə, bu gecə
bu qara oğlanın, qəmli oğlanın
bir kimsəyə qarşı
nə bir nifrəti var, nə də bir kini,
bu gecə, bu gecə
bu qəmli oğlanın, qara oğlanın
könlünü sındırmaq, qəlbini qırmaq
bir bülbül yuvası uçurtmaq kimi.

Bu gecə, bu gecə üzü göylərə
bu qəhərli oğlan, bu qəmli oğlan
bir eşqli gözəlin, sirli gözəlin
pəncərəsi altda dayanmış kimi
dayanıb bir tənha ulduzun altda...

## HƏRƏ ÖZ ÇIRAĞININ QULUDUR

Eyvanımızdakı qara çırağın altında
yazmışam ilk şerimi,
On beşimdə elə bilirdim o çırağın
bir gecəlik işığı olub gedəcəm:
şerlərim çıxmamış işığa ölüb gedəcəm,
Gözümdə, gözələ ağ paltar yaraşantək
ağ kəfən yaraşırdı cavan şairə.

O qara çırağın işığı yarıb keçdi illəri,
Bir də gördüm o qara çırağın işığı
anamın saçlarında quruyub,
İndi bilirəm məni ilk şeriməcən
o qara çırağın işığı qoruyub.

On yeddimdə elə bilirdim
ölüb gedəcəm bir daha sevilmədən,
Ancaq bir yay günü
yağmur kimi sevdilər məni.
Sonra bilmədim heç noldu,
Həyətimizdəki nar ağacı-
ən gözəl gülünü açmadan soldu...

O nar ağacı da bir qara çırağıdı-
qızıl güllər açacaq,
ayrılıq da bir qara çıraq,
daha sən də, sən də qorxma, bacı,
sevginin dəliliyindən
məni hələ də qoruyur o nar ağacı...

Hərə öz çırağının quludu, bacı,
biri ay çırağının, biri gün çırağının,
bir də yuyat yerimdə yanası
o qara çırağın quluyam mən də.

## UNUTDULAR MƏNI, UNUTDULAR

Könül bağladığım adamlar,
Sirr verib, sirr saxladığım adamlar,
yanlarında ağladığım adamlar
dünya gələ, gedə çıxmaz yadımdan.

Əlim əllərindən çəkilməmiş,
Yıxıq könüllər tikilməmiş,
qonur gözlərimə
qara torpaqlar tökülməmiş
unutdular, məni unutdular.

Görünmədim gözlərinə,
göz görmədi, könül unutdu,
bu dünyada yaman dərtdi-
görünərsən, deyərlər, var,
görünməzsən, unudarlar.

Düşünürəm öz dalımca,
düşünürəm, gözüm dolur,
Hamı səni unudanda
bu yalançı dünyada
ölümlər gerçək olur.

## BİRCƏ DAMLA GÖZ YAŞI

Səndən bir istəyim,
Bir diləyim yox, Tanrım,
istəsən qələmimi də,
qanadlarımı da
qaytarıb qoyaram qapına,
İstəyim, diləyim, uzaqbaşı,
ürəyimi naşı-naşı
doğrayan bu dərdi ağlamağa
bircə damla göz yaşı.
Bircə damla göz yaşı ver
bu zalım bəndənə!
Ver! Bir daha inanım qüdrətinə!

# MƏN ZALIM ADAMAM, KAMANÇA

Qardaşım ağaclar, bacım çiçəklər,
bir də söz tutdu sizi,
söz tutdu, sevda qurutdu,
üz tutub yüyürməyin mənə sarı,
bağlanıb canımın daş qapaqları.

Bu dünyanın bəla qarıları,
qala qapıları, daş qapıları,
yetim qapıları, boş qapıları
bağlanıb canıma, bağlanıb canım,
bağlanıb canımın yaş qapaqları.

Mən söz balasıyam, zalım tifili,
sürüşüb alnımdan Allahın əli,
daha sən də,
sən də ağladammazsan məni,
mən zalım adamam,kamança.

# ALLAHI BİR OLANIN EŞQİ DƏ BİR OLAR



# UNUDULACAQ BÜTÜN SEVDALAR

Sevgi sevgiylə,
dərt dərdlə unudulur.

Unudulacaq bütün sevdalar,
unudulacaq bütün nəğmələr,
unudulacaq unudulmaz hər nə var,
ancaq təkcə mən səni
yenidən sevməkçün hər bahar
yenidən unudacağam.

Ən gözəl xatirə də
ən acı göz yaşıtək udulur,
udulur, unudulur,
yurt yurdla,
sevgi sevgiylə, dərt dərdlə,
insan insanla,
İsa Məhəmmədlə unudulur.

Həddən çox şey bilirik bu dünyada.
Boş şeydi! Unudulacaq hamısı!
Unutduqlarımız yenidən, yeni başdan
sudan, torpaqdan, dağdan, daşdan
çıxırmıştək görünəcək bizə hər dönədə,
ən solğun çiçəklər
ən işıqlı ulduzları sevəcək yenə də.

Çiçək gözlüm, nəğmələr oxumaqla bitir,
oynamaqla bitmir elə bil,
gəl, bu nəğmə çatmamış sona
bu sonsuz dünyanın sonunacan
oynayaq bu nəğmənin havasına.

## MƏNİM KİMİSİNİ DİZ ÇÖKDÜRMƏYƏ

Məni bir gözəl səs aldadar ancaq,
Bu dünyada anlaşılmaz hər nə var
mənə bir sərxoş səs anladar ancaq.

Yenə nəğmə söylə, yaman ayığam,
yenə sərxoş olum, aşsın, yıxılsın
bircə işarəmlə bu dəmir divar,
aldat, anlat mənə yanıq səsinlə
bu dünyada anlaşılmaz hər nə var.

Tələbə kimiyəm yenə, gözəlim,
Cibimdə yenə də qəpik-quruş var.
Qəm çəkmə, hər halda bu ilk baharda
Sənə bir dəstə gül almağa çatar.

Mənim kimisini diz çökdürməyə
nə Koroğlu gərək, nə qaçaq Nəbi.
bir gözəl sevgili, bir nəğmə qəmli,
bir kəlmə şirin söz-lap ən axırı:
— Eyy, Vaqif Bayatlı, əllər yuxarı!

# UÇAN QIZ

O qıza bax! Bir azdan uçacaq-
Ləlәkləyir qolları,
Ləçəkləyir yaxası,
Yarpaq altda gizlənən
Alma, heyva qoxusu
Uçan tellərinin qoxusu.

Bax, bax
Bir az, bir az qalxır qanadları,
uça bilmir ancaq,
hələ göyüzünə baxır qanadları,
hələ dünyadan,
hələ göyüzündən
qorxur, qorxur qanadları.

O ürəyi qönçə qıza bax!
Özü də bilmir niyə
gülləri bir-bir əyir üzünə.
Əydikcə güllərin nəfəsi
sevginin nəfəsitək dəyir üzünə.

O qanadlı, o qönçə qıza bax!
Gözünün işığıyla,
Gülən üzünün batığı,
darağı, sancağıyla
necə xoşbəxt olmaq istəyir, Allah!

O qıza bax, Tanrısı!
nolar, onu da sal yada,
Heç olmasa bir gözəli
xoşbəxt elə bu dünyada.

## TƏK, TƏNHA, YALQIZ

İnanmırsan? İnanma sevgiyə! Yoxdu sevgi!
Ancaq bir gün gələcək,
hara getsən görəcəksən,
sevməyənlər hamısı təkdi bu dünyada,
təkdi, tənhadı, yalqızdı!

İndi xəbərin yoxdu,
Bir gün qəfil duyacaqsan
ulduzların arasında bu dünya kimi
sən də tənhasan, yalqızsan, təksən,
Təksən! Təksən! Təksən!
Bax onda baxmayacaqsan,
hamıdan az sevirlər səni,
sən hamıdan çox sevəcəksən.

Sevgi alacaq səni, atacaq səni,
çırpacaq güllərə, tikanlara,
sevginin gücündən
tikanlar güllərdən yumşaq gələcək sənə,
heç xəbərin də olmayacaq onda
bu dünyada hamını
hamıdan çox sən sevəcəksən!
Sən sevəcəksən.

Sevəcəksən, sevəcəksən, görəcəksən
bir zamanlar özün,
tək, tənha, yalqız olantək
indi də sevgin qəmin əlində,
qəmin tütəyində, qəmin dilində
kamançatək, tütəktək təkdi,
Təkdi! Tənhadı! Yalqızdı!

# DÜNYANIN ƏN BALACA QUŞU

Dünyanın ən güclü adamı
ola da bilmərəm, olmaq da istəmirəm,
çünki canımdakı dünyanın ən zəif adamı
dözəmmir hətta
kimsə üfürüb söndürəndə,
üfürüb öldürəndə bir şamı.

Dünyanın ən varlı adamı
ola da bilmərəm, olmaq da istəmirəm,
mənimçün ən böyük dünya varı-
qanadları hər an uçmağa,
qolları hər an həm döyüşə,
həm də qucmağa açıq
üzü-gözü gülən bir alaçıq.

Mən səni dünyada hamıdan çox
sevə də bilmərəm, sevmək də istəmirəm,
çünki ancaq sevmədən sevənlər,
sevgidən ölmədən ölənlər
hamıdan çox sevərlər,
hamıdan çox ölərlər.

Mən hamıdan gücsüz,
hamıdan cansız olmaq istəyirəm,
dünyanın o ən gücsüz,
ən cansız cannın bütün canıyla
sevmək istəyirəm səni,
sevmək istəyirəm Tanrı qələmiylə
adımız yan-yana yazılantək,
balaca bir quş
öz balaca yuvasının
küncünə qısılantək.

# DİZSİZ İKİ ÇİÇƏKÇÜN YANIQ KAMANÇADA ÇALINAN HAVA

Qeybdən gələn səs kimi,
ölümqabağı nəfəs kimi
gəldin ömrümə,zalım qızı,
çıx gecəyə, oynayaq bu havaya da
sən şəhərin o başında,
mən şəhərin bu başında

Gözəl gözlərə gələn yaş kimi,
uğruna baş qoyulası savaş kimi
endin ömrümə,zalım qızı,
çıx gecəyə, oynayaq bu havaya da
sən günlərin o başında ,
mən günlərin bu başında ,
aylarla, illərlə oynayaq belə.

Bir yanıq kamançada
çalına bilər ancaq
bu sevdanın havası ,
daha diz üstdə oxunulmaz,
diz üstdə oynanılar
bu sevdanın duası.

Beləcə, diz çökək, diz çökək,
diz üstdə oynamaqçün diz çökək,
diz çökək, diz çökək
diz çökməkçün bədənlərini sındırıb
özlərinə diz düzəldən
dizsiz iki çiçəktək.

## BÖYÜYƏR UŞAĞIN TALEYİ BOYDA

Söykənmisən uzaq bir pəncərəyə
O sevgili üzün, o şəkil üzün
donub pəncərədə ay işığıtək,
bir qəmli sevginin yaraşığıtək.
Bəlkə inanmırsan olub keçənə,
Ömür gərdişinə, ölüm köçünə?!
Günlər gözlərinin gölündən keçib
Kölgəsi qırıştək düşüb üzünə,
əlinin, saçının gülündən keçib,
günlərin altında gül işığıyla
bir qəmli hüzn də telindən keçib.
Bəlkə inanmırsan olub keçənə,
lap dünən gəlmisən bu dünyaya sən.
Təzəcə sevmisən, sevilmisən də,
əllərin sevginin çiçəyi hələ,
illər tellərinin rənginə dəyib
şuxluğuna dəyə bilməyib hələ.

Söykənmisən uzaq bir pəncərəyə,
bir uşaq dayanıb yağış altında
bir qədim şəkilə baxırmış kimi
baxır pəncərəyə, baxır üzünə.
O tale üzündən gül rəngi kimi
çiçək qoxusutək keçəcək ona.
O sevgili uşaq, o şəkil uşaq
indi sirr içində dayanıb durur,
bircə il, beşcə il, keçəcək illər
solacaq könüllər, donacaq gözlər,
göylərin altında yaddan çıxacaq
o sehirli üz də, o pəncərə də.
Uşaq böyüdükcə, illər dəydikcə
o sehirli üz də, o pəncərə də

böyüyüb uşağın taleyi boyda,
üzünün torpağı, göyüzü boyda,
gözünün gecəsi, gündüzü boyda
illərcə gəzəcək başının üstdə.
Sonralar hardasa o da eləcə
ya bir şəkil kimi, ya bir kölgətək
bir başqa uşağa göründü bəlkə.

Kim bilir dünyaya gəlirik bəlkə
ya bir tale kimi, ya bir sirr kimi
bir gözəl uşağa, bir gözəl quşa,
bir gözəl ağaca, bir gözəl daşa
bir yol pəncərədən görünək gedək.



# SEVGİ

Göyüzünə bir yerdə açdığımız
pəncərədi sevgi.
Tülü alma gülü, heyva gülü,
tülü milli-milli.

Pəncərədə çırpınan ulduzları
açıb içəri buraxdığımız otaqdı sevgi-
döşəməsi bulut, tavanı göyüzü,
tavanı ulduz gölü, ulduz dənizi.

Sahilində yana-yana dayanıb baxdığımız
sonunu xəyalımızda da
tapa bilmədiyimiz göyüzüdü,
göyüzünün dənizidi sevgi.

Bir-birimizdən neçə gecə,
neçə küçə uzaq
eyni anda eyni ulduza baxa-baxa
o ulduzun güzgüsündə
əl-ələ, tel-telə verməkdi sevgi,
orda şəklimizi
bir-birinə qısılı görməkdi sevgi,
o anda o ulduzda görünməkdən çox
-»diz çökmüş sevgilimin
dizi yerdən ağrı çəkdi»-
deyib düşünməkdi sevgi.

## QEYSİN LEYLİNİ GÖRDÜYÜ GÜNDƏN BİR GÜN ƏVVƏL

Hələ qanadı yoxdu,
hələ yerüzünün oğludu o,
Sabah qanadı çıxacaq,
Sabah ayın, ulduzun,
eşqin oğlu o olacaq,
Hələ Qeysdi onun adı,
Sabah məktəbə gedəcək,
Sabah bu dünyada
Hamıdan çox o sevəcək,
Çünki bu dünyadakı
çiçəklərin ən gözəlini
təkcə o görəcək,
İndi hamıdan çox gülür,
Bir də heç vaxt gülməyəcək o,
İndidən görünür eşqinin dövləti, varı —
gülən gözlərinin dibində
gizlənib titrəyən göz yaşları,

Bu gün gəlincikdən ötrü
ağlayıb gülən Leylinin,
Eşqin dilindən xəbərsiz
pərvanənin, şamın
dilini bilən Leylinin
xəbəri yox, sabah bir qanadlı otaqda
bir səf qönçə oğlan düzüləcək,
bir səf qönçə qız.

# BİR QIZIN TELLƏRİ ƏSDİ ÜZÜMƏ

Gizlicə-gizlicə döndü buludlar,
Gizlicə-gizlicə dindi umudlar,
İndiki buludlar beləcə gəlmir,
İndiki yağışlar beləcə yağmır,
On ilin başından bir yaylıq üstdə
bir ipək xatirə qondu üstümə,
bir qızın telləri əsdi üzümə.

Mənim gülüm yağış! Çiçəyim yağış!
O ipək illərdən, atlaz günlərdən,
gilənar göylərdən dolan yağışım,
bir çinar üstündə qoyub gəlmişdim
mən səni sevgili, mən səni yalqız,
çinarın altında bir gilənar qız.

Bu gilənar yağış, bu çiçək yağış
o eşqli çinarın üstündən yağır,
On ildən, beş ildən, dünəndən yağır,
bütün sevgilərin, bütün eşqlərin
göyüzünə dönən yerindən yağır,
min il susub qalan lal sevgilərin
qəfil eşqlə dinən yerindən yağır.

İllərin altında solmaz o tellər,
Hər bulud lələyi umudla gələr,
O nərgiz illərin sevgisi qızlar
hər yaz gilas-gilas,
gilənar-gilənar açar, qızarar.

## ON BEŞİNDƏ BİR QIZ

On beşində bir qız
bir aylı gecəni
canından ata bilmədi,
uyuya bilmədi, yata bilmədi,

Səhərisi hara getdi,
gözü onu alınca,
ay göydən endi, gəldi,
gəzdi qızın dalınca.

Qız qəfil gördü onu,
Çaşdı, itirdi yolu,
Canı sevgiylə dolu,
Gözü ay işığıyla,
o dönüb hərdən-hərdən
gülümsəyirdi aya .

On beşində bir qız-
hələ sevginin körpəsi,
hələ sevginin uşağı,
öz-özünə gülümsəyəndə,
dalınca ya ay gəzir,
ya da ay işığı.

# AR OLSUN, AND OLSUN QARA TORPAĞA

Bu gözəli də soldurub
dünya batdı günahına,
ona bir insan qıymazdı,
Allah, necə qıydın ona?!

Vallah, həm ağlamalı,
həm gülməlidi ölüm,
Daha nə deyim ona,
Allah, dəlidi ölüm.

Hamını alır qoynuna,
Hamını alır üşüdür,
ölüm sənin deyil, bəlkə
qara torpağın işidir?

Gül bitirir, göz güldürür,
And olsun qara torpağa!
Gözəlləri tez soldurur,
tez alıb aparır deyə
ar olsun qara torpağa!

## SƏN DƏ EŞQDƏN GÜLDÜN, OĞLAN?!

Lap indicə səndin ölən?
Son anında səndin gülən?
Sən də, sən də eşqdən güldün,
Sən də eşqdən öldün, oğlan?

Ölümü eşqlə aldadan
Ölüb ölümü balladan,
Ölümü də sevgi dadan,
O səndinmi, səndin, oğlan?

O səndinmi, sənmi öldün?
Nəfəsini zəncir bildin,
Bilən kimi qırıb gəldin,
Sən də eşqə gəldin, oğlan?!

Həm vardın, həm yoxdun ancaq,
Doğulandan ruhdun ancaq,
Bəs bu qəbrdə kim yatacaq?
Sən də qəbrə girdin, oğlan?!

# SABAH BƏLKƏ DƏ SEVMƏYƏCƏKLƏR MƏNİ

Zalım qızı! Üzün ay işığıyla dolub,
gözlərin göz yaşıyla.
O gəlin qayanın yanında durma!

Yarpaq-yarpaq ləpələrin xışıltısıyla
o zalım qızını
aldatma, gəlin qaya!
Düşərsən bəlaya.

O yaşıl qayığına
Yanaşmaram, gəlin dəniz.
Gəlin dəniz! Gülüm dəniz!
Şeytanın üzü gülür-
sularının üzündə!

Saçım qaranlıqlardan,
üzüm, gözüm ay işığı,
bu dəqiqə bir də təzədən
çıxsam qaranlıqlardan,
qəmli-qəmli baxsam üzünə-
bəlkə də əsmər üzlü o zalım qızı
yalansız da sevər məni.

Çəkilib getməsin saçımdan qaranlıqlar,
Üzümdən, gözümdən ay işığı,
bəlkə də sabah,
bəlkə də heç vaxt sevməyəcəklər məni.

## TORPAĞIM DA QISQANACAQ

Neyləsəm,
Hamısı boş şey
çıxıb getsəm, inanma
bir il, beş il,
min il sonra qayıdacağam.

Onda da neyləsəm,
Hamısı boş şey,
onda da xəbərin olmayacaq
səninçün dönmüşəm dünyaya ancaq.

Onda da xəbərin olmayacaq
səni necə qısqanıram
min il, milyon il sonra da
torpağım da qısqanacaq torpağını.

# QIŞ SEVDASI

Bu dəli sevdanın
Əvvəli qar gəldi, sonrası yağış.
Yuyub aparacaq bu yağış qarı,
Yuyub aparacaq bütün kinləri,
yuyub aparacaq
sonrakı sevgilər əvvəlkiləri.

Əlində qartopu bir qız çağırar:
üzündə, gözündə nə kədər, nə kin...
görsən bircə kərə
dərdi dərdin olar, sevgisi sevgin.
Kəlməyə uğunar, səsə uğunar,
yıxılıb durarsan, durub baxarsan,
taleyin verdiyi dərsə uğunar.
O üzdə, bu üzdə qonşu oğlanlar
qartopu çırparlar qızın belinə,
yupyumru, çılçılpaq ayaqlarına.
Çırparlar dünyanın bu get-gəlinə,
çırparlar dünyanın yasaqlarına.
Bilməzlər, hərə öz içində sızlar,
bilməzlər, hər ili ilk qar yağanda
bütün oğlanlara vurular qızlar.
Bilməzlər, bilməzlər!
Hamı fağırlaşar qızın yanında
ancaq o qız doymaz, indi yalandan
qonşu oğlanları tuşlayıb atar,
vurar ötüb keçən yad oğlanları.

...Vurar, vurar, dalaşdırar axırı
qonşu oğlanlarla yad oğlanları.

## BİR DƏ BİR KİMSƏNİ SEVMƏYƏCƏYƏM

Hər gün bir sevdaya düşüb inləyən
bu dəli könlümə yanıram, dostlar.
Bir də sevda nədi, bilməyəcəyəm,
Bir də bir kimsəni sevməyəcəyəm.

Bir də bu dünyada eşqdən yazmağa,
Sevgidən azmağa daha halım yox.
Bu xan oğlanlara, xanım qızlara
Qara sevda nədi, bir sualım yox...

Getdi gözlərimdən bir dəvə kini,
Getdi qollarımdan küçə davası.
Bahar ağaclardan çəkilən kimi
Çəkildi başımdan sevgi havası.

Könlüm dəliliyi unutdu çoxdan,
Axır ki, ağlımın səsinə uydum.
Qonur gözlərimdə yorğunluq haqdan,
doydum küçələrdən, yollardan doydum.

Bir də sevda nədi bilməyəcəyəm,
Bir də bir kimsəni sevməyəcəyəm.

## QARA QIZ — QAR QIZ

On ildi bir qara qız
əlində qar topu
dayanıb illərin o başında
vurmaq istəyir məni,
ancaq, qıyammır, qıyammır.

On ildi bir qara qız
ağappaq qarın
ağ günlərimiztək
dağılacağından qorxa-qorxa,
bir ayağı üstə qalxıb
eləcə qorxub qalıb.

Güllər sevəsi barmaqları
üşümüş olar indi.
Xalılar üstdə gəzəsi ayaqları
uyumuş olar indi.

On ildi yaz-yay
əridə bilmir
o qara qızı-o qar qızı.

On il nədi ki...
Bir də gördün
On ilin günləri
bir qar topasının dənələritək
saçlarına dağıldı,
bir də gördün qar qız kimi
o qara qız da nağıldı.

# BU AYRILIĞA DA YIXILMA, KÖNÜL

Qəm çəkmə, sıxılma, sıxılma, könül,
Heç vaxt ayrılığa yıxılmamısan,
bu ayrılığa da yıxılma, könül,
bil, bu ayrılıq da ayrılıq deyil,
bir əbədi eşqdi izləyir səni,
hər bir ayrılığın ən son ucunda
yenə də gizlənib gözləyir səni.

Bir yerdə qaldıqca hamı bir səsə,
hamı bir nəfəsə dolur, köklənir,
Beləcə, illərcə dərd də, kədər də,
lap elə insan da solur, köhnəlir.

Çıxıb getmək! Getmək! Çox uzaqlara!
Çox uzaqlardan da çox uzaqlara!
Orda qoşulmaq ancaq çiçəklərə,
ancaq çiçəklərə, ancaq uşaqlara!

Hər təzə şəhərdə, hər kənddə, könül,
təzədən başlanır ömür elə bil.
Getmək! Getmək! Getmək! Elə hey
getmək!
Hər təzə yurda təzə sevgitək!
Getmək! Getmək! Gəzərgi yaşamaq
küləklərtək, buludlartək.
Yaşamaq bir günlüyə, bir aylığa,
Bir ayrılıqdan başqa bir ayrılığa.

## UZUN GÜZGÜ QABAĞINDA

Uzun güzgü qabağında
öz-özüylə oynayan ayüzlü-
gözləri bu bahar kimi
keçib gedəcək bir eşqlə dolu.

Uzun güzgü qabağında
Bir qönçə yavrusu, bir çiyələk
açılır bir sevginin havasına-
bir bahar yağmuruna açılırmıştək.

Ancaq ayaqları altında
öldürsəm özümü
bəlkə inanar sevdiyimə,
bəlkə də deyər:
-Eşq dəlisiydi, biçarə.

Uzun güzgü qabağında
özü-özünə edilən naz,
keçsə də min bahar, yaz,
can bədəndən çıxsa da
eşq candan çıxmaz, çıxmaz.

## ALLAHI BİR OLANIN EŞQİ DƏ BİR OLAR

Elə bilirdim bu da
təzə ayrılıq olacaq,
zaman hər şeyi alacaq,
Ancaq, ancaq ...

Heç deməynən sənin sevgin
axıb dolub hər anıma,
Günlərlə yağan yağmurtək
Hopub keçibdi canıma.

Sonra hər an gecə, gündüz
Bəxt kimi, yuxu kimi,
Ruh kimi izlədim səni,
qara gözəl
ağ çiçək gözləyəntək
mən də gözlədim səni.

Bu gecə xəbərin yox,
Sənin itkin adınla
Öz cəzamdı çəkirəm
göyüzünün altında;
Göyüzünün altında
Sevgi bir olar,
Seçki bir olar,
Allahı bir olanın
Eşqi də bir olar.

## BİR DƏ MİN İL SONRA DİRİLSƏM

Ölsəm, bir də min il sonra dirilsəm,
Bu dünyada hər şeyin sonunu bilsəm?!

...Bir çölün düzündə bir qara kolla
qəflətən tapışıb qalsam baş-başa,
baş-başa qaldığım o qara kol da
kolluğundan çıxıb dönsə qardaşa,
nə desəm, nə sorsam, cavab yerinə
tikanlı üzünü sürtsə üzümə,
hər tikan ucundan, tikan canından
bir damla göz yaşı baxsa gözümə,
bir dəniz də gəlsə, üzündə gəmi,
hey sürtsəm üzümü divarlarına,
uzanıb qollarım, bitib qollarım
dönsə o dənizin avarlarına,
sular qollarımı yuduqca yusa,
saçlarım yosuntək axdıqca axsa,
bir cüt günəş kimi, bir cüt ay kimi
bir qızla bir oğlan bulutdan çıxsa,
O qız sən, o oğlan mən olmuş olsam,
Hər an da yenidən yeni bir eşqlə
Sənin uçuşuna baxıb vurulsam...

Ölsəm, bir min il də sonra dirilsəm,
yenə göyüzündən bir bulud üstdə
o qızla o oğlan enirmi görsəm.

Yerüzündən Kainata top, tank nəriltiləri, mərmi, mina, bomba gurultuları ucalmaqdadır. Onların altında səssiz minalar: — «De məni sevirsən», — «Mən səni cocuqtək sevirəm», «yenə de», — «mən səni cocuq anasına qısılıb anasının qucağında itəntək sevirəm», — «Yenə, yenə de» — «Mən sənin qoynuna qısılıb qoynunda, boynuna dolanıb boynunda, ulduzuna, ayına, dolanıb ulduzunda, ayında itmək istəyirəm» — «yenə, yenə de!»

Ehey! Kainatın o başındakılar! Gurultunuzu da, nəriltinizi də eşidirəm. Deyəsən, məni sevdiyinizi qışqırırsınız, mən də, mən də sizi sevirəm. Sizi sevirəm, sizə sarı uçuram, sizə sarı uçuram.

*Kainatın o başından*
*bizə sarı uçan tənha varlıq.*

Tanrım, bütün kainatda hamını hamıya sevdir, həm də hamı hamını sevdirsin, hamı bu dünyaya sevgi yuvasına girəntək girsin, üzü heç gülməyənlərin də üzü gülsün, ən çox sevdirənlər ən çox sevilənlərdən olsun, İlahi.



Tanrım, hamını ilkin yaratdığıntək
hər an sevginin çiçəyi elə, gülü elə,
sevginin sultanı, həm də sevginin qulu elə.
Nə gözəl, nə gözəl, ey Yaradan!
Elə sən istədiyintək
hamı hər an həm qul, həm də sultan!

**VAQİF BAYATLI ODƏR**
**(Cəbrayıllı Vaqif İsib oğlu)**
**YUPYUMRU BİR EŞQ İLƏ**

NƏŞRİYYAT REDAKTORU
*Akif Dənzizadə*
BƏDİİ REDAKTORU
*Adıgözəl Abdullayev*
TEXNİKİ REDAKTORU
*Günel Axundova*
KORREKTORU
*Fəridə Ələsgərli*
OPERATORU
*Narınc Quluyeva*
ÇAPA MƏSUL
*Cəlil Quluyev,*
*Ramiz İmanov,*
*Azad Babayev*

Çapa imzalanmış 14.05.2008,
formatı 60x84$^1/_{16}$,
fiziki ç.v 21 ofset kağızı №1,
tayms qarnituru,
sifariş K121. Sayı 519

Kitab
**«ÇİNAR-ÇAP»**
nəşriyyatında nəşrə hazırlanmış
və
ofset üsulu ilə çap olunmuşdur.

✉ *AZ 1025. Bakı şəhəri, Xocalı pr., 24.*
☎ *T/F.:* ***490-29-69, 493-72-55***
**www.**chinar-chap.az
**E-mail:** office@chinar-chap.az